

# ANIM GÜNÜ

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 211 (9666) 27 sentyabr 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# İqtisadi inkişaf gözlənilən səviyyədədir



## Prezident İlham Əliyev iqtisadi məsələlərə həsr olunmuş müşavirədə çıxış edib

**Sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müşavirədə çıxış edib.**

### Prezident İlham Əliyevin çıxışı

- Bugünkü müşavirədə biz iqtisadi məsələləri müzakirə edəcəyik. İlin sonuna cəmi üç ay vaxt qalır. İlin sonuna qədər görüləcək işlər haqqında da fikir mübadiləsi aparılacaq.

Bütövlükdə deməliyəm ki, ilin əvvəlindən iqtisadi inkişaf gözlənilən səviyyədədir. İlin əvvəlində mən bu ilin iqtisadi sahədə uğurlu olub-olmaması haqqında danışanda qeyd etmişdim ki, tam əminəm, bu il iqtisadiyyatımız üçün uğurlu olacaq. İlin əvvəlindən əldə edilmiş nəticələr və iqtisadi göstəricilər mənim sözlərimi təsdiqləyir. İqtisadi artım 4,3 faiz təşkil edib. Bugünkü dünyada gedən prosesləri təhlil edərkən və ümumiyyətlə, geosiyasi vəziyyətə nəzər saldıqda deyə bilərəm ki, bu, çox müsbət göstəricidir. İqtisadi inkişaf templəri inkişaf etmiş bir çox ölkələrdə olan iqtisadi inkişaf templərini üstələyir. Xüsusi əhəmiyyət daşıyan məqam ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar siyasəti öz bəhrəsini verməkdədir.

Onu da bildirməliyəm ki, son illər ərzində xarici neft şirkətləri tərəfindən həyata keçirilən layihələrdə neftin hasilatı ildən-ilə azalırdı və bu da təbii olaraq bizim ümumi iqtisadi inkişaf templərimizə mənfi təsir göstərirdi və biz bu tənəzzülü qeyri-neft sektorunun inkişafı ilə tənzimləyirdik. Ancaq neft hasilatında buraxılmış nöqsanlar xarici neft şirkətləri ilə aparılan danışıqlar nəticəsində onların diqqətinə çatdırılmış və onlardan tələb edilmişdir ki, bu nöqsanlar aradan qaldırılsın, neft hasilatının sabitliyi təmin edilsin. Son aylar ərzində bu istiqamətdə çox fəal iş aparılırdı. Bu işin nəticəsi olaraq əsaslı ümidlər yaranmışdır ki, daha bundan sonra heç bir əsası olmadan neft hasilatında tənəzzül olmayacaq. Təbii olaraq hökumət qurumları və Dövlət Neft Şirkəti bu işlərin gələcək gedişatına da daim diqqət yetirəcək. Beləliklə, bizim iqtisadi inkişaf templərimizi geriyə çəkən əsas amil ümid edirəm ki, aradan qaldırılacaq və gələn il sabit neft hasilatı təmin edilməlidir. Nəzərə alsaq ki, hazırda biz neft-qaz sektorunda bir neçə yeni layihə üzərində işləyirik və o layihələrin işlənməsi nəticəsində yeni hasilat proqnozlarımız var. Yəqin gələn il biz hamımız onu görəcəyik ki, yeni layihələrdən, yeni yataqlardan daha böyük həcmdə təbii qaz və neft kondensatı hasil edilir. Hesab edirəm ki, neft-qaz sahəsində templər müsbət olacaqdır.

→ 2

## Prezident İlham Əliyev 27 Sentyabr - Anım Günü ilə əlaqədar paylaşım edib




# VƏTƏNİN ŞƏHİD BALALARI



Harda qarapaltarlı, qəmli qadın görsəniz...

Harda vaxtsız ağaran saçlarına rəng çəkməmiş qadın görsəniz...

Harda təravətli üzünə erkən qırış düşmüş qadın görsəniz...

Harda tez-tez gözünü məchul nöqtəyə dikərək qeyri-ixtiyari ah çəkən qadın görsəniz...

Bilin ki, o, şəhid anasıdır!

Şəhid anası çox danışmaz, dərdini içində çəkər!

Özünü yazıq göstərməyə çalışmaz, qürurunun sınmasından qorxar!

Gizlində ağlayıb kiriyər, adam yanında gözünün qorasını axıtmaz!

*Hərdən üzü gülsə də, heç zaman ürəyi gülməz!*

*İtirə biləcəyini itirdiyindən həsrətlə qisas gününü gözləyər!*

*Nəhayət, gəldi o gün!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğ"u ilə düşmən ordusunu məhv etdi, 30 illik işğala 44 gündə son qoydu!**

**Ərazi bütövlüyümüzü, dövlət suverenliyimizi bərpa etdi!**

*İlham Əliyev ləyaqətli müharibə apardı, qəhrəman ordusuna, hər an Vətən uğrunda şəhid getməyə hazır olan Azərbaycan gəncinə arxalanaraq döyüşdü, Zəfər çaldı!*

**İlham Əliyev həm də müqəddəs şəhidlərimizin qanını müharibə meydanında aldı!**

*Bu gün isə müqəddəs şəhid qanı tökülmüş Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirir.*

*Şəhidlərin də uğrunda canlarından keçdiyi müqəddəs Azərbaycan torpağı şəhid balalarını ən qiymətli Vətən əmanəti kimi qoynunda saxlayır!*

❖ ❖ ❖

**Şəhid valideynləri, şəhid balaları, evinizdə müqəddəs bir əmanət var:**

**Şəhid oğlunuzun, şəhid atanızın tabutuna örtülmüş, ailənizə yadigar verilmiş üçrəngli dövlət bayrağı!**

*Sizin üçün yeni bir müqəddəs ünvan var: Övladınızın, atanızın uyuduğu qara mərmərli məzar!*

*Üstünüzdə çox qürurverici, amma kədərli və nisgilli bir ad var:*

*Şəhid övladı, şəhid valideyni!*

→ 3

# İqtisadi inkişaf gözlənilən səviyyədədir

## Prezident İlham Əliyev iqtisadi məsələlərə həsr olunmuş müşavirədə çıxış edib

*Əvvəli 1-ci səh.*

Ancaq təbii olaraq, bizim əsas hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir. İnflyasiya ilin əvvəlindən cəmi 1 faizdən bir qədər çox olmuşdur. Bu da çox müsbət göstəricidir. Mən artıq bəyan etdim ki, gələn il minimum əməkhaqqı və minimum pensiya artırılacaq, baxmayaraq ki, inflyasiya çox aşağı səviyyədədir, baxmayaraq ki, ölkə qarşısında duran vəzifələr böyük maliyyə vəsaiti tələb edir, ilk növbədə hərbi, hərbi sənaye kompleksinin inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası ilə bağlı. Bütün bunlara baxmayaraq, biz həssas təbəqə sayılan vətəndaşlarımızın da rifah halının yaxşılaşdırılması üçün əlimizdən gələni edirik. Bu yaxınlarda Azərbaycan Milli Məclisində etdiyim çıxışda bütün o rəqəmlər diqqətə çatdırılmışdır. Təkrar etmək istəmirəm, son beş il ərzində Azərbaycanda nə qədər böyük sosial islahatlar paketi reallaşdırıldı.

Yəni bütün bu məsələlər tam əminliklə deməyə əsas yaradır ki, iqtisadi inkişaf templəri həm bu ilin sonuna qədər saxlanılacaq, həm də, - nəzərə alsaq ki, indi gələn ilin büdcəsi müzakirə olunur və büdcənin parametrləri də daha genişmiqyaslı olacaq, - gələn il də iqtisadi inkişaf templəri lazımi səviyyədə olacaq.

Xarici sərmayələrin cəlb olunması üçün, xüsusilə qeyri-neft sektoruna cəlb edilməsi üçün bir çox təşviq layihələri həyata keçirilir. Azərbaycanda hökm sürən sabitlik və proqnozlaşdırılan vəziyyət, eyni zamanda Azərbaycan dövlətinin güclənməsi, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa edilməsi xarici investorların bizə olan münasibətini təbii olaraq daha da yaxşılaşdırıb. Baxmayaraq ki, Azərbaycanda çox müsbət sərmayə iqlimi uzun illərdir davam edir, hökm sürür. İnvestisiyaların adambaşına düşən həcminə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Son illər ərzində və xüsusilə antiterror əməliyyatından sonra dövlət suverenliyimizin tam bərpa edilməsi təbii olaraq bütün investorlara ciddi müsbət siqnal göndərmişdir və biz bunun bəhrəsini indi görürük. Bizim ənənəvi sənaye məntəqələrimizdə, - Bakı şəhəri, Sumqayıt şəhəri, sənaye parkları, - yeni müəssisələr açılır. Eyni zamanda azad edilmiş torpaqlarda, Ağdam və Cəbrayıl rayonlarında yeni sənaye parklarının yaradılması çox müsbət hal kimi qiymətləndirilməlidir.



Qeyd etdiyim kimi, indi gələn ilin büdcəsinin müzakirəsi gedir, yaxın vaxtlarda mənə təqdim ediləcək. Təbii olaraq, büdcə bizim imkanlarımızı əks etdirir. Biz, necə deyərlər, ayaqlarımızı yorğanımıza görə uzadırıq və uzatmalıyıq. Heç bir yerdən heç bir yardım almırıq, əksinə, xarici borcu azaldırıq və bir neçə il bundan əvvəl qarşıya qoyduğum vəzifə artıq uğurla yerinə yetirilir. Xarici borcun ümumi daxili məhsula nisbətdə Azərbaycan dünya miqyasında qabaqcıl ölkələr sırasındadır. Bu, cəmi 7,5 faizdir və bu, bizə imkan verir ki, gələcəkdə daha az vəsaiti xarici borcun qaytarılmasına sərf edək. Bu gün onu da biz müzakirə edəcəyik, baxarıq, bəlkə də bəzi borcları vaxtından əvvəl ödəmək də faydalı ola bilər. Halbuki mən bunu artıq bir neçə dəfə demişəm ki, istəsək, biz bir gün ərzində bütün borcu sıfırlaya bilərik. Hər halda, bu məsələni müzakirə etmək üçün bu gün, əlbəttə ki, fikir mübadiləsi aparılacaqdır.

Gələn ilin əsas xərcləri artıq müəyyən edilib. Mənim Milli Məclisdəki çıxışımda əsas prioritetlər açıq-aydın göstərilib. İlk növbədə ölkəmizin hərbi potensialının gücləndirilməsi, təhlükəsizliyin təmin edilməsi, dövlət sərhədlərinin qorunması, hərbi sənaye kompleksinin inkişafı, təhsil xərcləri, Qarabağın və Şərqi Zəngəzurun bərpası və digər layihələr. Həm sosialyönümlü layihələr, sosial infrastrukturla bağlı olan layihələr, həm də ümumi infrastrukturla bağlı olan layihələr - bütün bunlar bizim Dövlət İnvestisiya Proqramında öz əksini tapacaq. Bu barədə də danışacağıq. Elə etməliyik ki, biz gələn il imkan daxilində bütün əsas vəzifələri icra edək. Şübhə etmirəm ki, belə də olacaq. Artıq Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib. Biz öz resurslarımıza arxalanaraq güclü iqtisadiyyat qurmuşuq, müstəqil iqtisadiyyat qurmuşuq, heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq bizə beynəlxalq müstəvidə böyük imkanlar qazandırır ki, Azərbaycan uğurla, inamla, şərəflə, ləyaqətlə müstəqil xarici siyasət apara bilsin. Necə ki, aparmışıq və aparacağıq.

Bu gün biz bir çox digər məsələləri müzakirə edəcəyik. Əminəm ki, müzakirə və əldə edilmiş nəticələr, qəbul ediləcək qərarlar bizim iqtisadi inkişafımızı daha da sürətləndirəcəkdir.

❖ ❖ ❖

Sonra gələcək iqtisadi inkişafla bağlı müzakirələr olub.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 439** QƏRAR **Bakı şəhəri, 24 sentyabr 2024-cü il**

### Azərbaycan Respublikasının 2025-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2025-ci il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının 2025-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri" və "Azərbaycan Respublikasının 2025-ci il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri" bəyənilsin.

2. Bu Qərarın 1-ci hissəsində qeyd olunan layihələr "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində nəzərdə tutulmuş digər sənədlərlə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 440** QƏRAR **Bakı şəhəri, 25 sentyabr 2024-cü il**

### Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması haqqında

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2025-ci il 1 yanvar saat 06:00-dək uzadılsın.

2. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1209 (Cild I); 2024, № 3, maddə 308, № 6 (II kitab), maddə 732) 1.1-ci bəndində "2024-cü il 1 oktyabr" sözləri "2025-ci il 1 yanvar" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 441** QƏRAR **Bakı şəhəri, 25 sentyabr 2024-cü il**

### "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1184-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1184-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 29 may tarixli 251 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 984 (Cild I) ilə təsdiq edilmiş "Peşə hazırlığına cəlb olunan şəxsə verilən təqaüdün ödənilməsi Qaydası"nın 1.4-cü bəndində "əməkhaqqı" sözü "əməkhaqqının 50 faizi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 7 iyun tarixli 261 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1150 (Cild I) ilə təsdiq edilmiş "İşaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili Qaydası"nın 2.5-ci bəndində "əməkhaqqı" sözü "əməkhaqqının 50 faizi" sözləri ilə əvəz edilsin.

3. "Sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin Standartları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 97 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 358 (Cild I); 2024, № 3, maddə 314) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adından və 1-ci hissədən "və kvotadan əlavə iş yerlərinin" sözləri çıxarılsın;

3.2. həmin Qərarla təsdiq edilmiş "Sosial müəssisələrin və kvotadan əlavə iş yerlərinin Standartları" üzrə:

3.2.1. adından, 1.1-ci bənddən (hər iki halda), 2-ci hissənin adından və 2.1-ci bənddən "və kvotadan əlavə iş yerlərinin" sözləri çıxarılsın;

3.2.2. 4-cü hissə ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "ADEX-2024" və "Securex Caspian" sərgiləri çərçivəsində bir sıra sənədlər imzalanıb







**Bakıda keçirilən "ADEX-2024" və "Securex Caspian" sərgiləri çərçivəsində Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi (MSN) və tabeli qurumları ilə bir sıra xarici dövlət təşkilatları və özəl şirkətlər arasında sənədlər imzalanıb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, MSN ilə Türkiyənin Müdafiə Sənayesi Komitəsi, Milli Aerokosmik Agentliyi ilə Türkiyənin "Aselsan" şirkəti, Elmi-Tədqiqat İnstitutu ilə Belarus Respublikasının Dövlət Xarici Ticarət Unitar Müəssisəsi - "Belspesvneştexnika", "Azərsilah" Müdafiə Sənayesi Holdinqi ilə Türkiyənin REPKON, Çinin "China Precision Machinery Import-Export Corporation", Bosniya və Herseqovinanın "Tehnicki Remont Bratunac", Slovakiyanın "MSM Group", İsrailin "AS Holdings" və "Elbit Systems", Serbiyanın "Yugoimport SDPR" şirkətləri arasında müqavilələr imzalanıb.

Sənədlər həmin qurumlar arasında hərbi-texniki əməkdaşlıq sahəsində əlaqələrin genişləndirilməsini nəzərdə tutur.

## Müdafiə Nazirliyi ilə "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" QSC arasında anlaşma memorandumu imzalanıb





"ADEX-2024" və "Securex Caspian" sərgiləri çərçivəsində sentyabrın 26-da Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Müdafiə Sənayesi Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyəti arasında birgə fəaliyyətlərin həyata keçirilməsi və qarşılıqlı əməkdaşlığın qurulmasına dair anlaşma memorandumu imzalanıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Qeyd olunub ki, memorandum qurumlar arasında öz səlahiyyətləri daxilində fəaliyyət sahələrinə uyğun olaraq qarşılıqlı faydalı, uzunmüddətli, səmərəli əlaqələrin qurulması və inkişafı üçün əməkdaşlıq etmək, həmçinin bu istiqamətdə koordinasiyalı fəaliyyətlərin təşkili məqsədi daşıyır.

## Azərbaycan və BƏƏ arasında hərbi-texniki sahədə əməkdaşlığın perspektivləri müzakirə olunub

**Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinin təşkilatçılığı ilə Bakıda keçirilən "ADEX-2024" və "Securex Caspian" sərgiləri keçirilib.**



Müdafiə Sənayesi Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sərgi çərçivəsində sentyabrın 26-da Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Vüqar Mustafayev Birləşmiş Ərəb Əmirliklərinin "İnternational Golden Group" şirkətinin icraçı direktoru Fadel Saif Əl Kaabinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Danışıqlar zamanı iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlığın perspektivləri müzakirə olunub, qarşılıqlı maraq doğuran digər məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

Tərəflər faydalı müzakirələrin baş tutduğu görüşün əhəmiyyətini yüksək qiymətləndiriblər.

# VƏTƏNİN ŞƏHİD BALALARI



## İTHAF

Qardaş itkisi yaman olur!
Qardaş itkisi ağır olur!
Qardaş itkisi sağalmayan yara olur!
*Şəhidlər qardaşlarımızdır.*
*Şəhidlər övladlarımızdır.*
*Şəhidlər atalarımızdır.*

**Şəhidlər Vətənin oğulları, fəxri, qüruru, qəhrəmanlıq simvoludur.**

**Siz cismən bizi tərk etsəniz də, mənən daim bizimləsiniz, şəhid balalarımız!**

❖ ❖ ❖

Müharibədə şəhidlər də olur.
*Şəhidlik əbədiyyətə, ölməzliyə qovuşmaqdır.*
*Şəhidlik həyatla sonsuzluğun qovuşduğu andır.*

**Ömrün şəhidlik zirvəsi qəhrəmanlıq zirvəsi, iki dünyanın birləşmə nöqtəsi, ölümsüzlüyün ölümə qalib gəldiyi, insanın ölümündən sonrakı mövcudluğunun başlanğıcıdır.**

❖ ❖ ❖

Ay qardaş, gözüm qardaş
Ağzımda sözüm qardaş,
Sən düşdüyün torpağa,
Qurbanam özüm, qardaş...

Yad tufan saldı, oğul,
Ağlımı aldı, oğul.
Ürəyimin telində,
Qəm sazın çaldı oğul...

Şalım qara boyandı,
Ucu yerə dayandı,
Bizim ah-naləmizdən
Göydə fələk oyandı...

❖ ❖ ❖

Çoxunuz lap cavan idiniz...

Ananız gəlin gətirib, toyunuzu belə görməmişdi...

Övladlarını yetim qoyub gedənləriniz də oldu...

**Vətən çağıranda, Vətənə gərək olduğunuzu hiss edəndə heç nəyə baxmadan ələ silah götürərək əsgər paltarını geyindiniz!**

*Təkcə ata-ananızın deyil, həm də Vətənin övladı olduğunuzu sübut etdiniz!*

Yaraqlı-silahlı, arxalı-köməkli ermənininin üstünə hünərlə, cəsarətlə getdiniz!

**Nə düşməndən qorxdunuz, nə də ölümdən!**

**Əslində, heç ölməmisiniz də, şəhidlik məqamına, şəhidlik zirvəsinə yüksəlmisiniz!**

❖ ❖ ❖

"Şəhidlər ölməz, Vətən bölünməz" sözləri dilinizin əzbəri idi.

Bunu ucadan, qürurla söyləyərdiniz!

*Vətənin bölünməsinə yol verməmək üçün dünyada malik olduğunuz, sizə xas olan ən yüksək dəyərdən - şirin canınızdan belə keçdiniz!*

Siz söylədiklərinizi əməlinizlə sübut etdiniz, bizlər isə sizi daim anacağıq, qəlbimizdə, xatirəmizdə əbədi yaşadacağıq!

❖ ❖ ❖

*Keçdiyin yerləri torpaq deyərək basma, tanı,*
*Düşün altındakı minlərlə kəfənsiz yatanı!*
*Sən şəhid oğlusan, incitmə, yazıqdır atanı,*
*Vermə dünyaları alsan da, bu cənnət Vətəni...*

❖ ❖ ❖

**Yoxluğunuzla valideynləriniz, yetim qoyub getdiyiniz balalarınız barışa bilmir! Özlərinə məxsus həsrət və qubarla nə vaxtsa geri dönəcəyinizi səbirsizliklə gözləyirlər...**

Hər saat gözləyirlər...

Hər gün gözləyirlər...

Daha təsəlliverici sözlərdən də usanıblar!

Daha bəhanələrdən də doyublar!

Daha balalarınız doğmalarınızın "sabah gələcək" demələrinə də inanmırlar!

Hələ "şəhid" sözünün mənasını lazımınca dərk etmirlər!

Hələ ölümün nə demək olduğunu tam dolğunluğu ilə anlamırlar!

Bəlkə də belə yaxşıdır!

Amma istəyirlər ki, ataları yanlarında olsun!

Onları qucağına alaraq bağrına bassın, oxşasın, əzizləsin...

Əllərindən tutub gəzdirsin, hər şıltaqlıqlarına dözüb gülümsəsin...

Heyhat!

❖ ❖ ❖

Sən təkcə özünü, öz ailəni, öz övladlarını düşünmədin!

*Vətəni, torpağı, Vətən qeyrətini və təəssübünü hər şeydən uca tutdun!*

*Döyüşə atılanda tək özünü yox, doğmalarını, valideynlərini, ciyərparalarını da unutdun!*

Gözünün qabağında bir Vətən vardı, bir əsgər borcu, bir də şərəf və vicdan duyğusu!

**Nə yaxşı ki, qədirbilən dövlətin var!**

**Nə yaxşı ki, valideynlərinə, övladlarına dayaq duracaq qanunlar var!**

Bircə sən yoxsan!

Amma yoxluğun cisməndir!

*Ürəklərdəsən, əməlinlə yaddaşlara həkk olunmusan!*

*Səni sevənlərləsən!*

❖ ❖ ❖

Səni ağlayımmı, a şəhid balam?!

Axı deyirlər şəhidlər ölmürlər, ölümsüzlüyə yüksələrək müqəddəslərin yanında yer alırlar!

Ağı deyimmi?!

Yox!

Ölənə ağı deyərlər, ölümsüzlüyə qovuşanlara yox!

Bəlkə bayatı çağırım?

Hə, bax belə:

*Altımda kilim yandı,*
*Od düşdü, kilim yandı.*
*"Əziz balam" deməkdən*
*Ağzımda dilim yandı.*

❖ ❖ ❖

*Ağacda xəzəl ağlar,*
*Dibində gözəl ağlar,*
*Belə oğlu ölənlər*
*Sərgərdan gəzər, ağlar.*

❖ ❖ ❖

Qınamayın məni, ay şəhid balalarım, "ölüm" sözünü heç cürə sizə yaraşdırmıram!

**Əvvəla, siz canınızdan artıq sevdiyiniz Vətən torpağına qovuşmusunuz!**

**İkincisi, real həyatda yox olsanız da, milyonların qəlbinə köçərək orada özünüzə əbədi yer tutmusunuz!**

Ölənlər - unudulurlar!

Siz Vətən torpağına cismən qovuşanlarsınız!

Ruhunuz göylərdə, bir zamanlar həsrət qaldığınız doğma yurd-yuvalarda dolaşmaqdadır!

*Biz sizi görməsək də, siz bizi görürsünüz, hər şeydən xəbərdarsınız!*

*Yoxluğunuzdan necə üzüldüyümüzü də bilirsiniz!*

❖ ❖ ❖

"Fələyin yazdığını mən poza bilsəydim əgər..."

Yox, yazıya pozu olmur, şəhid balamın balası!

Taleyin qisməti beləymiş...

Atan səni doyunca öpüb oxşamadı!

Orta məktəbi bitirməyinə ürəkdən sevinə bilmədi!

Ali məktəbin diplomunu görüb fərəh və iftixar hissi keçirmədi!

Toyunda qol götürüb oynamaq, nəvə başı sığallamaq ona qismət olmadı!

Heç sənə var-dövlət də qoyub getmədi!

Çünki Vətənə xidmət edənləri sərvət düşündürmür, şəhid balamın balası!

Əvəzində şəhidlər özlərindən sonrakı nəsillərə yetəcək qədər təmiz və şərəfli ad qoyurlar!

Vətəni necə sevməyi, uğrunda canından keçməyi sözdə yox, əməldə göstərirlər!

❖ ❖ ❖

Harda qarapaltarlı, qəmli qadın görsəniz...

Harda vaxtsız ağaran saçlarına rəng çəkməmiş qadın görsəniz...

Harda təravətli üzünə erkən qırış düşmüş qadın görsəniz...

Harda tez-tez gözünü məchul nöqtəyə dikərək qeyri-ixtiyari ah çəkən qadın görsəniz...

Bilin ki, o, şəhid anasıdır!

Şəhid anası çox danışmaz, dərdini içində çəkər!

Özünü yazıq göstərməyə çalışmaz, qürurunun sınmasından qorxar!

Gizlində ağlayıb kiriyər, adam yanında gözünün qorasını axıtmaz!

*Hərdən üzü gülsə də, heç zaman ürəyi gülməz!*

*İtirə biləcəyini itirdiyindən həsrətlə qisas gününü gözləyər!*

*Nəhayət, gəldi o gün!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğ"u ilə düşmən ordusunu məhv etdi, 30 illik işğala 44 gündə son qoydu!**

**Ərazi bütövlüyümüzü, dövlət suverenliyimizi bərpa etdi!**

*İlham Əliyev ləyaqətli müharibə apardı, qəhrəman ordusuna, hər an Vətən uğrunda şəhid getməyə hazır olan Azərbaycan gəncinə arxalanaraq döyüşdü, Zəfər çaldı!*

**İlham Əliyev həm də müqəddəs şəhidlərimizin qanını müharibə meydanında aldı!**

*Bu gün isə müqəddəs şəhid qanı tökülmüş Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirir.*

*Şəhidlərin də uğrunda canlarından keçdiyi müqəddəs Azərbaycan torpağı şəhid balalarını ən qiymətli Vətən əmanəti kimi qoynunda saxlayır!*

❖ ❖ ❖

**Şəhid valideynləri, şəhid balaları, evinizdə müqəddəs bir əmanət var:**

**Şəhid oğlunuzun, şəhid atanızın tabutuna örtülmüş, ailənizə yadigar verilmiş üçrəngli dövlət bayrağı!**

*Sizin üçün yeni bir müqəddəs ünvan var: Övladınızın, atanızın uyuduğu qara mərmərli məzar!*

*Üstünüzdə çox qürurverici, amma kədərli və nisgilli bir ad var:*

*Şəhid övladı, şəhid valideyni!*

Bəlkə də həyatda sizin üçün asan olmayacaq!

Amma hamı sizi sevəcək, hörmət edəcək!

Atanıza görə!

Şəhid balası olduğunuza görə!

Şəhid valideyni olduğunuza görə!

Atanıza oxşadığınıza görə!

Təki taleyiniz oxşamasın!

Atanızın uğrunda şəhid getdiyi Vətən torpağı azaddır!

Düşməndən qisasınız alındı!

Ananızın, nənə və babalarınızın dərdlərini azaldıb, sevincini artıra bilərsiniz!

Bəxtiniz açıq olsun!

Vətən sizinlə də qürur və fərəh duysun!

Başınız yalnız şəhid atanızın məzarı qarşısında əyilsin!

**Bilin, artıq alnınız açıq, üzünüz ağdır!**

**Siz qəhrəman şəhid övladısınız!**

**Atanızın adına layiq igidlər kimi böyüməyə borclusunuz!**

**Siz Vətənə, Vətən sizə borcludur...**

❖ ❖ ❖

Cismən aramızda olmasanız da, mənən daim bizimləsiz!

Qarabağın azad edilmiş hər bir kəndinin, şəhərinin ən əziz, ən doğma, əbədi sakinlərindən biri sayılırsınız!

*Sənə qurban olum, a şəhid balam!*

*Sən axıtdığın müqəddəs qanınla Azərbaycan tarixinin qızıl səhifələrini yazdın!*

*Sən özün qəhrəmanlığın və şücaətinlə həmin tarixin şərəfli səhifələrindən birinə çevrildin!*

**Vətən səni unutmayacaq!**

**Azərbaycan xalqı sənin qəhrəmanlığını və rəşadətini daim yaddaşında hifz edəcəkdir!**

❖ ❖ ❖

Sənə qurban olum, a şəhid balam!

Məni qınama ki, səninlə birgə döyüşüb, səninlə bərabər ölə bilmədim!

Allah sizlərə rəhmət eləsin, şəhid balalarımız!

**Parçalanmış torpaqlarımızı qanınızla birləşdirdiniz!**

**Bəxtiyar SADIQOV**




# 27 sentyabrdan başlayan Zəfər salnaməsi

**Prezident İlham Əliyevin VII çağırış Milli Məclisin ilk iclasındakı nitqi dünyada sülhün, əmin-amanlığın, demokratiyanın, insan haqlarının bərpa edilməsinə bir daha çağırış, gələcəyimiz üçün yol xəritəsidir. Çıxışdakı fikirlər xalqın milli mənafeyinin, mübarizəsinin, ruhunun ifadəsidir. Vətən müharibəsinin ildönümü ərəfəsində söylənilənlər, qələbəmizə verilən qiymət qürurvericidir.**

Dövlət başçısı çıxışında bildirdi ki, İkinci Qarabağ müharibəsi, suverenliyimizin tam bərpa edilməsi dünya miqyasında tarixi hadisədir. Azərbaycan xalqı güclü iradə, birlik göstərərək 30 il davam edən işğala son qoydu. Dövlətimiz öz gücünü göstərdi. Əlbəttə, bu ifadələr hər birimizin ürəyindəndir, çünki otuz il düşmən tapdağı altında qalan, viran edilən, xarabazarlığa çevrilən Qarabağ torpaqlarında bu gün xoşbəxt həyatın təmin edilməsi, möhtəşəm bərpa quruculuq işləri, insanların ata-baba yurduna köçürülməsi və orada mənalı həyatın başlaması gələcək üçün zəmanətdir.

Prezident İlham Əliyev öz çıxışında qələbələrimizə, uğurlarımıza önəm verməklə bərabər, həm də qarşıda duran aydın vəzifələri müəyyənləşdirdi. Bu, ilk növbədə hərbi gücümüzün artırılmasıdır. Qeyd edildi ki, İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatı arxada qalsa da, dünyada gedən proseslər, yeni münaqişələr, müharibə ocaqlarının yaradılması, eyni zamanda Ermənistanda yüksələn revanşizm meyilləri bizi hərbi quruculuq işlərinə daha böyük diqqət yetirməyə vadar edir. Ölkə rəhbəri bildirdi ki, bəzi dünya dövlətləri Azərbaycanın qələbələrini həzm edə bilmir. Təcavüzkar Ermənistanı silahlandırmaqla, ona dəstək verməklə Cənubi Qafqazda sabitliyin pozulmasına cəhdlər göstərilir. Bu gün dünyada kim güclüdür, o, haqlıdır prinsipinin üstünlük təşkil etməsi və böyük dövlətlərin gücə arxalanması Azərbaycanın da hərbi qüdrətinin artırılmasını zəruri edir.

Əlbəttə, bu istiqamətdə ölkədə çox böyük işlər görülüb. Prezidentin rəhbərliyi ilə ordu quruculuğu uzun illərdir uğurla davam etdirilir. Müasir silahlar alınır, kadr ehtiyatı yaradılır, yeni hərbi təlimlər keçirilir, əsgər və zabitlərin peşəkarlığının artırılması üçün mühüm tədbirlər görülür. Sözsüz ki, bu da düşmənin məqsədlərinin gözündə qoyulması baxımından çox vacibdir. Prezident İlham Əliyev daim sülhün, əmin-amanlığın tərəfdarı olub və bu gün də bu xoş ənənə davam edir. Təəssüf ki, böyük dövlətlər, xüsusilə Ermənistan kimi təcavüzkar ölkəyə dəstək verənlər bu çağırışları hələ də lazımınca qiymətləndirmirlər və onun sülhə gəlməsinə maneələr törədirlər. Dövlətimizin başçısı çıxışlarında dəfələrlə qeyd edib ki, biz heç bir ölkənin diktəsi ilə işləmirik, müstəqil siyasət yürüdürük, xalqın mənafeyi, xoşbəxtliyi, gələcək inkişafı bizim üçün hər şeydən önəmlidir və bu istiqamətdə mühüm işlər görülür.

Vətən müharibəsinin ildönümünü qeyd edərkən biz qürurumuzu gizlədə bilmirik və gizlətməməliyik. Xalqımız birdir, ordumuz güclüdür və Prezidentimizin dediyi kimi, biz gücümüzə arxalanmalıyıq. İkinci Qarabağ savaşı və onun nəticələri bizdə qürur doğurduğu kimi, həm də bu günümüz üçün yeni imkanlar açır. Ölkə rəhbəri dəfələrlə bildirib ki, Vətən müharibəsindən sonra yeni dövr, yeni reallıqlar yaranıb. Suverenliyimizin tam bərpa edilməsi ölkə qarşısında yeni imkanlar, üfüqlər açır.

Bu gün nəinki ordu quruculuğuna, hərbi potensialımızın gücləndirilməsinə böyük önəm verilir, eləcə də işğaldan azad olunmuş ərazilərdə görülən abadlıq, tikinti işləri qələbələrimizin dəyərinə yeni dəyər qatır. İşğaldan azad olunmuş ərazilərdə quruculuq işlərinin sürətləndirilməsi - yeni yolların, tunellərin çəkilməsi, abadlıq işlərinin görülməsi qarşıda duran ən başlıca vəzifələrdən biridir. Sözsüz ki, bunun üçün ölkə iqtisadiyyatı güclü olmalı, maliyyə imkanları səfərbər edilməlidir. Sevindirici haldır ki, həmin torpaqlarda çox möhtəşəm işlər görülür. Son illərdə 19 milyard manatdan çox vəsaitin sərf olunması göstərir ki, Azərbaycan iqtisadiyyatı davamlıdır, inkişafdadır və həmin ərazilərin cənnətə çevrilməsi həm dövrün tələbi, həm də rəhbərin qarşıya qoyduğu məqsəd, ali arzu və istəkdir.

Vətən müharibəsində qazanılan qələbə Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub. Bu hadisədən başlayan tarix ağrılarımızı, acılarımızı, demək olar ki, yox edərək Azərbaycanın gələcəyinə yeni üfüqlər açıb. Sözsüz ki, bu qələbəni təmin edən Ali Baş Komandan, güclü ordumuz, xalqımızın birliyi və mütəşəkkilliyidir. Cənab Prezident də son nitqində birliyimizə, həmrəyliyimizə çox böyük önəm verərək bildirdi ki, bizim gələcəyimiz, uğurlarımız birliyimizdən, səfərbər olmağımızdan, qarşıya qoyulan vəzifələrin uğurla həyata keçirilməsindən asılıdır. Bu, hər bir vətəndaş üçün istiqamət proqramıdır. Xalqını, torpağını sevən, övladlarının gələcəyi üçün çalışan, bu istəkdə olan hər kəs bu vəzifələrin aliliyini dərindən dərk etməli, qiymətləndirməli və öz mübarizliyini, imkanlarını əsirgəməməlidir.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Milli həmrəyliyin qələbəsi

**Tarixi Azərbaycan torpaqlarında, xüsusən də Qarabağda çar Rusiyası dövründə yerləşdirilmiş ermənilər daha sonra xalqımıza qarşı düşmənçilik siyasəti aparmağa başladılar və bu 200 ildən artıq bir dövrdə faciələrin yaşanması ilə müşahidə olundu. Ermənilər məskunlaşdıqları Azərbaycan ərazilərində toponimləri dəyişməyə, mənimsəməyə, münbit əraziləri ələ keçirməyə başladılar.**

Bu məkrli niyyətlərinə uyğun olaraq radikal erməni millətçiləri azərbaycanlıları tarixi ata-baba yurdlarından sıxışdırıb çıxarır, etnik təmizləmə həyata keçirirdi. İfrat millətçilik üzərində qurulmuş "Daşnaksütyun" siyasəti azərbaycanlılara qarşı amansızlığı ilə seçilirdi. Məhz erməni millətçilərinin qanlı siyasəti nəticəsində 1905-1907-ci və 1918-ci illərdə yüz minlərlə soydaşımız vəhşicəsinə qətlə yetirildi. 1918-1920-ci illərdə xalqımızın yaddaşına erməni silahlı quldur dəstələrinin xüsusi etnik təmizləmə, soyqırımı kimi qanlı cinayətləri həkk olundu. Tarixi Azərbaycan torpaqlarında - İrəvanda, Dərələyəzdə, Zəngəzurda, Göyçədə, Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Muğanda, Göyçayda on minlərlə dinc azərbaycanlı soyqırımına məruz qaldı, yaşadıqları yerlərdən qovuldu, işgəncələrlə, məhrumiyyətlərlə, məşəqqətlərlə üzləşdi.

1948-1956-cı illərdə isə indiki Ermənistan ərazisindən tarixi ata-baba torpaqlarından 150 minə yaxın azərbaycanlı zorla deportasiya edildi. 1987-ci ildən etibarən isə daha 300 minə yaxın azərbaycanlı doğma yurd-yuvasından zorla çıxarıldı, etnik təmizləmə siyasəti həyata keçirildi. 1988-ci ildə başlayan Qarabağ hadisələri, erməni ideoloqlarının "dənizdən dənizə Ermənistan" adlı sərsəm ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərlə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələndi. Ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinə uzun müddət hüquqi, siyasi qiymət verilmədi.

Ermənilərin tarixi ərazilərimizdə azərbaycanlılara qarşı soyqırımı siyasətinə ilk dəfə Ümummilli Lider Heydər Əliyev tərəfindən siyasi-hüquqi qiymət verildi. Ulu Öndərin 1998-ci il 26 mart tarixdə imzaladığı fərmanı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi. Özünün işğalçı mahiyyətinə uyğun olaraq Ermənistan 1990-cı illərin əvvəllərində Azərbaycanda mövcud olan hərc-mərclikdən istifadə edərək ərazilərimizin 20 faizini işğal etməklə 1 milyon soydaşımızın öz vətənində qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə səbəb oldu. Erməni cəlladları Azərbaycan ərazilərini işğal edərkən dinc əhaliyə amansızcasına divan tutdu, misli görünməmiş vəhşilik, insanlığa qarşı cinayət törətdilər. Başlıbel, Ağdaban, Bağanis-Ayrım kəndlərində törədilmiş vəhşiliklər erməni faşizminin əsl simasını göstərdi. Dinc azərbaycanlılara qarşı törədilən qətliamlar içərisində Xocalı soyqırımı xüsusi qəddarlığı ilə seçilir.

ATƏT-in Minsk qrupu isə 28 il ərzində məsələnin həllinə deyil, dondurulmasına çalışdı. Çünki bu on illiklər ərzində aparılan danışıqlarda işğalçıya, işğala məruz qalmış tərəfə eyni münasibət göstərildi. Bunun bariz nümunəsi Azərbaycanın ərazi bütövlüyü ilə bağlı beynəlxalq qətnamələrin 30 ilə yaxın kağız üzərində qalmasıdır. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsinin 27 il icra olunmaması beynəlxalq birliyin, ikili standartların açıq təzahürü idi. Azərbaycan isə əraziləri işğalda olmasına baxmayaraq, daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirdi və münaqişənin danışıqlar vasitəsilə həllinə çalışdı.

Erməni vandalları Azərbaycan ərazilərini işğalda saxladığı 30 ilə yaxın müddətdə talançılıq, mənimsəmə, tarixi torpaqlarda milli-mənəvi abidələrin məhvi, özününküləşdirilməsi ilə məşğul olub. Bu illər ərzində onlar iqtisadiyyatımıza və mədəni irsimizə ziyan vurub, şəhərlərimizi, kəndlərimizi, bütün mövcud infrastrukturu tamamilə məhv edib, sıradan çıxarıblar. Amma Azərbaycan xalqı işğalla heç zaman barışmayıb, hər zaman tarixi ədalətin bərpa olunacağına inanaraq Ermənistana və onun havadarlarına bu anın heç də uzaqda olmaması ilə bağlı zaman-zaman çağırışlar edib.

2016-cı il Aprel, 2020-ci il Tovuz döyüşləri Azərbaycan dövlətinin, xalqımızın işğalla barışmayacağı qətiyyətini nümayiş etdirdi. Amma Ermənistan tərəfi bundan nəticə çıxarmaq əvəzinə öz çirkin niyyətindən əl çəkməyərək təxribatlarını davam etdirdi. Azərbaycan xalqının səbir kasasını daşıran sonuncu damla isə 2020-ci il 27 sentyabr tarixində baş verdi. Həmin gün atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri cəbhəboyu Azərbaycan Ordusunun mövqelərini, mülki obyektləri, dinc insanları hədəf almağa başladı. Düşmənin hərbi təxribatının qarşısını almaq Ermənistanın təcavüzkar siyasətinə son qoymaq məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə ordumuz bütün cəbhəboyu əks-hücum əməliyyatlarına başladı. Bununla da 44 günlük Vətən müharibəsi başlandı və şanlı Qələbə ilə bitdi. Mədəniyyət paytaxtımız tarixi Şuşa şəhərində üçrəngli bayrağımız dalğalandırıldı. Ermənistanın işğal faktına son qoyuldu. Düşmən döyüş meydanında məğlub olaraq kapitulyasiya aktına imza atmağa məcbur oldu. 2020-ci ilin 44 günlük Vətən müharibəsi noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya prezidentinin imzaladığı üçtərəfli razılaşma ilə başa çatdı. Bu faktiki olaraq Ermənistanın kapitulyasiya sənədi idi. Hərbi müstəvidə əldə edilən qələbənin siyasi müstəvidə davam etdirilməsi nəticəsində 44 günlük Vətən müharibəsindən sonrakı 20 gün ərzində 3 rayon - noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın Azərbaycana təhvil verildi. 2022-ci avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bununla da üçtərəfli Bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı.

Vətən müharibəsi Azərbaycan xalqı üçün şanlı tarixdir. Milli həmrəyliyimizin təcəssümü olan bu qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Düşmən torpaqlarımızdan qovuldu, ədalət və beynəlxalq hüquq bərpa olundu. Bu gün Azərbaycan qalib dövlət kimi yaşayır və bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacaq. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya ilə uğurla irəliləyən müasir və qalib Azərbaycan bu gün tarixinin ən şərəfli dövrünü yaşayır. Azərbaycan dövləti mövcud olduğu tarixi dönəmlərinin heç birində bu qədər güclü olmayıb. Bu güc isə Ulu Öndər Heydər Əliyevin amallarına, Prezident İlham Əliyevin praqmatizminə əsaslanır.

İkinci Qarabağ müharibəsindən sonra revanşizm və faşist ideologiyasının əsirinə çevrilən Ermənistan 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsində hələ də qanunsuz silahlı birləşmələr saxlayır, qondarma separatçı-xunta rejiminə dəstək verirdi. Bu da, sözsüz ki, sülhə başlıca əngəl olmaqla yanaşı, ciddi təhlükə mənbəyi idi. 2023-cü il sentyabrın 19-da Ermənistan silahlı qüvvələrinin qanunsuz birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsi sıradan çıxaraq mülki şəxslər həlak olmuşdu. Həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də minaya düşməsi nəticəsində hərbi qulluqçularımız həlak oldu və yaralandı. Bu acı reallıq Ermənistanın işğalçı, terror, ərazi iddialarını davam etdirmək niyyətinin göstəricisi idi. Azərbaycan dövləti özünün suveren və beynəlxalq birlik tərəfindən tanınan ərazisində bu cür qanunsuz silahlıların olmasını, sözsüz ki, qəbul edə bilməzdi. Elə həmin gün Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qalib, güclü ordumuz qanunsuz silahlılara və separatçılara qarşı lokal xarakterli antiterror tədbirləri həyata keçirməyə başladı. Bu tədbirlər təhlükəsizliyin təmin edilməsinə xidmət edirdi. Cəmi 24 saat davam edən antiterror tədbirləri separatçıların təslim olub, ağ bayraq qaldırması, silah-sursatı təhvil verməsi və Azərbaycanın şərtlərini qəbul etməsi ilə başa çatdı. Bunun nəticəsində Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciəti nəzərə alınaraq 2023-cü il sentyabrın 20-də saat 13:00-da müvafiq şərtlər altında antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olundu. Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələrinin, qeyri-qanuni erməni silahlı dəstələrinin silahı yerə qoyub təslim olmaları Azərbaycanın növbəti qələbəsinin təntənəsi idi. Müzəffər Ali Baş Komandan, Azərbaycan əsgəri və xalqı bir daha sübut etdi ki, şəhidlərimizin qanı heç vaxt yerdə qalmır.

44 günlük müharibədə əldə edilən tarixi qələbədən sonra şəhid və qazilərin, müharibə iştirakçılarının misilsiz xidmətləri dövlətimiz tərəfindən ən yüksək səviyyədə qiymətləndirildi. Əldə edilən tarixi zəfər münasibəti ilə orden və medallar təsis edildi. Yeni medal və ordenlər qələbənin əbədiləşdirilməsi və müharibə iştirakçılarına ali diqqətin təcəssümü idi.

Bakıda Vətən müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyi də inşa olunacaq. Müharibədə vətən uğrunda savaşın rəmzi - "Dəmir yumruq" hamı üçün bir güc simvoluna çevrilmişdi. Bu birlik, güc Ali Baş Komandanın ətrafında bir yumruq kimi birləşən xalqımızın hələ bundan sonra daha möhtəşəm qələbələrə, uğurlara imza atacağına başlıca zəmin yaradan amildir.

***Sevinc HÜSEYNOVA,***
***Milli Məclisin deputatı***

# İlham Əliyevin yaratdığı şanlı tarix

**Torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnən və Azərbaycan xalqının zəfər salnaməsinə çevrilən Vətən müharibəsinin başlanmasının bu gün 4-cü ili tamam olur. 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təxribatlarına cavab olaraq "dəmir yumruq" əks-hücum əməliyyatına başlayan Azərbaycan Silahlı Qüvvələri Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə cəmi 44 günə 30 ilə yaxın davam edən işğala son qoydu.**

Bu savaş ilk gündən Prezident İlham Əliyevin qətiyyətli siyasətinin, ordumuzun yüksək döyüş qabiliyyətinin, hərbçilərimizin rəşadətinin, xalqımızın mübarizliyinin, milli həmrəyliyinin təcəssümünə çevrildi. 44 gün davam edən müharibə bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan xalqı heç vaxt torpaqlarının işğal altında qalması ilə razılaşa bilməzdi və bu tezis savaşda öz təsdiqini tapdı.

Qazandığımız tarixi Zəfər isə Azərbaycanın yüksəlişinin, cənab Prezident İlham Əliyevin inkişaf siyasətinin, Ulu Öndər Heydər Əliyevin ideyalarının təntənəsinə çevrildi. Bu gün dönüb tarixə ekskurs edəndə, fikir, təhlil süzgəcindən keçirəndə bir daha görürük ki, respublikamıza rəhbərlik etdiyi ilk gündən Prezident İlham Əliyev həyata keçirdiyi siyasi-iqtisadi kursla həm də torpaqlarımızın işğaldan azad edilməsi üçün zəmin formalaşdırıb. Dövlətimizin başçısının inkişaf siyasətinin təməlində həm də torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün təmin olunması dayanıb, xarici siyasətimizin əsas prioritetini məhz Ermənistanın işğal siyasətinə son qoyulması təşkil edib.

Beləliklə, cənab İlham Əliyev Azərbaycanı inkişaf etdirməklə, tarixinin ən qüdrətli dövlətinə çevirməklə, Ermənistanın işğal siyasətinin beynəlxalq platformalarda hüquqi ifşasına nail olmaqla torpaqlarımızın güc yolu ilə azad edilməsinin etibarlı təməlini yaratdı. Və bu siyasət 44 günlük müharibə günlərində və ondan sonra dünya erməniliyinin Azərbaycana qarşı qlobal siyasi cəbhə formalaşdırmasının da qarşısını aldı.

Savaşın ilk günündən Azərbaycan xalqı bir daha öz liderinin qətiyyətinə, güclü iradəsinə, əzminə, vətənpərvərliyinə və qəhrəmanlığına şahidlik etdi. Məhz cənab İlham Əliyevdəki bu yüksək keyfiyyətlər Vətən müharibəsi günlərində cəmiyyətimizi yalnız qələbə ovqatına kökləyən, xalqımızı ruhlandıran əsas amillərdən biri kimi özünü göstərdi. Prezident İlham Əliyev ilk gündən maskası cırılan Fransa başda olmaqla bütün erməni təəssübkeşlərinin təzyiqlərini neytrallaşdırdı, Azərbaycanın milli maraqlarını layiqincə təmin etdi. Bu mənada böyük qürur hissi ilə qeyd etməliyik ki, Prezident İlham Əliyevin müharibə günlərindəki qətiyyəti, sərkərdələrə xas davranışları bütün cəmiyyətimizi öz liderinin ətrafında daha sıx birləşdirdi, milli və siyasi həmrəyliyimizin nümayişi oldu.

Əlbəttə, qətiyyətli sərkərdənin ordusu da mübariz və qəhrəman olar. Bu baxımdan Azərbaycan Silahlı Qüvvələrinin 44 gün ərzində döyüş meydanlarında göstərdiyi qəhrəmanlıq xalqımızın dövlətçilik tarixinin şərəfli səhifəsinə, gələcək nəsillərin hər zaman örnək götürəcəkləri vətənpərvərlik salnaməsinə çevrildi. Müharibə isə qansız-qadasız ötüşmür, həm də torpaq uğrunda ölən varsa, vətəndir. Biz torpaqlarımızın azadlığı uğrunda şəhidlər verdik. 3 min Vətən övladı bu savaşda şəhidlik zirvəsinə ucaldı. Onlar Vətən müharibəsində "dəmir yumruğ"a çevrildilər, qəhrəmanlıqları ilə vətəni sevməyin nümunələrini yaratdılar, dastana döndülər, xalqımızın qəhrəmanlıq ruhunu gələcək nəsillərə ötürdülər, millətimizin qüdrətini bütün dünyaya göstərdilər.

Bu gün həm də Azərbaycanın hər yerində şəhidlərimizin əziz xatirəsi anılır. Prezident İlham Əliyevin sərəncamına əsasən Vətən savaşının başladığı tarixin - sentyabrın 27-nin Anım Günü kimi qeyd olunması şəhidlərimizin əziz xatirəsinə ehtiramın göstəricisidir.

Vətən müharibəsinin nəticələri ilə Azərbaycan regionda yeni reallıqlar yaradıb. Torpaqlarımızın işğaldan azad edilməsi, Ermənistanın işğalçı siyasətinə son qoyulması, dünya erməniliyinin məğlubiyyətə uğradılması, Minsk qrupunun fəaliyyətinin faktiki olaraq dayandırılması, Azərbaycanın qalib dövlət olaraq qlobal nüfuzunun daha da yüksəlməsi, işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinin başlanılması, keçmiş məcburi köçkünlərin tədricən öz evlərinə dönmələri bu reallığın əsas göstəriciləridir. Vətən savaşından ötən 4 ilin mənzərəsi isə həm də ondan xəbər verir ki, Azərbaycan dövləti yeni yaranan reallıqlar fonunda da özünün milli maraq və mənafelərini layiqincə təmin edir. Bu dövrdə şərti sərhəddə Ermənistanın bir neçə dəfə törətdiyi hərbi təxribatlarının qarşısının qətiyyətlə alınması, Qazax rayonunun Ermənistanla sərhəddəki 4 kəndinin işğaldan azad edilməsi, həmin ərazidə 13 kilometr məsafədə dövlət sərhədinin delimitasiya və demarkasiyasının həyata keçirilməsi və bütün bunların vasitəçilərin iştirakı olmadan reallaşması, Rusiya sülhməramlılarının Azərbaycan ərazilərini vaxtından əvvəl tərk etməsi dövlətimizin milli maraqlarının layiqincə təmin olunmasından xəbər verir.

Bu dövrün ən mühüm tarixi hadisəsi isə Azərbaycanın bütün əraziləri üzərində milli suverenliyinin tam bərqərar edilməsidir. Hər bir azərbaycanlı inanırdı ki, torpaqlarımızı işğaldan azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev qətiyyətli və müdrik siyasəti ilə Qarabağdakı erməni separatizminə də son qoyacaq. Beləliklə, 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən antiterror tədbirlərinin nəticəsi olaraq Qarabağın erməni separatçılarından azad edilməsi xalqımızın Vətən müharibəsindəki Zəfərdən sonra növbəti tarixi qələbəsi oldu. Bununla da Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanın dövlətçilik tarixinin daha bir uğurunun müəllifinə çevrildi. Mühüm məsələlərdən biri də odur ki, İkinci Qarabağ savaşının və antiterror tədbirlərinin nəticələrini, yəni Azərbaycanın yaratdığı reallıqları beynəlxalq ictimaiyyət qəbul edir.

Qarabağ müharibəsi və suverenliyimizin tam bərpa edilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə yaranan, müəllifliyi ilə yazılan şanlı tariximizdir. Bu uğurlar belə bir həqiqətin təsdiqidir ki, güclü lideri olan dövlət qarşısındakı bütün hədəflərə çata bilir. Qarşıda isə yeni vəzifələr dayanır və Prezident İlham Əliyev sentyabrın 23-də yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı nitqində dövlətimizin əsas prioritetlərini elan etdi. Cənab Prezidentin qeyd etdiyi kimi, ölkə qarşısında duran vəzifələr icra edilməlidir ki, biz daim inkişafda olaq, öz gücümüzü artıraq və Azərbaycan xalqının bundan sonra da təhlükəsiz həyatını təmin edək. Böyük məmnunluq hissi ilə deməliyik ki, bu vəzifələrin yerinə yetirilməsi üçün bütün imkanlar var. Prezident İlham Əliyevin qətiyyətli siyasəti və xalqımızın öz rəhbərinin ətrafında sarsılmaz səfərbərliyi respublikamızı qarşıdakı hədəflərə də layiqincə çatdıracaq.

***Nəsib MƏHƏMMƏLİYEV,***
***Milli Məclisin deputatı***



# Ərazi bütövlüyümüzə gedən yolun başlanğıcı

**Azərbaycanın 30 il ərzində erməni işğalı altında olan torpaqları xalqımızın birliyi və ordumuzun gücü sayəsində 44 günlük Vətən müharibəsi zamanı azad edildi. Sentyabrın 27-də Vətən müharibəsinin başlanmasından 4 il ötür.**

Dövlətimiz 30 il ərzində daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirərək münaqişənin danışıqlar yolu ilə həllinə çalışmışdı. Təəssüf ki, bu dövrdə dünyanın mötəbər beynəlxalq təşkilatı hesab olunan BMT işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirdi, tərəfləri sülhə çağıran bəyanatlarla kifayətləndi. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il kağız üzərində qaldı. Beynəlxalq birlik bu sənədlərin icra olunması üçün Ermənistana heç bir təzyiq göstərmədi. Bütün bunlar erməni tərəfini Azərbaycana qarşı yeni-yeni təxribatlar törətməyə "həvəsləndirirdi". Həmin təxribatlar nəticəsində hərbçilərimizlə yanaşı, mülki insanlar da zərər görürdü, bəziləri həyatlarını itirirdi. Bütün bunlar torpaqlarımızın hərbi yolla azad edilməsini qaçılmaz etdi.

2016-cı il Aprel və 2020-ci il Tovuz döyüşləri zamanı Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr vuraraq öz gücünü göstərmişdi. Lakin Ermənistan bu döyüşlərdən də nəticə çıxarmayaraq 2020-ci il sentyabrın 27-də növbəti hərbi təxribat törətdi, Azərbaycanın yaşayış məntəqələri və döyüş mövqeləri şiddətli artilleriya atəşinə tutuldu. Nəticədə hərbi qulluqçularla yanaşı, Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak oldu. Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bütün cəbhəboyu əks-hücuma keçmək əmri verdi. 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ölkənin ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi, BMT Təhlükəsizlik Şurasının qətnamələri icra olundu. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri üçtərəfli Bəyanat imzaladılar. Bu, əslində, Ermənistanın kapitulyasiyası idi.

Dörd il əvvəl sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsində ordumuzun rəşadəti, Ali Baş Komandanın qətiyyəti ermənilərin və havadarlarının bölgədəki siyasətinin iflası ilə nəticələndi. Bütün təzyiqlərə, təhdidlərə sinə gərən Azərbaycan qələbə qazandı və tarixi ədalət bərpa olundu. Ordumuz şəhidlərin qanını yerdə qoymadı. Qələbəni bizə bəxş edən igid əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, şücaəti, fədakarlığı artıq dastana çevrilib. Məhz bu amili nəzərə alaraq dövlətimizin başçısının müvafiq sərəncamı ilə 27 Sentyabr tarixi ölkəmizdə Anım Günü kimi qeyd olunur. 27 Sentyabr Anım Günündə xalqımız şəhidlərimizin əziz xatirəsini böyük ehtiramla yad edir.

Bu qələbə milli həmrəyliyin, peşəkar rəhbərliyin, effektiv hərbi strategiyanın və ordumuzun gücü nəticəsində qazanıldı. Vətən müharibəsi nəticəsində Ermənistanın işğalçılıq siyasətinə son qoyuldu. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Müxtəlif dairələrdən olan müntəzəm təzyiq və təhdidlərə rəğmən Azərbaycan öz haqq savaşında zəfər çaldı. Bu zəfər sayəsində "Ermənistanın güclü ordusu var", "erməni xalqı döyüşkən xalqdır", "Azərbaycan xalqı döyüşə bilmir" kimi miflərə birdəfəlik son qoyuldu. Müharibədə qələbə qazanan Azərbaycan regionda yeni reallıqlar yaratdı. Azərbaycan dövləti, Prezident İlham Əliyev regionun inkişafı ilə bağlı önəmli təşəbbüslərlə çıxış edib. Əgər Ermənistan bu təşəbbüslərə qoşularsa, inkişaf edə bilər, əks halda bu ölkənin heç bir perspektivi yoxdur. Ermənistan revanşist əməllərə əl atmağa cəhd göstərərsə, bilməlidir ki, "dəmir yumruq" yerindədir.

Azərbaycanın tarixinə qələbə səhifəsi yazmış dövlətimizin başçısına xalqın inam və etimadı sonsuzdur. Azad edilmiş ərazilərə səfərləri ilə Prezident İlham Əliyev öz sevincini xalqı ilə bölüşməklə yanaşı, həmin əraziləri tez bir zamanda bərpa etmək, dirçəltmək əzmində olduğunu əyani nümayiş etdirir. Ötən il 19-20 sentyabrda şanlı ordumuzun Qarabağ ərazisində qanunsuz erməni hərbi birləşmələrinə qarşı keçirdiyi 23 saatlıq antiterror tədbirləri də dövlətimizin gücünü göstərdi. Azərbaycanın suverenliyi artıq tam təmin olunub. Bu yolda canını qurban vermiş bütün şəhidlərimizin ruhu şaddır. Beləliklə, müstəqil Azərbaycanın tarixində yeni dövr başlayıb. Prezident İlham Əliyevin liderliyi ilə ölkəmiz bundan sonra da yeni-yeni zəfərlər qazanacaq.

***Sevinc FƏTƏLİYEVA,***
***Milli Məclisin deputatı***

# Gəncədə Anım Günü ilə bağlı 44 Eldar şamı əkilmişdir

**Gəncə Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban vermiş Vətən müharibəsi şəhidlərinin anım gününə ehtiram əlaməti olaraq ağacəkmə aksiyası keçirilmişdir.**



Ekoloji Park Kompleksinin ərazisində keçirilən aksiyada şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki Baş konsulu Qaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, Milli Məclisin deputatı Pərvin Kərimzadə, bələdiyyə sədrləri, idarə, müəssisə və təşkilat rəhbərləri və başqaları iştirak etmişlər.

Aksiya zamanı simvolik olaraq 44 Eldar şamı əkilmiş, onlara aqrotexniki qulluq göstərilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



# Bakıda Anım Günü ilə əlaqədar ağacəkmə aksiyası keçirilib

**Bakının Nərimanov rayonundakı Məmməd Araz və Aşıq Molla Cümə küçələri boyunca olan ərazidə genişmiqyaslı ağacəkmə aksiyası keçirilib.**



"Report" xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyəti, "Regional İnkişaf" İctimai Birliyi (RİİB) və Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) birgə təşkilatçılığı ilə keçirilən aksiya 27 Sentyabr - Anım Gününə həsr olunub.

Aksiyada icra hakimiyyətinin əməkdaşları, struktur bölmələrin işçiləri, İctimai Birliyin könüllüləri və AKTİ-nin üzvləri iştirak ediblər.



Aksiya çərçivəsində ərazi yararsız tullantılardan təmizlənib, Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 500 ədəd şam ağacı əkilib, damcı üsulu ilə suvarma sistemi quraşdırılıb, həmçinin ağaclara gələcəkdə qulluq göstərilməsi üçün cavabdeh şəxslər müəyyənləşdirilib.

Qeyd edək ki, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarda dalğalandırmış, ölkənin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərə, bütün şəhidlərə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərancamı ilə hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilir.



# İlham ƏLİYEV: "Biz haqq yolundayıq,

## Zəfər gündəliyi

**2020-ci il sentyabrın 26-dan 27-nə keçən gecə Ermənistan hərbi birləşmələri növbəti dəfə genişmiqyaslı hərbi əməliyyata başlayır...**

**Azərbaycan Silahlı Qüvvələri isə düşmənə layiqli cavab vermək üçün əmr gözləyir və illərlə gözlənilən hərbi komanda verilir - İrəli!..**

**Savaş tariximizin ən şərəfli səhifəsi olan Vətən müharibəsi başlayır...**

Saat 07:30
Müdafiə Nazirliyinin məlumatı

### Ermənistan silahlı qüvvələri bütün cəbhəboyu genişmiqyaslı təxribat törədib

Sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.

Düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar var. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

Mülki əhali və hərbi qulluqçular arasında itkilər və yaralılar barədə məlumat dəqiqləşdirilir.



Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə cavab tədbirləri görür.

Saat 08:35
Müdafiə Nazirliyinin məlumatı

### Düşmənin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır

Cəbhənin ən gərgin Tərtər-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində yerləşən ön xətt hərbi hissələri, raket və artilleriya bölmələri, cəbhə aviasiyası, zirehli texnika və digər qoşun növlərinin qarşılıqlı fəaliyyəti ilə Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır.

Hazırda Azərbaycan Ordusu tərəfindən cavab tədbirləri görülür və qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir.

Cəbhəboyu zonada baş verən hadisələrlə bağlı mətbuata və ictimaiyyətə əlavə məlumat veriləcək.

Əhali arasında çaşqınlıq salmamaq, həmçinin hərbi qulluqçularımızın təhlükəsizliyini təmin etmək məqsədilə sosial şəbəkə istifadəçilərini, elektron media və digər kütləvi informasiya vasitələri nümayəndələrini rəsmi olmayan, dəqiqləşdirilməmiş və qeyri-obyektiv məlumatlardan istifadə etməməyə çağırırıq.



Saat 09:10
Müdafiə Nazirliyinin məlumatı

### Bütün cəbhəboyu qoşunlarımız əks-hücum əməliyyatına başlayıb

Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib.

Şəxsi heyət və tank bölmələrimiz raket-artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikasını aşkar edərək məhv edirlər.

Əldə olunan məlumata görə, müxtəlif istiqamətlərdə Ermənistan hava hücumundan müdafiə bölmələrinin 12 ədəd "OSA" zenit-raket kompleksi məhv edilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin cəbhənin Tərtər istiqamətində bir döyüş helikopteri vurulub, ekipaj üzvləri sağdır.

Qoşunlarımızın sürətli əks-hücum əməliyyatı davam edir.

Saat 10:28
Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin məlumatı

### Ölkə üzrə internetin verilməsi məhdudlaşdırılır

Ermənistanın törətdiyi genişmiqyaslı təxribatın qarşısını almaq üçün ölkə üzrə internetin verilməsi məhdudlaşdırılıb.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaydığı məlumata görə, nazirlik ölkə üzrə internetin verilməsində məhdudiyyətlər tətbiq edəcək: "Azərbaycan vətəndaşlarının münaqişə vəziyyətində internetlə bağlı yarana biləcək məhdudiyyətlər səbəbindən anlayış göstərəcəklərinə ümid edirik".

Saat 10:53
Müdafiə Nazirliyi təkzib edir

Ermənistan tərəfinin guya Azərbaycan Ordusuna məxsus 3 tank, 2 helikopter və 3 pilotsuz uçuş aparatının (PUA) vurulması barədə yaydığı məlumat yalandır və dezinformasiyadır.

Bildiririk ki, cəbhədə bölmələrimiz düşmən üzərində tam üstünlüyə malikdir.

Saat 11:08
Müdafiə Nazirliyinin məlumatı

### Azərbaycan Ordusu mülki əhalini atəşə tutmur

Məlumat verildiyi kimi, Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib.



Rəsmi surətdə bəyan edirik ki, Azərbaycan Ordusu mülki əhalini, mülki obyektləri və mülki xarakterli infrastrukturları hədəfə almır. Azərbaycan işğalçı Ermənistandan fərqli olaraq hərbi əməliyyatlar zamanı Cenevrə konvensiyaları da daxil olmaqla beynəlxalq humanitar hüququn müddəalarının tələblərinə riayət edir.

Ermənistan ordusu özünün atəş nöqtələrini qəsdən mülki əhalinin yaşayış yerlərinin içərisində və yaxınlığında yerləşdirir.

Azərbaycan Ordusu işğal altında olan ərazilərdəki mülki əhalini hərbi obyektlərdən kənar durmağa çağırır.



Saat 11:50
Prezident xalqa müraciət edir

### İlham ƏLİYEV: "Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir"

Prezident İlham Əliyev xalqa müraciət edərək deyir ki, bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutub.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaq. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikası sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür.

Ali Baş Komandan vurğulayır ki, son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter alırdı. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də artilleriya atəşi nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olub. Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıb və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olublar. Amma Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi.

Bu tədbirlərlə düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı: "Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır".

Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü?

Prezident bu məsələyə aydınlıq gətirərək deyir ki, ilk növbədə Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər: "Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir". Prezident deyir ki, Ermənistanın iyul və avqust aylarındakı təxribatlarına verilən layiqli cavab onlara dərs olmayıb. Ona görə yenə də çirkin əməllərini həyata keçirirlər.

Dövlət başçısı bildirir ki, əgər Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" deyirsə, onda hansısa danışıqlardan söhbət gedə bilməz. Bu azmış kimi, Ermənistan rəhbərliyi iddia edir ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Bu da danışıqlar prosesinə vurulan böyük zərbədir.

İlham Əliyev qətiyyətli şəkildə bəyan edir ki, Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq. Danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir və bu o deməkdir ki, işğala son qoyulmalıdır:

"Ermənistanın bizə qarşı təxribatları bu faktlarla bitmir. Bu yaxınlarda bizim qədim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının "andiçmə" mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu, bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər".

Ali Baş Komandan Ermənistanın son təxribatlarını, müharibə hazırlıqlarını təsdiq edən faktları da misal göstərir. Bunlar qondarma "Dağlıq Qarabağ respublikası" parlamentinin qədim Azərbaycan şəhəri - Şuşaya köçürülməsi haqqında qərarın qəbul edilməsi, Ermənistanın baş nazirinin on minlərlə insanı birləşdirən "könüllü" hərbi birləşmələr yaradılacağı ilə bağlı bəyanatıdır. Bütün bunlar Azərbaycana qarşı bu gün törədilən təxribatın hazırlıq mərhələsi idi.

İlham Əliyev bu barədə hətta BMT kürsüsündən də dünyaya səslənərək Ermənistanın yeni müharibəyə hazırlaşdığını, bu ölkənin təxribatlarının dayandırılmasının vacibliyini bildirdiyini deyir.

Azərbaycan Prezidenti Ermənistanın işğal edilmiş torpaqlarımızda qanunsuz məskunlaşma siyasətinə də aydınlıq gətirir: "Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirildi. Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Bu cinayətə görə Ermənistan cavab verəcəkdir. Bu, bizə qarşı növbəti təxribatdır. İşğal edilmiş torpaqlarda məskunlaşma aparmaq cinayət hesab olunur və bu siyasət Ermənistan tərəfindən uzun illər ərzində aparılır".

Ermənistanda mövcud olan ağır iqtisadi, siyasi və sosial vəziyyətə görə ölkə əhalisinin azaldığını vurğulayan dövlət başçısı deyir ki, bu ölkədə de-



moqrafik böhran yaşanır və onlarda işğal edilmiş torpaqlarda öz adamlarını yerləşdirmələri üçün insan resursları yoxdur. Ona görə xaricdə yaşayan ermənilərə ümid edirlər. Hazırda bu siyasət davam etdirilir. Bununla paralel olaraq, işğal edilmiş bəzi ərazilərimizdə Ermənistan qanunsuz məskunlaşma aparıb. Rayonlarımızın, kəndlərimizin adları dəyişdirilir. Azərbaycanlıların tarixi irsi silinir, tarixi abidələrimiz, məscidlərimiz dağıdılır, təhqir edilir. Məscidlərimizdə Ermənistan inək, donuz saxlayır. Bu, bütün müsəlman aləminə ən böyük təhqirdir. Bunu edən faşistlərdir, vandallardır, vəhşilərdir.

Prezident deyir ki, Azərbaycan heç bir təxribata əl atmayıb, sadəcə olaraq öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır: "Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır".

Həmçinin BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Amma dövlət başçısı bu qətnamələrin 30 ilə yaxın müddətdə kağız üzərində qaldığını söyləyərək deyir ki, bu müddətdə Minsk qrupu çərçivəsində danışıqlar aparılsa da, Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıb. BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul edib. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri Azərbaycanın mövqeyini dəstəkləyir:

"Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"



Saat 12:11
Müdafiə Nazirliyinin məlumatı

### Əks-həmlə əməliyyatı uğurla davam edir

Azərbaycan Ordusunun bölmələri cəbhənin Tərtər-Ağdam, Füzuli-Cəbrayıl və Murovdağ istiqamətlərində Ermənistan qoşunlarının işğalı altında olan vacib yüksəkliklər uğrunda döyüşlər aparırlar.

Raket-artilleriya qoşunları və aviasiya vasitələri düşmənin komanda məntəqələrinə zərbələr endirir, manevr edən çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını və hərbi obyektlərini məhv edirlər.

Bütün cəbhəboyu şiddətli döyüşlər gedir.

Saat 13:42
Xarici jurnalistlərə qarşı təxribat

### Ermənistan silahlı qüvvələri türkiyəli jurnalistləri hədəfə alır

Erməni hərbi bölmələri "TRT Haber" və "Anadolu" Agentliyinin əməkdaşlarının olduğu nöqtəyə minaatandan 3 atəş açırlar.

Bu barədə məlumatı "Anadolu" Agentliyi və TRT yayır.

Bildirilir ki, mərmilər jurnalistlərdən 100 metr məsafəyə düşüb. Xoşbəxtlikdən hadisə nəticəsində jurnalistlər xəsarət almırlar.

Saat 13:46
Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatı

### Tam məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür

Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat yayır. Sənəddə bildirilir ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrində qeyri-qanuni mövcudluğunun regionda sülh və sabitliyə ciddi təhlükə olduğuna yaxşı bələd olan və Ermənistanın Azərbaycana qarşı təcavüzü, işğalçı fəaliyyətinə beynəlxalq hüququn norma və prinsiplərindən irəli gələrək prinsipial mövqe nümayiş etdirən beynəlxalq ictimaiyyət bu ölkənin işğalçılıq siyasətini, təxribatçı əməllərini kəskin şəkildə qınamalıdır.



Eyni zamanda Ermənistan beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq öhdəliklərinə əməl etməyə məcbur edilməlidir. Yaranmış vəziyyətə görə tam məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

Saat 14:00
Müdafiə Nazirliyinin məlumatı

### Ordumuz bir sıra kəndlərimizi və vacib yüksəklikləri azad edib

Azərbaycan Ordusunun qoşun növləri və bölmələrinin həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatı nəticəsində işğal altında olan bir sıra kəndlərimiz, vacib yüksəkliklər və əlverişli ərazilər azad edilib.



Hazırkı məlumata görə, cəbhənin Füzuli-Cəbrayıl istiqamətində aparılan hərbi əməliyyat nəticəsində uzun illər ərzində düşmən işğalı altında olan Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri azad edilib.

Ağdərə rayonu istiqamətində və Murovdağ silsiləsindəki hündürlüklərdə yerləşən düşmən postları darmadağın edilərək bir sıra hakim yüksəkliklər nəzarətə götürülüb.

Döyüş əməliyyatları davam edir.

# biz zəfər çalacağıq!"

# 27 sentyabr, saat 06:00... BAŞLADIQ

Saat 14:16
Prezidentin Mətbuat Xidmətinin məlumatı

### Rəcəb Tayyib Ərdoğandan İlham Əliyevə tam dəstək



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Türkiyə Prezidenti bu gün Ermənistanın hərbi təxribatı nəticəsində Azərbaycan mülki şəxslərinin və hərbi qulluqçularının həlak olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı verib, onlara Allahdan rəhmət diləyib. Rəcəb Tayyib Ərdoğan həmişə olduğu kimi, bu gün də Türkiyənin Azərbaycanın yanında olduğunu vurğulayıb.

Başsağlığına görə minnətdarlığını bildirən dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Türkiyə Prezidentinin daimi dəstəyini yüksək qiymətləndirib.

Prezident İlham Əliyev bu gün cəbhə xəttində Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində baş verən hadisələrin gedişi barədə məlumat verib.

Dövlət başçıları dost və qardaş Azərbaycanla Türkiyə arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.



Saat 15:05
Müdafiə Nazirliyinin məlumatı

### Düşmənin döyüş texnikaları məhv edilib

Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əks-həmlə əməliyyatı nəticəsində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan qoşunlarının çoxlu sayda canlı qüvvəsi və döyüş texnikaları məhv edilib.

Saat 15:57
Prezidentin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilir

### İlham Əliyev: "Uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaq"

Günün ikinci yarısında Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilir.

İclasda çıxış edən Ali Baş Komandan deyir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir və bu siyasət Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərir.

Amma Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq, hazırda əks-hücum əməliyyatı keçirir. Uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulub. Əks-hücum nəticəsində Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi işğalçılardan azad edilib:

"Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır!"



Prezident deyir ki, Azərbaycan Ermənistana 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verib. Amma görünür ki, bu, onlar üçün dərs olmayıb: "Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir".

Ali Baş Komandan bütün hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyinin olduğunu, eyni zamanda ordumuza könüllü yazılanların sayının on minlərlə insanı əhatə etdiyini söyləyərək bunu xalqımızın öz dövlətinə sadiqliyinin göstəricisi adlandırır: "Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır. Mən Azərbaycan xalqına bu məlumatı verməklə bir daha demək istəyirəm ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik. Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik".

İclasda çıxış edən müdafiə naziri Zakir Həsənov isə Ali Baş Komandana məruzə edərək deyir ki, əks-hücum əməliyyatı nəticəsində düşmənin ön xətti yarılıb, yeddi kənd işğaldan azad olunub. Azərbaycan Ordusu digər istiqamətlərdə uğurlu əks-hücum əməliyyatı həyata keçirir və düşmən böyük itkilər verərək geri çəkilir.

Azərbaycan Ordusunun zərbələri həm ön xətdə, həm də düşmənin tam dərinliyində həyata keçirilir. Düşmən tam şəkildə geri çəkilir.

İclasa yekun vuran Ali Baş Komandan əldə edilmiş ilk uğurlar münasibətilə Azərbaycan xalqını, Azərbaycan Ordusunu təbrik edir: "Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!"

Prezidentin Mətbuat Xidmətinin məlumatı

### Fransa Prezidenti Emmanuel Makron İlham Əliyevə zəng edir

Prezident Emmanuel Makron Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsindən ölkəsinin narahatlıq hissi keçirdiyini qeyd edib və münaqişənin danışıqlar yolu ilə həll olunmasının vacibliyini vurğulayır.

Dövlətimizin başçısı qeyd edir ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur. Ermənistan rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurub. "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və bu, Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilib.

Telefon söhbəti zamanı dövlət başçısı Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən və davam edən hərbi təxribatla bağlı hadisələrin gedişi barədə məlumat verərək qeyd edir ki, Ermənistanın Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və cəbhə xətti boyu yerləşən yaşayış məntəqələrimizi ağır artilleriya silahlarından atəşə tutması nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olub, Azərbaycan Silahlı Qüvvələri buna cavab olaraq uğurlu əks-hücum əməliyyatları həyata keçirir.

Azərbaycan Prezidenti bildirir ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.



Saat 16:29
Müdafiə Nazirliyinin məlumatı

### Ermənistan hərbi birləşməsinin komandanlığına təslim olmaq təklif edilib

Ermənistan silahlı qüvvələrinin Ağdərə yaşayış məntəqəsində yerləşən qarnizonunun tam məhv edilməməsi və döyüş itkilərinin sayının artmaması məqsədilə Azərbaycanın hərbi komandanlığı tərəfindən bu istiqamətdə yerləşən erməni komandanlığına müqavimət göstərməmək, silahı yerə qoyaraq təslim olmaq barədə təklif edilib.

Azərbaycan Ordusunun komandanlığı onu da bildirir ki, hərbi əsirlər və mülki şəxslərlə davranış Cenevrə Konvensiyasının tələbləri və beynəlxalq humanitar hüquqa əsasən həyata keçiriləcək.

Müqavimət göstəriləcəyi təqdirdə hər bir silahlı şəxs tərəfimizdən zərərsizləşdiriləcək.

Saat 18:18
Müdafiə Nazirliyinin məlumatı

### Düşmən zirehli texnikasını döyüş meydanında ataraq qaçır

Əks-həmlə əməliyyatı həyata keçirən Azərbaycan Ordusu bölmələrinin zərbələri nəticəsində düşmən çoxlu sayda zirehli texnikanı döyüş meydanında qoyaraq qaçıb.



Nazirlik Ermənistan qoşunlarının məhv edilən, eləcə də ərazidə qalan hərbi texnikalarının videogörüntülərini yayır.

Saat 18:28
Müdafiə Nazirliyinin məlumatı

### Murovdağ silsiləsindəki əhəmiyyətli yüksəklik azad olunub

Cəbhənin Goranboy istiqamətində qoşunlarımızın keçirdiyi hərbi əməliyyat nəticəsində Murovdağ silsiləsindəki Murov zirvəsi azad olunub.



Əməliyyat nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nəzarətinə götürülüb. Əldə edilən hərbi üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısını almağa imkan verir.

Döyüş əməliyyatları davam edir.



Saat 18:45
Türkiyə Prezidenti sosial şəbəkədə paylaşım edir

### Rəcəb Tayyib Ərdoğandan Azərbaycana növbəti dəstək

"Bugünkü telefon danışığı zamanı bacarıq və qətiyyətinə bir daha şahid olduğum Azərbaycan Prezidenti, qardaşım İlham Əliyevə də bildirdiyim kimi, Türkiyə "bir millət, iki dövlət" anlayışı ilə azərbaycanlı qardaşları ilə həmrəyliyini gücləndirməyi davam etdirəcək".

Bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sosial şəbəkələrdəki səhifəsində etdiyi paylaşımda bildirib.

Türkiyə Prezidenti qeyd edir ki, Azərbaycana qarşı yeni hücumlar edən Ermənistan bölgədə sülhün və sabitliyin qarşısında ən böyük təhlükə olduğunu bir daha göstərdi: "Türk milləti hər zaman olduğu kimi, bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanındadır. Erməni xalqını onları fəlakətə aparan hakimiyyətinə və onları oyuncaq kimi istifadə edənlərə qarşı gələcəklərinə sahib çıxmağa dəvət edirik. Bütün dünyanı işğala qarşı apardığı mübarizədə Azərbaycanın yanında olmağa çağırırıq".

Saat 19:05
Azərbaycan Respublikası Prezidentinin fərmanı

### Ölkə ərazisində hərbi vəziyyət elan edilir

Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, ölkəmizə qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar, 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycanın bütün ərazisində hərbi vəziyyətin elan edilməsilə bağlı fərman imzalayır.

Sənəddə bildirilir ki, hərbi vəziyyətin təmin edilməsi məqsədilə "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş tədbirlər həyata keçirilsin.

Fərmana əsasən, Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında hərbi vəziyyət dövründə saat 21:00-dan saat 06:00-dək komendant saatı tətbiq edilir.

Şəhər və rayonlara xüsusi giriş-çıxış rejimi tətbiq edilir, nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması üçün tədbirlər görülür.

Saat 19:59
Milli Məclisin iclası keçirilir

### Parlament Azərbaycanda hərbi vəziyyətə keçidi təsdiq edir

Milli Məclisin iclası keçirilir. Parlamentin Sədri Sahibə Qafarova bildirir ki, Prezident İlham Əliyev "Hərbi vəziyyət elan edilməsi haqqında" fərman imzalayıb və həmin sənədin təsdiq edilməsi üçün



Milli Məclisə təqdim edib. "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə görə, "Hərbi vəziyyətin elan edilməsi haqqında" fərman Milli Məclisə daxil olduqdan sonra 48 saat müddətində növbəti və növbədənkənar sessiyalar dövrünün olub-olmamasından asılı olmayaraq, parlamentin iclası keçirilir. Bugünkü iclasın keçirilməsi də bu zərurətdən irəli gəlir.

Müzakirələrdən sonra Milli Məclisin qərarı qəbul edilir. Qərara əsasən, "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 sentyabr tarixli fərmanı təsdiq edilir.

Saat 20:08
Baş Prokurorluğun məlumatı

### Ermənistanın atdığı mərmi nəticəsində Naftalanda bir ailənin 5 üzvü həlak olub

Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Naftalan rayonunda bir ailənin 5 üzvü həlak olur. Baş Prokurorluğun yaydığı məlumatda bildirilir ki, Ermənistan silahlı qüvvələrinin artilleriya atəşi nəticəsində rayonun Qaşaltı kəndinin sakini, 1951-ci il təvəllüdlü Elbrus Qurbanov və onun 4 ailə üzvü, 1956-cı il təvəllüdlü Şəfayət Qurbanova, 2006-cı il təvəllüdlü Fidan Qurbanova, 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və 1981-ci il təvəllüdlü Afaq Əmirova həlak olublar.



Bundan başqa, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq dinc əhalinin sıx yaşadığı əraziləri ağır silahlardan atəşə tutub, bununla da mülki əhaliyə qarşı müxtəlif cinayətlər törətməyə davam edib. Hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 19 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib.



Ermənistanın işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, işğalçı dövlətə qarşı beynəlxalq hüquqla nəzərdə tutulmuş sanksiyaların tətbiq olunması məqsədilə tərəfimizdən xüsusi beynəlxalq tribunalın yaradılması üçün bir sıra beynəlxalq təşkilatlara, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasına müraciət ediləcək.

Saat 20:15
Müdafiə Nazirliyinin məlumatı

### Düşmənin 22 tankı, 15 zenit-raket kompleksi, silah anbarı məhv edilir

Qoşunlarımızın keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Ermənistan ordusuna məxsus silah-sursat anbarı məhv edilir.

Ordumuzun zərbələri nəticəsində anbarda baş verən partlayışlar nazirliyin yaydığı videoda aydın müşahidə olunur.

Əməliyyat gününün sonuna əldə edilən kəşfiyyat məlumatlarına əsasən, Ermənistan ordusu döyüşlər nəticəsində ciddi itkilərə məruz qalır. Belə ki, düşmənin 22 ədəd tank və digər zirehli texnikası, 15 ədəd "OSA" zenit-raket kompleksi, 18 ədəd pilotsuz uçuş aparatı (PUA), 8 ədəd artilleriya qurğusu məhv edilib, ölən və yaralı olmaqla canlı qüvvə baxımından 550 nəfərdən artıq itkisi var. Müxtəlif istiqamətlərdə onun 3 silah-sursat anbarı məhv edilib.

Talış kəndi istiqamətində gedən döyüşlərdə düşmənin desant həmlə taborunun komandiri podpolkovnik Lernik Vardanyan məhv edilib, onun komandiri olduğu hərbi hissənin şəxsi heyəti isə ağır itkilərə məruz qalıb.

Düşmən ordusundakı yaralıların say çoxluğu səbəbindən hərbi hospital və mülki xəstəxanalarda yer qıtlığı yaranıb, qan bankında isə ehtiyat qan çatışmazlığı mövcuddur.

Ermənistan tərəfi hər zaman olduğu kimi, yenə də ordusundakı döyüş itkilərinin real sayını ictimaiyyətdən gizlədir.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*



# Zəfərlə anırıq...



**Siz ey ulu ərlər, ərənlər!..**
**Azərbaycan adlı ananın qurd ürəkli oğulları!**
**Vətən adı gələndə min yerdən hay verən igidlər!**
**Ölümün gözünə dik baxıb canlarını yurd uğrunda qurban verən fədailər!**
**Qızıl qanlarıyla qaraca torpağı ziyarətgaha çevirən müqəddəslər!**
**Ruhlarıyla Tanrı dərgahına üz tutan əbədiyyət yolçuları!**
**Şəhidlər!..**
**Qəhrəmanlığınızı, mərdliyinizi, cəsurluğunuzu, hünərinizi...**
**Əyilməyən vüqarınızı...**
**Torpaq, millət, bayraq sevginizi...**
**Şərəf, namus, qeyrət təəssübünüzü...**
**Vətən eşqinizi...**
**Sayğıyla, ehtiramla, minnətdarlıqla, sükutla...**
**Zəfərlə anırıq!..**

❖ ❖ ❖

Siz ey azman igidlər!

Bu gün əgər üçrəngli, ay-ulduzlu bayraqlarımız zirvələrdə qürurla dalğalanırsa...

Bütöv Azərbaycanın vətəndaşı olmağın xoşbəxtlik hissi ilə xalqımız dünyada başıuca gəzirsə...

Onilliklərin torpaq həsrətinə son qoyulan keçmiş məcburi köçkünümüz qayıdış köçləri ilə yurdlarına qovuşdurulursa...

Bir zamanlar silah səsləri eşidilən Qarabağ və Şərqi Zəngəzurdan yeni doğulan azərbaycanlı balaların hayqırışları duyulursa...

Zəngilandan, Laçından, Şuşadan... vağzalı sədası ucalırsa...

Xankəndidə övladlarımız məktəbə, ali məktəbə yollanırsa...

Xocalıda yenidən yandırılan od-ocağın şöləsi bütün azərbaycanlıların ürəyinə işıq saçırsa...

Qan yaddaşımıza çevrilən Xocalı qurbanlarının, torpaqlarımız uğrunda canını fəda edən bütün vətən övladlarımızın ruhları dinclik tapırsa, şad olursa...

Bütün bu qürurverici xoşbəxtliklərə görə sizə borcluyuq...

Haqqınız ödənməz...

❖ ❖ ❖

Siz ey vüqarlı oğullar!

Canınız bahasına Azərbaycana şanlı qələbə qazandırdınız!

Vətən savaşında qanınızla yazdığınız və min illər keçsə belə şərəflə xatırlanacaq zəfər salnaməsinin hər sətrinə qələbə nidası həkk etdiniz...

2020-ci ilin payızında haqq yürüşünə çıxıb qisas nərəsi ilə düşməni lərzəyə saldınız. Qələbə çalmadan geri dönməmək hər birinizin müqəddəs amalı oldu.

Yağışa, palçığa, qara, şaxtaya baxmadan dərin dərələrdən keçdiniz, sıldırım qayalardan aşdınız, lazım gələndə yalın əllə düşmənin nəfəsini kəsdiniz.

Çoxunuz düşmənin üzərinə yeriyərkən minaya düşdünüz, qəlpə, güllə yarası aldınız, amma can ağrınızı unudub zəfər yolunda irəliləməyə davam etdiniz, tibbi yardımdan, arxaya təxliyə olunmaqdan imtina edərək, qanınızla bu torpağı suvararaq torpaqlarımızı azadlığa qovuşdurdunuz.

Ürəklərinizin üzərində gəzdirdiyiniz üçrəngli müqəddəs bayrağımızı vətənin zirvələrində, Şuşada, Xocalıda, Xankəndidə - Qarabağda dalğalandırdınız.

❖ ❖ ❖

Siz ey mərd oğullar!

Ana vətəni yaşatmaq üçün bir an belə düşünmədən öz canınızdan keçdiniz.

Qaralar bağlayan, saçlarını yolan ananıza:

"Sil gözlərinin yaşını, ağlama!

Köksümdəki al yaraya baxıb sızlama...

Sən ki hamıdan çox bələdsən mənə...

Bilmirsənmi, düşmən gülləsindən ölmərəm?!

Başını uca tut, ana!

Sən cismimə sarılmış o üçrəngli müqəddəs bayrağa bax...

Göylərə bax...

Oradan gülümsəyəcəm sənə,

Günəşin bir zərrəsindən, ulduzların şəfəqindən...

Səsləyəcəm səni...

Buludların göz yaşı misalı Yer üzünə axıtdığı hüznlü damlaların,

həzin laylasında qulaq ver ünümə...

Əlvida, ana!

Ürəyindən süzülərək gözlərindən axan yaşla arxamca su çilə, ana!

Mən əbədiyyət yolçuluğuna çıxmışam!.." dediniz...

❖ ❖ ❖

Siz ey cənnət ətirli şəhidlər!

Uca məqamınız qarşısında baş əyirik!

Azərbaycan xalqı heç zaman sizin bu fədakarlığınızı unutmayacaq!

Hörmət, minnətdarlıq hissi, dualarla yad edəcək!

Qürur, şərəf, sayğı...

Zəfərlə anacaq!

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Əbədi ehtiram ünvanı

## Böyük Zəfər və Suverenlik təntənəsi şəhidlərimizin xatirəsinə ən böyük anım abidələridir

**Ermənilər zamanla yaranmış ictimai-siyasi vəziyyətdən istifadə edərək havadarlarının maddi və hərbi-siyasi dəstəyi ilə XIX-XX əsrlərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar və soyqırımları törətmiş, deportasiyalar həyata keçirmişlər. Həmin soyqırımların ilk mərhələsində - 1905-1906-cı illərdə Rusiyada baş verən iğtişaşlardan fürsət kimi istifadə edən ermənilər əvvəlcə Bakıda, sonra İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda, Qazaxda və Tiflisdə dinc azərbaycanlılara qarşı qırğınlar törətdilər.**

Erməni silahlı dəstələri İrəvan-Naxçıvan-Zəngəzur-Qarabağ və Qazax-Gəncə istiqamətlərində yerləşən azərbaycanlı yaşayış məskənlərinin əhalisini qırır, qovurdular. Məqsəd həmin ərazilərdə erməniləri məskunlaşdırmaqla gələcək Ermənistan dövlətinin əsasını qoymaq idi. Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam etdi, 1948-1953-cü illərdə Ermənistandakı öz tarixi dədə-baba torpaqlarından 150 minə yaxın azərbaycanlı deportasiya olunaraq Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirildi.

Cənubi Qafqazda gedən siyasi-hərbi prosesləri izləyən hər kəs keçmiş Dağlıq Qarabağ münaqişəsinin 1988-ci ildə ermənilərin Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları və etnik zəmində təxribatları ilə başladığını çox yaxşı bilir. Həmin fəaliyyətin tərkib hissəsi olaraq, 1987-1989-cu illərdə Ermənistanda yaşayan 250 mindən çox azərbaycanlı öz tarixi torpaqlarından zorla qovulmuş, onlardan 200-dən çox insan vəhşicəsinə qətlə yetirilmiş, 1000-dən çox insan isə yaralanmışdı.

Bu qırğın və təxribatların davamı olaraq 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində soyqırımı həyata keçirdilər. Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirdi, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu.

Münaqişə gündən-günə daha da genişləndi və Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının ərazisinin 20 faizi işğal olundu. Bunun nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü, 20 min nəfər hərbi əməliyyatlar dövründə həlak oldu, 50 min nəfər isə əlil oldu. Münaqişə nəticəsində 4 minə yaxın azərbaycanlı itkin düşdü. İki mindən çox azərbaycanlı ermənilər tərəfindən əsir və girov götürüldü.

Tarixən azərbaycanlılara qarşı törədilmiş soyqırımlarına ilk siyasi-hüquqi qiymət Ulu Öndər Heydər Əliyev tərəfindən verildi və Ulu Öndərin 1998-ci il 26 mart tarixdə imzaladığı fərman ilə 31 Mart tarixi Azərbaycanlıların Soyqırımı Günü elan edildi.

Təəssüflər olsun ki, beynəlxalq ictimaiyyət bu işğala və qəsbkarlığa biganə yanaşmışdır. Birləşmiş Millətlər Təşkilatı (BMT) işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirmiş, tərəfləri sülhə çağıran bəyanatlarla kifayətlənmişdir. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il kağız üzərində qalmış və icra olunmamışdır. Belə ki, Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir. İşğal dövründə mülki və təsərrüfat obyektləri ilə yanaşı, Azərbaycanın misilsiz mədəniyyət abidələri də məhv edilmişdir.

Münaqişənin nizamlanması üçün 1992-ci il 24 mart tarixdə təsis olunmuş ATƏM-in (indiki ATƏT) Minsk qrupu fəaliyyətinin 29 ili ərzində məsələnin həllinə yox, dondurulmasına çalışmış və bununla da uzun illər ərzində aparılan danışıqlar nəticəsiz qalmışdır. Həm işğalçıya, həm də işğala məruz qalmış tərəfə eyni münasibət bəslənilmiş və beynəlxalq qətnamələr kağız üzərində qalmışdır.

Ötən dövr ərzində ermənilər təxribatları mütəmadi olaraq davam etdirmişlər. 2016-cı il aprel ayında Lələtəpə və 2020-ci il iyul ayında Tovuz döyüşləri zamanı Azərbaycan bu işğalla barışmayacağını nümayiş etdirmişdir. Lakin Ermənistan bu döyüşlərdən də nəticə çıxarmamış, Azərbaycana qarşı diversiyaları davam etdirmiş, erməni siyasətçiləri xalqımıza qarşı aşağılayıcı və təxribatçı bəyanatlar vermişlər. Ermənistanın törətdiyi təxribatlar 2020-ci ilin yay aylarında xüsusilə geniş və davamlı xarakter almışdır.

27 sentyabr 2020-ci ildə növbəti belə genişmiqyaslı təxribat cəhdinə əl atan Ermənistan silahlı qüvvələri cəbhəboyu Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə intensiv zərbələr endirməklə yanaşı, Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrini qəsdən artilleriya atəşinə tutaraq Azərbaycana qarşı növbəti təcavüzə başladılar. Nəticədə hərbi qulluqçular ilə yanaşı, Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak oldu.

Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev dərhal bütün cəbhəboyu əks-hücuma keçmək əmri vermişdir. Erməni siyasi-hərbi rejimi mövcud münaqişəni sülh yolu ilə həll etmək əvəzinə özlərinin işğalçı mövqelərindən əl çəkmədilər. Sentyabrın 27-də səhər saat 6:00 radələrində onlar növbəti dəfə işğal olunmuş bölgələrimizin yaxınlığında yerləşən mülki əhalini ağır artilleriya silahları ilə atəşə tutmağa başladılar. Bu, artıq 30 ilə yaxın müddət ərzində səbirlə dözən və sülh tərəfdarı olan Azərbaycanın səbir kasasını daşırdı. Rəşadətli ordumuz tərəfindən əks-həmlə ilə düşmən ordusu nəinki susduruldu, həm də işğalda olan bir sıra yaşayış məntəqələrinin erməni qəsbkarlarından azad edilməsi ölkəmizdə böyük coşqu ilə qarşılandı.

Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsinin davam etdiyi 44 gündə mənfur düşməni diz çökdürdü, tarixi Zəfər qazanaraq respublikamızın ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin tarixi Qələbəsini təmin edən mühüm amillər oldu. Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi, düşmən üzərində tarixi Zəfər çaldı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamına əsasən təsis edilən Anım Günü Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın ifadəsidir.

Cənab Prezidentin Anım Günü ilə bağlı sərəncamında deyildiyi kimi: *"Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir. Bu, eyni zamanda regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir"*.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva da şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsinə, şəhid ailələrinin, qazilərin hərtərəfli qayğı ilə əhatə olunmasına xüsusi diqqət yetirir, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirir. Mehriban xanım Əliyeva şəhidlərimizə hörmət və ehtiramını belə ifadə edib: *"Azərbaycan xalqının igid oğulları Zəfər naminə, Azərbaycanın gələcəyi naminə canlarından keçib. Onların hər biri əsl qəhrəman, rəşadət və qorxmazlıq nümunəsidir... Şəhidlərimizin qanı nahaq yerə tökülmədi - biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu. Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq. Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə daim yaşayacaq"*.

Azərbaycan hər zaman dünyada və regionda sülhün tərəfdarı olub. Azərbaycan dövləti bu mövqeyini bütün dünyaya açıq şəkildə nümayiş etdirir. Ermənistanla münasibətlərin normallaşması üçün təqdim etdiyi sülh təklifi Azərbaycanın mövqeyinin bariz nümunəsidir.

Vətən müharibəsindən sonra Azərbaycan dövləti Qarabağda dövlətimizin milli suverenliyinin tam təmin olunması ilə bağlı təşəbbüslər göstərdi və bu prosesdə hər zaman humanizm mövqeyindən çıxış etdi. Lakin Ermənistan və onun arxasında dayanan dünya erməniliyi respublikamıza qarşı məkrli niyyətlərindən, ərazi iddialarından əl çəkmək istəmədilər və bununla da Azərbaycanın dövlət suverenliyinə qarşı çıxdılar. Eyni zamanda Ermənistan imzaladığı üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəlikləri kobud şəkildə pozaraq Qarabağdakı silahlı dəstələrini çıxarmadı. Mütəmadi olaraq hərbçilərimizə, mülki vətəndaşlarımıza qarşı terror təxribatları həyata keçirdi. Davamlı şəkildə Ermənistandan Azərbaycanın Qarabağ iqtisadi rayonuna silah-sursat və minalar daşındı və bununla ermənilər Qarabağ və Şərqi Zəngəzurdakı quruculuq prosesinə mane olmağa çalışdılar. Qarabağdakı erməni separatçılarının 2023-cü il sentyabrın 19-da törətdikləri çoxsaylı terror hadisələrindən sonra təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, Qarabağda Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə keçirilən antiterror əməliyyatı Azərbaycan dövlətinin növbəti tarixi zəfəri oldu. Azərbaycanın bütün xəbərdarlıqlarına baxmayaraq Qarabağda separatçılıqla məşğul olan erməni törtöküntülərinə qarşı keçirilən antiterror əməliyyatı onların varlığına son qoydu və Azərbaycan işğaldan azad edilmiş bütün ərazilərində öz suverenliyini bərpa etdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü təsis olunması ötən il Qarabağda aparılmış qısamüddətli antiterror əməliyyatı nəticəsində əzəli yurdlarımızın erməni separatçılarından tam təmizlənməsi, Xankəndidə dövlət bayrağımızın ucaldılması, Azərbaycanın qəlbindəki illərin yarasının sağalması ilə yaddaşımıza yazılmış böyük bir gün, əlamətdar tarix kimi təqvimə qovuşdu. Cənab Ali Baş Komandanın dediyi kimi: *"Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır"*.

44 günlük müharibədə ordumuzun qəhrəmanlığı, Ali Baş Komandanın qətiyyəti ermənilərin və havadarlarının bölgədəki siyasətinin iflası ilə nəticələndi. Bütün təzyiqlərə, təhdidlərə baxmayaraq, Azərbaycan Qələbə qazandı və tarixi ədalət bərpa olundu. Azərbaycan Ordusu şəhidlərin qanını yerdə qoymadı.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək təkcə Ermənistanın silahlı qüvvələrini məhv etmədi, həm də erməni mifini məhv etdi.

***Arzu ABDULLAYEV,***
***tarix üzrə fəlsəfə doktoru, dosent***



*Səndən ötrü can verməyə cümlə hazırız,*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!..*

# Ziyanın nuru

## Elnarə Nurməmmədovanın oğul naləsi, analıq xiffəti, insanlıq qüruru...

**Zəriflərin dünyası**

**2020-ci ilin Zəfər tarixinin şərəfli günləri idi... Kürdəmirin Sığırlı kəndindən olan şəhid Ziya Nurməmmədovun anası Elnarə xanım soşial şəbəkələrin əsl qəhrəmanına çevrilmişdi... Tanıyan da, tanımayan da bu Vətən müharibəsi şəhidinin anasından bəhs edirdi...**

**Şəhidlər vətənin bir parçası olduğu kimi, onları bu vətənə bəxş edən şəhid valideynləri də xalqımız üçün həmişə müqəddəsdirlər, zirvədirlər...**

**Dünyanın ən dərin dəryası haradadır? Yəqin ki, oğlu şəhid olmuş anaların gözləri dünyanın ən dərin, suyu qurumayan dəryasıdır.**

**Bəs dünyanın ən uca zirvəsi hansıdır? Əlbəttə ki, şəhid olmuş ərinin namusunu qoruyan, onun döyüşçü şərəfini uca tutan xanımlar dünyanın ən uca, ən müqəddəs zirvələridirlər.**

**Dünyanın ən əzəmətli dağı bəs hansıdır? Oğlu müharibədə şəhid olmuş atalar dünyanın ən əzəmətli dağlarıdırlar...**









### Şəhidin anası olmaq...

Bəs onda bir belə şəhid anaları sırasında Elnarə xanımı fərqləndirib məşhurlaşdıran, qəhrəman edən, insanlara daha çox sevdirən səbəb nə idi?

Ürəyinin böyüklüyü...

Göz, könül toxluğu...Təkrarolunmaz nümunəvi hərəkəti...

Haqqında yazırdılar ki, Elnarə Nurməmmədova dövlətin şəhidlər üçün verdiyi 11 min manat sığorta pulunu almaqdan imtina edib. Özü də hirslə, hikkə ilə, acıqla yox... Elnarə xanım onlara "yardım" etmək istəyənlərə deyirmiş ki, "Bir oğlum vardı, o da şəhid oldu. Bundan sonra dünya malı nəyimə gərəkdir? O pulu verin hər hansı bir ehtiyacı olan müharibə iştirakçısına... Canını vətən yolunda qoyan bir qaziyə, bir yoxsula..."

Bu azmış kimi hələ oğlunun hərbi xidmətə getməzdən əvvəl maşın almaq üçün min bir əziyyətlə topladığı pulu da ehtiyacı olanlara payladığından bəhs edirdilər...

Ondan pul götürmək istəməyənlərə "Oğlum maşın almaq arzusuna da çatmadı. O pulu rahatlıqla xərcləyə bilmərəm" deyib ehtiyacı olanları razı salmaq üçün qəhrəmanın anasının dil tökməsindən də yazırdılar...

Yolumuz Kürdəmirədir...

"Zəriflərin dünyası"nın bugünkü qəhrəmanı şəhid Ziya Nurməmmədovun anası Elnarə xanımdır...



### Oğlu ölən analar...

Kürdəmirə çatanda gün günortanı keçmişdi. Havalar sərin keçsə də, gülümsər gözlü günəşin səmada nazlanmasından bəlli idi ki, bu yerlərin hələlik tək hakimi odur. İlıq hava canımıza rahatlıq gətirsə də, gedəcəyimiz ünvanın şəhid qapısı olduğunu, nakam taleli bir gəncin həyat hekayəsini vərəqləyəcəyimizi bildiyimiz üçün üzümüz gülmür, ürəyimiz açılmırdı. Yenə göz yaşında boğulan bir ananın, beli bükük bir atanın nisgilli baxışlarına tuş gələcəyimizi, heç vaxt sağalmayan yaralarının qaysağını qoparacağımızı düşünür, işıqlı dünyamızı qaraldan, dərddən yük tutub, qəmdən pay götürəcəyimizi fikirləşirik…

Sığırlı kəndinin girəcəyində, Bakı-Tbilisi yolunun sağında "Ziya " bulağının yanında avtomobilimizi saxlayırıq. Qaraqaşlı, qaragözlü, nur üzlü, ciddi baxışlı şəhidimiz də yoldan ötən yolçulara, bu vətəni sevənlərə, vətəni əmanət edib getdiyi insanlara məmnun-məmnun baxaraq, sanki "Sizlərin xoşbəxt, firavan gələcəyi üçün bu vətəni azad etdik. Onu sizlərə əmanət etdik. Bu Vətəni canınızı fəda edəcək qədər sevin, onu qoruyun" demək istəyir...

Şəhid bulağının suyu ilə əl-üzümüzü yuyuruq, bir qədər sərinlik tapırıq...

Yolun kənarında bostan məhsulları satan gənc oğlandan şəhidin valideynləri yaşayan ünvanı soruşuruq. O, məmnunluqla bizə yol göstərir.

Yola rəvan oluruq. Küçə qapısının üzərində dalğalanan zəfər bayrağımız gendən bizə gəl-gəl deyir. Bir topa qara bulud ağır-ağır gəlib Ziyanın valideynlərinin yaşadığı evin üstündə günəşin qarşısına keçib yavaş-yavaş yerini tutur. Həyalı qız kimi qızaran günəş qara buludun arxasından nə qədər boylanmağa çalışsa da, əbəs yerə cəhd etdiyini anlayıb qara buluda təslim olur.

Elə bu an sanki hava da soyuyub bizi üşüdür. Bir anlığa havanın rəngi dəyişib tutqunlaşır, bozarır…

Həyətdən gələn yanıqlı səs ruhumuzu sızladır...

*Ağacda xəzəl ağlar,*
*Dibində gözəl ağlar,*
*Oğlu ölən analar*
*Sərgərdan gəzər ağlar...*

*Analar yanar ağlar,*
*Günləri sanar ağlar.*
*Dönər göy göyərçinə,*
*Yollara qonar, ağlar...*

### Ziyanın qonaqları gəlib...

Özümüzü toparlayıb Ziyanın valideynləri yaşayan evin küçə qapısını döyürük. Qapı açılır. Qarşımızda bəstəboylu, əsmər bənizli, qarapaltarlı, gözüyaşlı bir xanım dayanır...

Gözləri qəm dənizinə oxşayan ana kimliyimizi soruşmadan bizi evə dəvət edir. Sakit səslə "şəhid Ziyanın anası Elnarə mənəm" deyir...

Eyni ahənglə də ömür-gün yoldaşını, dərd ortağını səsləyir:

- Zabil, Ziyanın qonaqları gəlib, evdən çıx...



Günəşin qarşısını bulud bağlayan kimi dərd bu evdəkilərin gülüşünü, sevincini, ürəyindəki odu, alovu özünə çəkib… Evin damından, divarından da dərd süzülürdü...

Şəhidlərimiz Vətəni nura boyasalar da, sanki əzizlərinin, sevənlərinin qəlbinin işığını söndürüblər. Günəşin qarşısını buludun bağladığı kimi, Ziyanın valideynlərinin gülüşünü, sevincini, ürəyindəki odu, alovu da Ziya özü ilə aparıb…

Sanki ruhları bədənlərindən ayrılıb. Dərd çəkən ata-ana indi göylə yer arasında özlərinə yer tapa bilmirlər.

Ziya yalnız valideynlərinin sevincini, nəşəsini yox, həm də arzularını, ümidlərini də özü ilə aparıb...

Bu bir həqiqətdir ki, istəsək də, istəməsək də, biz Tanrının hökmünü dəyişə bilmirik. Adını nə qoyuruqsa-qoyaq, tale deyək, qismət adlandıraq, alın yazısı sayaq, hər nə olursa-olsun, onun qərarını dəyişmək bizim gücümüzdə deyil. Bəzən bizi üzən hadisələrdən, fəlakətlərdən aylar, illər keçdikcə, ürəyimizdə daşıdığımız o yaranın ağrısı, acısı azalmasa da, sağalmasa da, üstünü qaysaq tutur.

Elə yaralar da var ki, illər ötdükcə daha da dərinləşir, qan verir…

Ziyanın yoxluğunun ailəsinə yaşatdığı acı kimi...

Ziya Nurməmmədov 2001-ci ildə Kürdəmirin Sığırlı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra 2020-ci il iyulun 2-də hərbi xidmətə yollanıb...



### Şəhid atası, nə tez qocaldın sən...

Beli bükülüb, gözləri çuxura düşmüş ata gözlərini bir an oğlunun şəklindən çəkmir. Cəmi 45 yaşının olmasına baxmayaraq, yüz ilin qocasına bənzəyir. Gözündən axan yaş süzülüb yanaqlarını isladır. Elnarə xanım ömür-gün yoldaşına təsəlli verməyə çalışır.

- Özünü ələ al. Fəxr et ki, oğlun vətən yolunda canını qurban verib... Sonra da öz-özünə danışırmış kimi: - Ziya ocağımızı söndürdü. Ondan sonra nə qədər işıq yandırsam da, evimiz işıqlanmır, elə bilirəm heç günəş də çıxmır... Guya evimiz, hava işıqlı, günəşli olsa nə görəcəm ki? Həyatım qaralıb. Ziyasız bizə həyat yoxdur...

Elnarə xanım, sözünün ardını gətirmir. Susur...

Sanki nəyisə xatırlamağa çalışır. Gözünün yaşı üzündə cığır açıb sinəsinə süzülür. Bəlkə də göz yaşı sinəsini islatmasa, bu xanımın bağrının başı od tutub yanar...

Asta-asta, güclə eşidiləcək bir səslə söhbətini davam etdirir:



- Ziya ağıllı, güclü uşaq idi. Prinsipial idi. Dərslərini də çox yaxşı oxuyurdu. Orta məktəbdə oxuyanda müəllim yanına gedərdi. Məktəbi bitirib ali məktəbə heç sənəd vermədi. Dedi ki, hərbi xidməti bitirdikdən sonra ali məktəbə qəbul olaram. 18 yaşı tamam olan kimi əsgər getdi. Əvvəl Gəncədə xidmət edirdi. 2020-ci il sentyabrın 21-də hərbi andı qəbul edib, evə zəng vurdu. Qazax rayonundan danışdığını bildirdi. Dedi ki, istəsəniz yanıma gələ bilərsiniz.

Sentyabrın 27-si biz də Qazax rayonuna getdik. O dediyi hərbi hissənin qarşısında dayanıb, gözləyirdik. Müharibənin başlanması xəbərini də elə orada eşitdik. Bu zaman Ziya telefonumuza zəng edib dedi ki, görüşə gələn valideynlərdə COVID-19 virusu olub. Əsgərlərə keçib. Görüş qadağan olunub. Əbəs yerə gözləməyin.

Biz də apardığımız ərzağı qapıda duran əsgərə verib geri qayıtdıq. Sən demə, Ziyagili artıq Füzuliyə aparıblarmış. Bizlə danışanda Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndində, ön cəbhədəymiş. Arada zəng vurur, Qazaxda olduğunu deyib, bizi sakitləşdirirdi.

Sonuncu dəfə oktyabrın 11-də zəng etmişdi. Yenə də ön cəbhədə olduğunu demədi...

Bundan sonra bir daha zəng gəlmədi. Bir daha Ziyanın səsini eşitmədik. Çox narahat olduq, canımıza istilik keçdi. Hər yerə soraq saldıq.

Qarşımıza çıxandan, əynində hərbi paltar olan kimi gördüksə, Ziyanı soruşduq...

Hər yerdə Ziyanı axtardıq. Gördüm deyən olmadı...

Gedirdik Qazax rayonuna, qulluq etdiyi hərbi hissəyə. Deyirdilər ki, Füzulidə ön cəbhədə döyüşür. Gedirdik Füzuliyə, cəbhə xəttinə keçməyə icazə yox idi... Qalırdıq baxa-baxa...

Bütün xəstəxanaları, hospitalları gəzirdik. Gördüm deyən yox idi.

Üç dəfə DNK analizi götürdülər. Deyirdim, bu heç yaxşı əlamət deyil. Ziya ön cəbhədə döyüşürsə, niyə bizdən analiz götürsünlər?

### Özümü qurban dedim...

Noyabrın 10-da Prezidentimiz müharibənin bitdiyini elan edəndə çox sevindim. Allaha şükür etdim. Dedim, mənim balam yaşamırsa da, başqa analar, bacılar, yar yolu gözləyən qızlar gözüyaşlı qalmasın. Əl açıb Allaha özümü qurban dedim...

Dedim "Allahım Ziyamı qaytar, mənim canımı al". Ziyam hələ çox gün görməyib. Mən bir az yaşamışam...

Təsəllim vardı. Deyirdim ki, bəlkə əsir düşüb. Prezidentimiz balamı düşmən əlində qoymaz...

Sən demə, oktyabrın 13-də 7 nəfər döyüş yoldaşı ilə birlikdə ermənilər Ziyanı səngərdə mina atanla vurublarmış...

Balam düz iki aydan da artıq canından çox sevdiyi torpağı qucaqlayıb, Füzulinin Əbdürrəhmanlı kəndində yatıbmış...

Dekabrın 2-də xəbər gəldi ki, Ziya tapılıb... Dekabrın 3-də Ziyamı dəfn etdik. O gündən həyatımın işığı sondü... Evimin divarları qaraldı.

40 yaşlı Elnarə oldu qarabəxtli, qara paltarlı qadın...

Ölümümü gözləyirəm. Ziyamla cənnətdə görüşəcəyim günə tələsirəm. Gözümdə nə malın, nə mülkün, nə pulun dəyəri var...

Lənət olsun analara göz yaşı, insanlara bədbəxtlik gətirən müharibələrə...

Elnarə xanım müharibəni lənətləyir. Ürəyinin döyüntüsü kənardan eşidilir...

Üzünü bizə tutub:

- Müharibə dəhşətdir... Müharibə nakam sevgilərin, ürəklərdə dəfn olunmuş arzuların, üzlərdə donub qalmış məsum təbəssümlərin torpağa gömüldüyü vəhşət meydanıdır. Müharibə ölümsaçan silahların meydan sulamasıdır, qaynar qazandır. Bu qazanda dərd göyərir…

İnanın ki, müharibədə od tutub yanan, guruldayan, partlayan, yeri, göyü lərzəyə salan silah səsi deyil. Anaların, bacıların, sevgilisini müharibəyə yola salan qızların, ər yolu gözləyən xanımların, ata yolu gözləyən övladların ürəklərinin səsi, qəlblərinin atəşidir…



Biz o dəhşəti yaşayıb ölənlərdənik. Bizim ruhumuz çoxdan Ziya ilə göyə çəkilib...

Ər-arvad qapımızı bağlayıb oturmuşuq evdə... Ölümümüzü gözləyirik...

### Ölənlə ölmək olur...

Zabil əvvəllər satıcı işləyirdi. Ziya şəhid olandan sonra evdə tək olmayım deyə işdən çıxdı, oturdu evdə. Ehtiyat edirdi ki, canıma qıyaram...

İnsan hər şeyə öyrəşir. Biz də qəbul etdik ki, Vətən uğrunda minlərlə can şəhid olub. Ziya da onlardan biridir...

Oğlumla qürur duyuram. Vətən yolunda canını qurban verib. Azərbaycanıma üz ağlığı gətirən qəhrəmanlardandır. Hər gün Zabillə gedib məzarını ziyarət edib, gəlirik...





Fikirləşirəm ki, iş olsa, Zabil də, mən də gedib başımızı qatarıq... Nə bilim, hələ iş təklif edən də yoxdur. Biz də o xasiyyətdə deyilik ki, gedib gündə kiminsə qapısının ağzında dayanaq...

Qələbəmizlə, ordumuzla, Vətənimin qazandığı uğurlarla fəxr edirəm. Düşünəndə ki, bu qələbənin müəlliflərindən biri mənim oğlumdur, qürur duyur, fərəhlənirəm də...

Ziya Nurməmmədov torpaqlarımızın azad olunmasında göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Müharibənin bir üzü ölümü, qanı, qorxunu, həyəcanı, ayrılığı, həsrəti özündə ehtiva etsə də, bir üzü də qəhrəmanlığı, şərəfi, ləyaqəti, cəsurluğu, ölümü öldürüb ölməzlik qazanmağı, əbədiyaşarlığı təcəssüm etdirir. Müharibə Tanrı dərgahına gedən yolun başlanğıcı, şəhidliyə açılan qapı, Allahla insanın arasındakı məsafənin daraldığı yerdir.

Müharibə yeganə meydandır ki, qaçan da Allahı çağırır, qovan da… Müharibədə qazanılan Zəfər bəlkə də yeganə qələbədir ki, hamı ondan özünə pay götürə bilir.

Bayrağa bükülüb gələn döyüşçü də…

Əlinə bayraq götürüb küçələrə çıxıb sevinənlər də…

### 7 oğul, 7 qardaş, 7 şəhid...



Elnarə xanımla, Zabil bəylə xüdahafizləşəndə Elnarə xanım divardan asılmış şəkli göstərib "xahiş edirəm bu 7 oğulu, 7 qardaşı, 7 şəhidi bir-birindən ayırmayın. Bir səngərdə ən azı iki ay bir torpaq üstündə yatıblar. Qanları bir torpağa qarışıb..." dedi. Divardan asılmış şəkillərə baxırıq. 7 nur üzlü oğulun gözləri gözümüzə zillənir...

Əsgər Ziya Nurməmmədov, leytenant Ətraf Qənimətov, kapitan Elnur Cəbrayılov, əsgər İkram Məmmədov, əsgər Əmrağa Ağayev, əsgər Tahir Əliyev, əsgər Ramil Yusifzadə...

Gözlərimizi bizə zillənən gözlərdən çəkə bilmirik...

Elnarə xanımın pıçıltı ilə, güclə eşidilə biləcək səsi gəlir: "Vətən sağ olsun!"

Sanki bu səs divarda əks-səda verib bütün Sığırlıya, Azərbaycana yayılır.

Vətən sağ olsun!..

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN

27 sentyabr 2024-cü il



*Səndən ötrü can verməyə cümlə hazırız,*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!..*

# Vüsalın şəhadət zirvəsi




## Könüllü əsgər Vüsal Həsənovun döyüş yolu 14 gün çəksə də, örnəyə çevrilən qəhrəmanlıq yolu əbədi davam edəcək

**Vətən oldu oğullar!**

**Qızmar yay günlərindən biridir. Hər gün bizi yuxudan oyadıb, ömrümüzdən bir kərpic götürüb aparan yeni gün dörd saat əvvəl gözlərini açıb. Günəş də həmişəki kimi vaxtlı-vaxtında üfüqdə öz yerini tutaraq tələsmədən isti şəfəqlərini Yer üzünün hər tərəfinə səpələyir. Göy üzündə, Yer üzündə baş verən təbiət hadisələrinə o qədər də məhəl qoymayan insanlar işlərinin arxasınca elə hey harasa tələsir, harasa qaçırlar...**

**Ömür kitabımızın səhifələrini artıran belə gözəl bir gündə biz də vacib iş arxasınca gedirik. Gedirik ki, 44 günlük Vətən müharibəsində 14 gün erməni işğalçıları ilə vuruşmuş, canından da çox sevdiyi torpaq uğrunda şəhid olmuş Həsənov Vüsal Ariz oğlunun ömür və döyüş yolunu vərəqləyək...**




Yola çıxmazdan əvvəl anası Mərifət xanıma zəng vurub yaşadıqları ünvanı dəqiqləşdirmişdik. Şəhid anası demişdi ki, yolun kənarındakı binaya oğlunun şəkli vurulub. Elə şəklin vurulduğu istiqamətdə də evimiz yerləşir.

Soraqlaya-soraqlaya Vüsalın şəklinin vurulduğu binanın yanına gəlib çatdıq. Bir anlıq dayanıb şəhid Vətən oğlunun şəklindən boylanan mehriban baxışlarını süzdük. Sonra Mərifət xanımın dediyi istiqamətə getdik. Sanki Vüsal şəkildən boylanan baxışları ilə bizi bir vaxtlar yaşadığı evə yola salır...

İrəlidə Vüsalın divara vurulmuş və ətrafına gül-çiçək əkilmiş xatirə lövhəsini gördük. Xatirə lövhəsinin yanındakı evin qapısı açıq idi. Qapıya çatmağa iki-üç addım qalmış əyninə qara paltar geyinmiş, başına qara yaylıq örtmüş qadın qabağımıza çıxdı.

Salamlaşanda öyrənirik ki, Vüsalın anası Mərifət xanımdır. Şəhid anası bizi içəri dəvət etdi. İçəri addımımızı qoyan kimi elə dəhlizdə bizi Vüsalın şəkilləri "qarşıladı..."



### Kədərdən üstün olan qürur

Sonra şəhid anasının dediyi kimi, "Vüsalın otağı"na keçdik. İçəridə sakitlikdir. Astaca qədəm qoyduğumuz otaqda şəhidə həsr olunmuş guşə yaradılıb. Otaq bir anlıq bizə muzeyləri xatırladır. Burada yalnız şəhidin şəkilləri, ondan yadigar qalmış əşyalar və haqqında yazılmış kitablar "danışır". Bu şəkillər və qeydlər Vusalın keçdiyi qısa ömür və döyüş yolundan söz açır. Onun yaşadığı ömrün anlarını gözlərimiz önündə canlandırır.

Guşədəki şəkillər əlimizdən tutub bizi onun uşaqlıq çağlarına, gənclik illərinə aparır. O illərə, o çağlara ki, onda Vüsal sağ-salamat idi. Hamı kimi qayğısız bir ömür yaşayır, həyatın gözəlliyindən zövq alırdı, ürəyi arzu və istəklərlə dolub-daşırdı. Ömrünün arxada qalan illəri nərdivan kimi addım-addım onu arzularına qovuşmağa yaxınlaşdırırdı. Həmin çağlar Vüsal ömrünün ən gözəl günlərini yaşayırdı. Amma Vüsalın ürəyindən daim boy verən Vətən sevgisi də var idi. Bu sevginin boyu o biri istəklərindən ucalıqda, yüksəklikdə dayanırdı. O, çox vətənpərvər idi. Onun sinəsində Vətən sevgisi ilə dolu olan bir ürək döyünürdü. İkinci Qarabağ müharibəsi başlayanda könüllü olaraq onu döyüşlərə sinəsində qəhrəmanlığa təşnə olan bu ürək apardı.

Mərifət xanım Vüsala həsr etdiyi guşənin qarşısındakı masada əyləşib oğlu haqqında danışır. Övladının ömür yolundan söz açan ananın səsində kədərdən üstün olan qürur notları da duyulur. Şəhid anası danışdıqca sanki oğlunun ömür və döyüş yoluna geniş bir cığır açır. Biz də bu cığırla addımlaya-addımlaya Vüsalın qısa, amma şərəfli həyat hekayəsinə qulaq asırıq.

Ananın dediklərindən öyrənirik ki, Həsənov Vüsal Ariz oğlu bir yay günündə - 3 iyul 1997-ci ildə Bakı şəhərində anadan olub. Dünyaya gəlişi ilə valideynlərini arzularına çatdıran, vüsallarına



qovuşduran körpəyə elə Vüsal adı qoyurlar. Ailənin ilk övladı olduğuna görə uşaq çox əzizlənib, çox sevilib. Məktəb yaşına çatanda Vüsal çantasını çiyninə salaraq valideynlərinin əlindən tutub yaşıdları ilə bərabər dərsə yollanıb. Dördüncü sinfə qədər Bayıl qəsəbəsindəki 49 nömrəli orta məktəbdə oxuyub. Sonra təhsilini Badamdar qəsəbəsindəki Tofiq Məmmədov adına 239 nömrəli məktəbdə davam etdirib.

Orta təhsilini başa vurduqdan bir il sonra - 2018-ci ildə ordu sıralarına çağrılıb. Vətən qarşısındakı övladlıq borcunu şərəf və ləyaqətlə yerinə yetirərək alnıaçıq, başıuca doğmalarının yanına qayıdıb. Evdə ata əvəzi olan Vüsal yanacaqdoldurma məntəqəsində işə düzəlib.

27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində Qarabağ müharibəsi başlayanda Vüsal da könüllü olaraq döyüşə yollanıb. Həmin gündən sonra onun həyatının yeni, ən şərəfli mərhələsi başlayıb...

### Müqəddəs borc, müqəddəs vəzifə

Mərifət xanım dedi ki, Qarabağ uğrunda müharibənin başladığını eşidən gün Vüsal könüllü olaraq döyüşlərə getdi. Dedi ki, "ana, torpaqlarımızı erməni işğalından azad etmək üçün əlverişli şərait yaranıb. Bizim Silahlı Qüvvələrimiz ermənilərin ordularından qat-qat güclüdür. Biz mütləq bu müharibədə düşmənə qalib gəlib, torpaqlarımızı işğaldan azad etməliyik. Bu, bizim Vətən qarşısındakı ən müqəddəs borcumuz və vəzifəmizdir. Vətəndaş kimi bu borcu, bu vəzifəni yerinə yetirməyin zamanı çatıb. Bir dəqiqə də olsun ləngimək, gecikmək olmaz". Bu sözləri





deyəndən sonra Vüsal bizimlə sağollaşıb cəbhəyə yollandı.

- Artıq ertəsi gün onun telefon zəngi cəbhə bölgəsindən gəldi. Oğlum qısa çəkən telefon danışığında dedi ki, Füzulidə vuruşur, nigaran qalmayaq. Qələbə, zəfər bizimlədir, yaxın günlərdə erməni qəsbkarlarını geri oturdub, bu yerləri azad edəcəyik. Oğlumdan hər gün uğurlu döyüşlərin xəbərlərini eşidirdim.

Gözüm televiziya ekranlarında qalmışdı. Xəbər proqramlarında da ürəkaçan məlumatlar yayımlanırdı. Ordumuz dayanmadan irəliləyir, bir-birinin ardınca yaşayış məntəqələrini işğalçılardan təmizləyirdi. Hər gün səhərlərimizi zəfər xəbərləri ilə açırdıq.

Qələbə müjdələri ilə dolu olan belə günlərdə Vüsaldan zəng gəlmədi. Çox nigaran qaldım. Sonra zəng vuranlar oğlumun şəhid olduğunu dedilər. Bu acı xəbəri eşidəndə elə bil dünya-aləm başıma uçdu. Gözlərimə qatı qaranlıq çökdü...

Söhbətinin bu yerində şəhid anası kövrəlir, səsi titrəyir, gözləri yaşarır, nitqi qırılır. Hərdən pıçıltı ilə danışır. Özü də yalnız Vüsallı günlərindən söz açır. Oğlunun ölümündən danışmaq istəmir. Hərdən də susub gözlərini bir nöqtəyə zilləyir. Biz də bu məqamda sual vermirik.



Sakit-sakit Vüsala həsr olunmuş guşəyə baxırıq. Şəkillərinin hamısında Vüsal gülərüz düşüb. Onun mehriban, gülümsər çöhrəsi baxanları duyğulandırır. Mərifət xanım ölümündən sonra Vüsalın layiq görüldüyü medalların vəsiqələrini də guşəyə qoyub. Diqqətlə həmin vəsiqələrə baxırıq.

Öyrənirik ki, Həsənov Vüsal Ariz oğlu torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə və qəhrəmanlığa görə Prezident İlham Əliyevin sərəncamları ilə "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medallarına layiq görülüb.



### Şərəf dolu 14 günlük döyüş yolu

Guşədə şəhidin şəkli ustalıqla divardan asılan saatın içinə yerləşdirilib. Bu mənzərəni görəndə fikirləşirik ki, Vüsal torpaqlarımız uğrunda canından keçsə də, yenə də zamanla ayaqlaşır, vaxtdan geri qalmır... Bu ömür isə əbədi-əzəlidir, sonsuzdur...

Bir az sakitləşib özünə gələndən sonra Mərifət xanım oğlunun yarıda qırılmış həyat hekayəsinə davam edir. Deyir ki, Vüsalın şəhid olduğunu eşidən kimi yaxın qohumlarla Füzuli rayonuna yola düşüblər. "Mən onun ölümünə inanmırdım. Yol uzunu fikirləşirdim ki, bəlkə bu, yanlış məlumatdır, adı başqası ilə səhv düşüb. Amma təəssüf ki, xeyli araşdırma aparılandan sonra xəbərin doğru olduğu təsdiqləndi. Müharibələrdə itkilər qaçılmazdır. Vüsal torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuşdu. Təskinliyimizi yalnız bunda tapırıq. Oğlumun ömür yolu ilə bərabər döyüş yolu da yarımçıq qaldı. Oktyabrın 11-də şəhid olan oğlum erməni işğalçılarına qarşı yalnız 14 gün vuruşmuşdu. Döyüşçü dostlarının dediyinə görə, Vüsalı düşmən snayperi vurmuşdu. Qürurlanıram ki, Azərbaycan əsgəri oğlumun yarımçıq qalmış döyüş yolunu uğurla davam etirərək Qarabağı erməni işğalçılarından təmizlədi. Bundan oğlumun da narahat ruhu sakitlik tapdı.

Vüsalın cəsədini Füzuli rayonundan birbaşa ata-baba yurdumuz Şabran rayonunun Zeyvə kəndinə apardıq. Acı göz yaşları içində oğlumu atasının məzarının yanında torpağa tapşırdıq. Onun dəfn mərasimində bütün kənd camaatı iştirak etdi. Bir müddətdən sonra onun məzarının üstünü götürdük, ətrafını abadlaşdırdıq. İndi qəbiristanlığın girişində şəhidlərə guşə də düzəldilib. Yaxınlar, doğmalar onun məzarını tez-tez ziyarət edirlər.

Üstündən xeyli müddət keçəndən sonra döyüşçü dostlarından onun oktyabrın 11-də təxminən saat neçədə şəhid olduğunu öyrəndim. Sonra yadıma düşdü ki, həmin vaxt yorğun olduğumdan divanda oturduğum yerdə məni yuxu aparmışdı. Birdən Vüsalı yuxuda görüb ayıldım. Deməli, oğlumu ermənilər vuran anda mən yuxudan diksinib oyanmışam. Doğrudan da, deyilənlər doğru imiş, övladların ölümü analara həyan olurmuş..."



Bir az susub fikrə gedəndən sonra şəhid anası yarımçıq qalmış söhbətinə yeni sözlərlə, yeni məlumatlarla qol-qanad verdi. Dedi ki, onunla təskinlik tapıram ki, Vüsal dost-tanışları tərəfindən də unudulmur, həmişə xatırlanır.

Bir vaxtlar təhsil aldığı Tofiq Məmmədov adına 239 nömrəli orta məktəbdəki siniflərdən birinə oğlumun adı verilib. Sinifdə Vüsalın ömür və döyüş yolunu əks etdirən guşə yaradılıb. Bundan başqa, məktəbin həyətində şəhidlərin xatirəsinə həsr olunmuş guşə düzəldilib. Vüsalın da şəkli mərmər lövhəyə köçürülərək divara vurulub.

Bayıl qəsəbəsindəki 49 nömrəli məktəbdə də Vüsalın xatirəsinə həsr olunmuş stendlər var. Ana kimi bu, onun üçün böyük təsəllidir ki, övladının xatirəsi hər yerdə əziz tutulur, hörmətlə anılır.





### Xatirələrdə körpə uşaq kimi qaldı...

Mərifət xanım dedi ki, Vüsal çox mehriban, ürəyitəmiz uşaq idi. Təkcə tay-tuşları ilə deyil, özündən böyüklərlə də dostluq edirdi. Dostlarına qarşı həssas idi. İşləri nəsə bir çətinə düşəndə Vüsal onlara təskinlik verər, imkanı daxilində kömək edərdi. Buna görə də dost-tanışları çox idi. Nədənsə Vüsal xatirələrində körpə uşaq kimi qalıb. Onu tez-tez yuxularında görür. Demək olar ki, yuxularından çıxmır. Evə girən kimi həmişə birinci sözü bu olardı: "Anam evdədir?"



Vüsalın sevdiyi bir qız da var idi...

Vüsalla bir yerdə torpaqlarımızın azadlığı uğrunda çiyin-çiyinə vuruşmuş əsgər dostu Novruz Hüseynovla da söhbət etdik. Vüsalın döyüş yolundan söz açan Novruz dedi ki, onunla döyüşlər zamanı tanış olub. "Elə ilk addımdan hiss etmişdim ki, cəsarətli oğlandır. Əməliyyatlar zamanı Vüsalın cəsurluğunu yaxından gördük. O, qorxmadan hücumlara atılır, sərrast atəşlə düşməni məhv edirdi. 14 gün onunla çiyin-çiyinə vuruşduq. Ən böyük arzusu Şuşa, Xocalı uğrunda döyüşmək idi. Amma təəssüflər olsun ki, mövqeyini dəyişərkən erməni snayperi onu vurdu. Vüsalı çox tez itirdik. Döyüş yolu yarımçıq qaldı. Biz əsgər dostları onun döyüş yolunu Zəfərədək davam etdirdik. Vüsal kimi cəsur döyüşçüləri həmişə xatırlayacaq və ehtiramla yad edəcəyik".



Eyni məhəllədə böyümüş Nurlan Mənaflı da şəhid dostunu kədər hissi ilə yada saldı, onunla bağlı xoş xatirələrini dilə gətirdi. Dedi ki, Vüsal çox mehriban, qayğıkeş oğlan idi. "Uşaqlığımız, gəncliyimiz bir yerdə keçmişdi. O, yaxşı dost, yaxşı qardaş və yaxşı da yoldaş idi. Vüsal yaddaşımızda gülərüz, mehriban bir insan kimi qalacaq. Yəqin ki, dünyanın bütün yaxşı sözlərini Vüsalın ünvanına söyləsək, bəlkə də azlıq edər. Vüsal haqqında deyilmiş və bu gündən sonra deyiləcək bütün xoş sözlərə layiq idi. Təəssüflər olsun ki, aramızdan çox tez getdi. Ölümündən dörd ilə yaxın vaxt keçsə də, hələ də dostumuzun yoxluğuna inana bilmirik. Onu tez-tez xatırlayırıq. Günlərin birində Vüsalın geri dönəcəyinə inanırıq..."



### Bir ovuc Şuşa torpağı

Vüsala həsr olunmuş guşəyə qoyulmuş bir ovuc torpaq diqqətimizdən yayınmadı. Şəhid anasından onun haradan gətirildiyini soruşduq. Mərifət xanım dedi ki, bu, Şuşadan gətirilmiş torpaqdır. "Oğlum telefon zənglərində həmişə deyirdi ki, döyüşlərimiz uğurla davam edir. Addım-addım erməniləri geri qovuruq. Yaxın zamanlarda Şuşanı da erməni işğalçılarından azad edəcəyik. Ən böyük arzularından biri də Şuşa uğrunda vuruşmaqdır. Amma Vüsal şəhid oldu, bu arzusuna çata bilmədi. Şuşa şəhərinə gedəndə bu müqəddəs məkandan bir ovuc torpaq gətirib, Vüsalın otağındakı guşəyə qoydum. Fikirləşdim ki, qoy Şuşanın erməni işğalçılarından azad edilməsindən ruhu şad olsun".







### Şəhid anası, əsgər anası

Mərifət xanımla söhbətdən onu da öyrəndik ki, o, şəhid anası olmaqla yanaşı, həm də əsgər anasıdır. Kiçik oğlu Nuran altı aydan çoxdur "N" hərbi hissəsində Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirir. Zəng vurub anasına xidmətindən danışır, qazandığı uğurlarla onu sevindirir.

Evin bütün otaqlarından Vüsalın şəkilləri asılıb. Şəkillərin hamısından o gülümsər çöhrəsi ilə evlərinə ziyarətə gələnlərə baxır. Bu şəkillərdən otaqlara onun mehriban baxışları süzülür. Yaxınlarının, doğmalarının yaddaşında cəsur döyüşçü, gülərüz oğlan, qayğıkeş insan kimi qalmış Vüsal elə bizi də evlərindən mehriban baxışları ilə yola saldı.

***Vahid MƏHƏRRƏMOV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Bakıda Çin Xalq Respublikasının yaradılmasının 75 illiyi münasibətilə rəsmi qəbul təşkil edilib

**Sentyabrın 26-da Çinin Azərbaycandakı səfirliyi milli bayram - Çin Xalq Respublikasının yaradılmasının 75-ci ildönümü münasibətilə rəsmi qəbul təşkil edib.**





AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət himnləri səsləndirildikdən sonra Çinin Azərbaycandakı müvəqqəti işlər vəkili Din Tao çıxış edərək ölkəsinin 75 ildə keçdiyi inkişaf yolundan danışıb, iqtisadi və mədəni sahələrdə böyük tərəqqiyə nail olunduğunu söyləyib.

"Çin-Azərbaycan münasibətlərinin ötən 32 ili nümayiş etdirdi ki, suverenlik və ərazi bütövlüyünə qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, bərabərlik və qarşılıqlı fayda, dinc yanaşı yaşama prinsiplərinə sadiq qalaraq, müxtəlif sosial sistemlərə, ideologiyalara, tarixlərə, mədəniyyətlərə, dinlərə və inkişaf səviyyələrinə malik ölkələr hələ də qarşılıqlı etimad yarada və dostluq əməkdaşlığını inkişaf etdirə bilərlər. Sədr Si Cinpinin qeyd etdiyi kimi, Çin-Azərbaycan strateji tərəfdaşlığının yaradılması yeni mövqe və yeni başlanğıc nöqtəsidir. Hər iki ölkə liderinin əldə etdiyi konsensusun tam şəkildə həyata keçirilməsi üçün Çin Azərbaycanla işləməyə hazırdır. Bu yeni başlanğıc nöqtəsində əlaqələrimizi daha yetkin və əsaslı mərhələyə yüksəldək və həm ölkələrimizə, həm də xalqlarımıza daha çox fayda gətirək", - deyə Din Tao əlavə edib.

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev çıxışında ticarət-iqtisadi əməkdaşlığın inkişafında Azərbaycan-Çin Hökumətlərarası Komissiyasının mühüm rolunu xüsusilə qeyd edib: "2023-cü ilin noyabrında komissiyanın doqquzuncu iclası Çində keçirildi. Görüşün yekunlarına dair imzalanmış protokolun icrası ticarət, investisiya, enerji, nəqliyyat, qida təhlükəsizliyi və turizm sahələrində əməkdaşlığımızın inkişafına töhfə verir", - deyə Şahin Mustafayev vurğulayıb.

Həmçinin Baş nazirin müavini qeyd edib ki, Azərbaycan və Çin arasında neft və qaz sahəsində əməkdaşlıq davam edir: "2021-2024-cü illərdə SOCAR Çinə mayeləşdirilmiş təbii qaz və neft məhsulları ixrac edib. 2023-cü ildə neft-kimya məhsulları və xam neft tədarük edilib. Eyni zamanda Azərbaycan və Çin arasında iqtisadi əlaqələrin dinamikasına təsir edən mühüm amillərdən biri də enerji sahəsində səmərəli əməkdaşlıqdır. Hazırda alternativ və bərpaolunan enerji mənbələri sahəsi ölkələrimiz arasında əməkdaşlığın perspektivli sahələrindən biridir. Azərbaycanın "yaşıl enerji" imkanlarının inkişafı məqsədilə bir sıra Çin şirkətləri ilə potensial layihələr müzakirə olunur. Ölkəmizin bu ilin noyabrında COP29 konfransına evsahibliyi edəcəyini nəzərə alaraq, Çindən rəsmi nümayəndə heyətinin iştirakını alqışlayır və Çinin iqlim dəyişikliyi ilə mübarizə sahəsində qabaqcıl təcrübəsini bölüşməkdə maraqlıyıq. Azərbaycanda avtobus parkının yerli istehsalını təmin etmək üçün Çin ilə əməkdaşlıq edilir. "BYD Company Limited" (BYD) şirkəti fəaliyyətə başlamış, COP29 çərçivəsində elektriklə işləyən avtobusların ölkəmizə idxalı və istismara verilməsi haqqında müqavilə imzalanmışdır. Əməkdaşlıq çərçivəsində 2025-ci ildə yerli istehsalın yaradılması, ehtiyat hissələrinin lokallaşdırılması, dövlətin satınalma zəmanəti və birgə maliyyələşdirilməsi də nəzərdə tutulub", - deyə Şahin Mustafayev əlavə edib.

Tədbir bədii hissə ilə davam edib.

# Bakıda Azərbaycan-Körfəz Əməkdaşlıq Şurasına üzv ölkələrin iqtisadi forumu keçirilib




**İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO-nun təşkilatçılığı ilə Bakıda Azərbaycan-Körfəz Əməkdaşlıq Şurasına (KƏŞ) üzv ölkələrin iqtisadi forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın biznes mühiti, ölkəmizdə həyata keçirilən islahatlar barədə KƏŞ ölkələrinin biznes dairələrinin məlumatlandırılması və əməkdaşlığın genişləndirilməsi imkanlarının müzakirə edildiyi forumda iqtisadiyyat nazirinin müavini Anar Axundov, Qətərin Ticarət və Sənaye Nazirliyinin müşaviri Məhəmməd bin Hassan Al Malki, Körfəz Ərəb Dövlətləri Əməkdaşlıq Şurasının (KƏŞ) Baş Katibliyinin İqtisadiyyat və İnkişaf Məsələləri üzrə köməkçisi Xalid Bin Əli Əl Sunaidi, KƏŞ Ticarət Palataları Federasiyasının (FGCCC) sədri Şeyx Faisal Bin Abdulla Al-Ravas, aidiyyəti qurumların rəhbərləri və sahibkarlar iştirak ediblər.

Forumda təşkilata üzv dövlətlərlə Azərbaycan arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğu, qarşılıqlı hörmət və dostluq münasibətlərinin uğurla inkişaf etdiyi diqqətə çatdırılıb, yüksəksəviyyəli qarşılıqlı səfərlərin əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Bildirilib ki, Körfəz ölkələri ilə əməkdaşlıq Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və investisiya imkanlarının səmərəli reallaşdırılması baxımından önəm kəsb edir. Enerji, ticarət və infrastrukturun inkişafı sahəsində təşəbbüslər regional sabitlik və rifaha əhəmiyyətli töhfə verir. Bu gün Azərbaycan və KƏŞ ölkələri arasında iqtisadi əlaqələr qarşılıqlı maraq əsasında inkişaf edir.

Azərbaycanda formalaşmış əlverişli biznes mühiti və xarici investorlar üçün yaradılmış cəlbedici imkanlar, habelə tətbiq edilən vergi və gömrük güzəştləri xarici sərmayədarların ölkəmizə marağını davamlı olaraq artırır. Bərpaolunan enerji, sənaye, kənd təsərrüfatı, turizm, nəqliyyat və logistika, rəqəmsallaşma kimi bir çox sahələrdə xarici investorlarla uğurlu birgə layihələr həyata keçirilir.

Biznes-forum çərçivəsində təqdimatlar dinlənilib, iş adamları arasında ikitərəfli görüşlər təşkil edilib, əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.

Sonra AZPROMO ilə KƏŞ Ticarət Palataları Federasiyası (FGCCC) arasında qarşılıqlı əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb. Sənəddə AZPROMO və KƏŞ arasında iqtisadi əlaqələrin inkişafı üçün qarşılıqlı fəaliyyətin təşviqi, qarşılıqlı investisiyaların cəlb olunmasının dəstəklənməsi, iqtisadi forumlar, sərgilər və ticarət missiyalarının təşkil edilməsi ilə bağlı əməkdaşlıq məsələləri əksini tapıb.

Forum panel sessiyalarla işini davam etdirib.

# Azərbaycan və Ermənistan qısa müddətdə sülh sazişinin yekunlaşdırılması üçün əlavə səylərin göstərilməsi barədə razılığa gəliblər

**Sentyabrın 26-da Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində ABŞ Dövlət katibi Entoni Blinkenin təşəbbüsü və iştirakı ilə Nyu Yorkda görüş keçiriblər.**



Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, tərəflər mümkün qısa müddət ərzində sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında sazişin yekunlaşdırılması üçün əlavə səylərin göstərilməsi barədə razılığa gəliblər.

Azərbaycan və Ermənistan tərəfləri görüşü təşkil etdiyinə görə dövlət katibinə minnətdarlıq bildiriblər. Qeyd edək ki, tərəflər arasında sonuncu dəfə görüş Entoni Blinkenin təşəbbüsü ilə bu ilin iyulunda Vaşinqtonda keçirilən NATO sammiti çərçivəsində olub.

# Xarici işlər naziri bir sıra görüşlər keçirib





Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 79-cu sessiyasının yüksəksəviyyəli həftəsində iştirakı çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansının (UNAOC) ali nümayəndəsi Migel Angel Moratinos ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, görüşdə Azərbaycan və UNAOC arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, gələcək plan və birgə layihələr, habelə postmünaqişə dövründə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Azərbaycanın UNAOC ilə uğurlu və məhsuldar əməkdaşlıq etdiyi diqqətə çatdırılıb, əməkdaşlıq dinamikamızın inkişafında şəxsən töhfə vermiş ali nümayəndənin fəaliyyəti xüsusilə qeyd edilib.

Ölkəmizin sivilizasiyalararası dialoqda oynadığı rolundan bəhs olunub, bu istiqamətdə həyata keçirilən birgə layihələrin əhəmiyyətindən danışılıb.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, habelə Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh prosesi barədə qarşı tərəf ətraflı məlumatlandırılıb.

Azərbaycan ərazilərinin 30 ilə yaxın işğalı dövründə ölkəmizin təkcə humanitar sahədə deyil, mədəniyyət sahəsində də genişmiqyaslı və dağıdıcı nəticələrlə qarşı-qarşıya qaldığı, mədəni irsimizin məqsədyönlü şəkildə talana, məhvə və qanunsuz dəyişikliklərə uğradıldığı ifadə olunub.

İşğal dövrünün ağır humanitar nəticələrinə baxmayaraq, münaqişəyə son qoyulmasından dərhal sonra Azərbaycanın sülh gündəliyi təşəbbüsü ilə çıxış etdiyi və normallaşma prosesinin irəlilədilməsində ən aktiv tərəf olduğu diqqətə çatdırılıb. Sülh müqaviləsinin imzalanmasına maneə törədən bir sıra açıq məsələlərin mövcudluğu, xüsusilə Ermənistanın Konstitusiyası da daxil olmaqla, bir sıra qanunvericilik aktlarında ölkəmizə qarşı davam edən ərazi iddialarının sülh gündəliyinin irəli aparılmasına mane olduğu diqqətə çatdırılıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Sentyabrın 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 79-cu sessiyasının yüksəksəviyyəli həftəsində iştirakı çərçivəsində Latviya Respublikasının xarici işlər naziri Baiba Braje ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, görüş zamanı tərəflər iki ölkə arasında mövcud siyasi, iqtisadi, regional təhlükəsizlik, parlamentlərarası əlaqələr və humanitar sahələrdə əməkdaşlıq məsələlərini, habelə ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi çərçivəsində hazırlıq işləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə ediblər.

İki ölkə arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin siyasi, iqtisadi, ticarət, humanitar və sair aspektlər üzrə inkişaf səviyyəsindən məmnunluq ifadə olunub, əməkdaşlığın bu dinamikada digər istiqamətlər, o cümlədən infrastruktur, nəqliyyat və enerji təhlükəsizliyi üzrə davam və inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Ceyhun Bayramov qarşı tərəfi COP29 sədrlik fəaliyyətimiz, məqsəd və prioritetlərimiz, bu çərçivədə irəli sürülən 14 əsas təşəbbüs və onların praktiki icrasının təmini üçün görülən işlər barədə ətraflı məlumatlandırıb. İqlim dəyişikliyi ilə mübarizə səylərinə maliyyə vəsaitinin cəlbinə hədəflənən sədrliyimizin bu istiqamətdə İqlim Maliyyə Fəaliyyəti Fondunun yaradılması təşəbbüsü ilə çıxış etdiyi diqqətə çatdırılıb.

Ölkəmizin COP29 sədrliyi prosesini inklüzivlik əsasında qurduğu və bu xüsusda bütün maraqlı tərəfləri prosesə cəlb etmək niyyətində olduğu diqqətə çatdırılıb.

Qarşı tərəf həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, Azərbaycan və Ermənistan arasında sülh gündəliyi, aparılan ikitərəfli danışıqlar prosesi, əldə olunan irəliləyişlər, habelə sülh müqaviləsinin imzalanmasının qarşısında duran Ermənistanın qanunvericilik aktları, xüsusilə konstitusiyasında ölkəmizə qarşı davam edən ərazi iddiaları barədə məlumatlandırılıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 79-cu sessiyasının yüksəksəviyyəli həftəsində iştirakı çərçivəsində Anqolanın xarici işlər naziri Tete Antonio ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, görüş zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın perspektivləri, habelə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işləri müzakirə olunub.

Ceyhun Bayramov Afrika ölkələri ilə əməkdaşlığın ölkəmizin xarici siyasətinin tərkib hissəsi olduğunu qeyd edərək, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə bir çox Afrika ölkəsi, o cümlədən Anqola ilə əməkdaşlıq imkanlarının yarandığını diqqətə çatdırıb.

Azərbaycan və Anqola arasında iqtisadi-ticarət, habelə humanitar sahədə ikitərəfli, o cümlədən çoxtərəfli əlaqələrin inkişaf perspektivlərinin müzakirəsi baxımından siyasi məsləhətləşmələr mexanizmindən istifadənin vacibliyi vurğulanıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

BMT Baş Assambleyasının 79-cu sessiyasının yüksəksəviyyəli həftəsi çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Polşa Respublikasının xarici işlər naziri Radoslav Şikorski ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, Azərbaycanla Polşa arasında siyasi, iqtisadi, alternativ enerji, humanitar və digər sahələrdə münasibətlərin geniş perspektivə malik olduğu, əlaqələrin inkişafında siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyəti qeyd olunub.

Nazir bu il ölkəmizin evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yeni tərəfdaşlıq sahələri üçün əlverişli imkanlar yaratdığını və bu çərçivədə Azərbaycanın Polşa ilə əməkdaşlıqda maraqlı olduğunu vurğulayıb.

Ceyhun Bayramov qarşı tərəfi Azərbaycan-Ermənistan normallaşma prosesi barədə ətraflı məlumatlandırıb. Sülh sazişinin uğurla tamamlanması üçün Ermənistan Konstitusiyasında müvafiq dəyişikliklər edilməsinin zəruriliyi vurğulanıb.

Görüşdə yeni əməkdaşlıq istiqamətləri və qarşılıqlı maraq kəsb edən digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# Bakıda növbəti ağacəkmə aksiyası təşkil olunub

**"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində sentyabrın 26-da Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və digər ailə üzvlərinin iştirakı ilə paytaxt Bakının Nizami rayonunun Mikayıl Əliyev və Kamil Balakişiyev küçələrinin kəsişməsində yerləşən ərazidə növbəti ağacəkmə aksiyası həyata keçirilib.**



AZƏRTAC xəbər verir ki, IDEA könüllülərinin də iştirak etdikləri budəfəki ağacəkmə aksiyası vaxtilə tikinti materialları və məişət tullantıları ilə mütəmadi olaraq çirkləndirilmiş ərazidə təşkil olunub. Aksiya zamanı 230 ədəd Eldar şamı əkilib və ərazidə müvafiq abadlıq işləri aparılıb. Sözügedən ərazidə ağacların effektiv sulanması və su israfının qarşısının alınması məqsədilə damcılı suvarma sistemindən istifadə nəzərdə tutulub.



Qeyd edək ki, vaxtilə baxımsız vəziyyətdə qalan və iki hektar ərazini əhatə edən bu sahə bir neçə ay əvvəl IDEA İctimai Birliyinin təşəbbüsü və könüllülərin fəal iştirakı ilə tullantılardan tamamilə təmizlənib, torpaq qatı əlavə olunaraq rekultivasiya işləri görülüb. Həmçinin aprelin 16-da Leyla Əliyevanın iştirakı ilə ərazinin bir hissəsində ilk ağacəkmə aksiyası təşkil edilib. İndi isə ağacəkmə mövsümünün başlanması ilə əlaqədar həmin sahədə növbəti ağacəkmə fəaliyyətləri davam etdirilir.



Bu gün paytaxtımızda hava təbəqəsi avtomobil nəqliyyatı, istehsal və istehlak fəaliyyəti zamanı yaranan tullantılarla çirklənir, havada olan toz və digər yad maddələr insan sağlamlığına, bütün ekoloji tarazlığa zərər verir. Meşə zolağının salınması və yaşıllaşdırma fəaliyyətləri ekoloji tarazlığın bərpasına və havanın keyfiyyətinin artırılmasına müsbət təsir edir.

IDEA İctimai Birliyi bu cür ekoloji aksiyaların mütəmadi olaraq təşkili ilə ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə gənc nəslin diqqətinə çatdırır və onları ekoloji problemlərə qarşı mübarizədə birgə fəaliyyətə səsləyir. Vətəndaşlar qanunsuz ağac kəsilməsi halları ilə rastlaşdıqda şikayət və təkliflərini şəhər, yaxud mobil telefonlardan 1113 qaynar xətt vasitəsilə IDEA İctimai Birliyinə çatdıra bilərlər.



Qeyd edək ki, "1113 - Təbiətin təcili yardımı" "qaynar xətt"i və mobil qrupu 2014-cü ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Ağacların kəsilməsinə yox!" proqramı çərçivəsində yaradılıb. Sözügedən "qaynar xətt"ə daxil olan minlərlə vətəndaş şikayəti üzrə tədbir görülüb.



# Bilgəhdə sahilyanı təmizlik aksiyası keçirilib

**Sentyabrın 26-da Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və digər ailə üzvlərinin, eləcə də IDEA könüllülərinin iştirakı ilə çimərlik mövsümünün bitməsi ilə əlaqədar sahilyanı təmizlik aksiyası keçirilib.**



AZƏRTAC xəbər verir ki, COP29 çərçivəsində keçirilən aksiya Bilgəhdə ictimai çimərlik ərazisində təşkil edilib. İməcilik zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçılarının topladıqları 2 tona yaxın tullantı "Təmiz Şəhər" ASC-nin Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavoduna təhvil verilib.



Budəfəki aksiya IDEA İctimai Birliyinin könüllüləri tərəfindən çimərliklərdə həyata keçirilən təmizlik kampaniyaları üzrə rekord miqdarda tullantının toplanması ilə yadda qalıb.

"Sahillər təmiz qalsın!" şüarı altında keçirilən aksiyanın əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və insanları dənizətrafı mühitin mühafizəsi uğrunda səylərə cəlb etməkdir.



Qeyd edək ki, Xəzər dənizinin və Qafqaz regionunun digər su hövzələrinin unikal biomüxtəlifliyinin mühafizəsi məqsədilə IDEA çirkləndirilmiş sahilyanı ərazilərin təmizlənməsinə və bərpasına yönəlmiş müntəzəm tədbirlər təşkil edir.

IDEA İctimai Birliyi hamını bir daha planetimizin qarşılaşdığı çoxsaylı problemlərin həlli, indiki və gələcək nəsillərin rifahı naminə birləşməyə və hərəkətə keçməyə, təbiətin bizə bəxş etdiyi nemətlərə həssas yanaşmağa çağırır.









# Bakıda yenilənmiş növbəti həyət sakinlərin istifadəsinə verilib

**Sentyabrın 26-da Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və digər ailə üzvlərinin iştirakı ilə Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal-1 yaşayış massivində yerləşən çoxmərtəbəli binaları əhatə edən, 1500-dən çox sakinin yaşadığı həyət abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.**









AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində Leyla Əliyeva, Arzu Əliyeva və ailə üzvləri IDEA könüllüləri ilə birlikdə keçirilən kütləvi ağacəkmə aksiyasında iştirak ediblər. Həyətin azyaşlı sakinlərinə hədiyyələr təqdim olunub.

"Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılmış digər ərazilərdə olduğu kimi, yenidən qurulmuş növbəti həyətdə də sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onlarda idmana marağın artırılması məqsədilə ərazidə süni örtüklü futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaqlar üçün oyun sahəsi salınıb. Eyni zamanda həyətyanı sahədə söhbətgahlar, çoxsaylı oturacaqlar, quş yuvaları və pişik evləri quraşdırılıb. Bundan əlavə, həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü, elektrik xətləri yenilənib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, müxtəlif növ ağaclar, kol bitkiləri əkilərək yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətrafında sıx bitən və havanın çirklənməsinin qarşısını almaq məqsədilə adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkilərək "yaşıl sədlər" yaradılıb.

Məlumat üçün bildirək ki, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Bizim həyət" layihəsi 2017-ci ildən etibarən icra olunur. Layihənin əsas məqsədi paytaxt ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, yaşıllıqların bərpası, mənalı istirahət mühitinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. "Bizim həyət" layihəsi çərçivəsində bu günədək 154 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.

Qeyd edək ki, IDEA İctimai Birliyi həyətlərin abadlaşdırılması və yenidənqurma işlərinin aparılması istiqamətində sakinlərin təklif və müraciətlərini İctimai Birliyə təqdim etməyə çağırır. Müraciətlərinizi IDEA İctimai Birliyinin "qaynar xətt"i "1113" və ya e-mail ünvanına (info@ideacampaign.org) göndərməyiniz xahiş olunur.



# Şəhid olan prokurorluq əməkdaşlarının ailə üzvləri, prokurorluğun veteranları və Vətən müharibəsində iştirak edən prokurorluq işçiləri ilə görüş keçirilib

**Sentyabrın 26-da baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə 1 oktyabr - Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü münasibətilə Azərbaycan Respublikası Prokurorluğunun veteranları, Vətən müharibəsində iştirak etmiş prokurorluq əməkdaşları, I və II Qarabağ müharibəsində şəhid olmuş prokurorluq işçilərinin ailələri ilə görüş keçirilib.**



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə müasir Azərbaycan dövlətinin qurucusu və memarı, Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Çıxış edən baş prokuror Ümummilli Liderimiz Heydər Əliyevin müdrik və uzaqgörən siyasətini dövrün tələbləri ilə uzlaşdıraraq uğurla davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz tərəfindən ermənilərin 30 ildən artıq işğal altında saxladığı torpaqların azadlığına qovuşmasını, həmçinin keçirilmiş qısamüddətli lokal xarakterli antiterror tədbirləri ilə separatçı qüvvələrin yerləşdiyi ərazilərdə vətəndaşlarımızın təhlükəsizliyi və suverenliyimizin tam bərpa edilməsi hadisəsinin ölkəmizin hərb tarixinə qızıl hərflərlə yazıldığını bildirib, həmçinin Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti nəticəsində Qarabağda və digər ərazilərdə aparılan bərpa və quruculuq işlərini xüsusi vurğulayıb, ölkə rəhbərliyi tərəfindən şəhid ailələri, qazilər və müharibə veteranlarına diqqət və qayğı göstərilməsinin cəmiyyətimiz üçün örnək olduğunu qeyd edib.

İştirakçılar şəhid ailələrinə və veteranlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildirərək dövlət tərəfindən onların sosial müdafiəsinin daha da yaxşılaşdırılması sahəsində görülən tədbirlərdən danışıb, həmçinin göstərilən dəstək və qayğıya görə məmnunluqlarını ifadə ediblər.

Görüşə yekun vuran baş prokuror prokurorluğun şəhid olmuş əməkdaşlarının ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həlli ilə bağlı bundan sonra da ardıcıl tədbirlər görüləcəyini, prokurorluq orqanlarının onlara, həmçinin prokurorluğun veteranlarına hər zaman dəstək olacağını vurğulayıb.

# Qərbi Azərbaycan İcması Şotlandiya parlamentində Azərbaycanla bağlı təqdim olunan sənədi qətiyyətlə pisləyib

**Qərbi Azərbaycan İcması Şotlandiya parlamentinin deputatı Kennet Qibsonun təqdim etdiyi sənədi pisləyib.**



AZƏRTAC xəbər verir ki, icmanın bununla bağlı bəyanatında bildirilir: "Biz Şotlandiya parlamentində deputat Kennet Qibson tərəfindən sentyabrın 20-də təqdim edilmiş sənədi qətiyyətlə pisləyirik.

İlk növbədə vurğulamaq istəyirik ki, etnik təmizləmə və işğal ilə assosiasiya olunan "artsax" termininin sənəddə istifadəsi Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlikdir.

Sənəddə Qarabağ ermənilərinin Azərbaycanın reinteqrasiya təklifini rədd edib sərbəst şəkildə ölkəni tərk etmələrinin zorla icra olunmuş hərəkət kimi təqdim edilməsinə çalışılır və digər əsassız iddialar irəli sürülür.

Sənədin müəllifi Ermənistandan və işğal olunmuş Azərbaycan torpaqlarından etnik təmizləməyə məruz qalmış bir milyon azərbaycanlının taleyini tamamilə gözardı edir.

Eyni zamanda sənəddə Azərbaycanın işğal altında olmuş ərazilərində Ermənistanın törətdiyi genişmiqyaslı dağıntılar, həmin ərazilərdə Ermənistan tərəfindən 1,5 milyon minanın basdırılması barədə heç bir məlumat verilmir.

Bu sənəd həmçinin Ermənistandan qovulmuş yüz minlərlə azərbaycanlının geri qayıdışına Ermənistanın mane olmasını görməzdən gəlir və onların qayıtmaq hüququnu mənfi şəkildə təqdim etməyə çalışır.

Ermənistanın yüzlərlə məscidi, saysız-hesabsız qəbiristanlığı və azərbaycanlılara məxsus digər mədəni irs nümunələrini məhv etməsi barədə də heç bir məlumat verilmir. Bütün bu məqamlar göstərir ki, bu sənəd münaqişənin beynəlxalq hüquqa uyğun olaraq həllini qəbul etməyən və onu yenidən alovlandırmağa çalışan müəyyən qüvvələr tərəfindən aparılan beynəlxalq kampaniyanın bir hissəsidir.

Biz bu addımı qətiyyətlə pisləyirik və Şotlandiya parlamentinin üzvlərindən bu təxribatı dayandırmağı tələb edirik".

# İcma: Makronun BMT Baş Assambleyasında Azərbaycana qarşı tamamilə yanlış fikirlərini qətiyyətlə rədd edirik

**"Qərbi Azərbaycan İcması (QAİ) olaraq Fransa Prezidenti Emmanuel Makronun BMT Baş Assambleyasında sentyabrın 25-də səsləndirdiyi Azərbaycanın guya Ermənistana "təzyiq" göstərməsi və "ərazi gərginliyi" barədə tamamilə yanlış və qəbulolunmaz fikirlərini qətiyyətlə rədd edirik".**

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında deyilir.

Bəyanatda həmçinin qeyd olunur: "Azərbaycan torpaqlarının Ermənistan tərəfindən otuz il ərzində işğalına dəstək vermiş, bir milyon azərbaycanlının Ermənistandan və işğal olunmuş Azərbaycan ərazilərindən qovulmasına göz yummuş, vaxtilə münaqişənin dinc yolla həlli üçün atılan addımlara qarşı çıxmış Fransanın rəhbərinin indi sülhə və beynəlxalq hüquqa istinad etməsi olduqca ikiüzlü yanaşmadır. Xatırladaq ki, E.Makronun indi ikiüzlülük nümayiş etdirdiyi BMT Baş Assambleyası 2008-ci ildə münaqişənin həlli ilə bağlı müvafiq qətnamənin qəbuluna Fransanın maneə törətmək cəhdlərinə şahidlik edib.

Aydın məsələdir ki, imperialist gündəliyə malik Fransa Azərbaycanın beynəlxalq hüquqa uyğun olaraq münaqişəni həll, öz suverenliyini və ərazi bütövlüyünü bərpa etməsindən narazıdır. Çünki bu, onun regionun işlərinə müdaxilə etmək imkanlarını məhdudlaşdırır. E.Makron hökuməti bölgədə yenidən münaqişə yaratmaq məqsədilə Ermənistana böyük həcmdə silah göndərir və buna informasiya hazırlığı kimi beynəlxalq platformalarda sanki regionda müəyyən gərginlik olduğu təəssüratı yaratmağa çalışır. Azərbaycana qarşı atdığı böhtanlar da Emmanuel Makronun bu məqsədinə xidmət edir.

Biz Fransadan tələb edirik ki, bu dağıdıcı niyyətindən əl çəksin, Ermənistana silah göndərməyi dərhal dayandırsın, regionun işlərinə qarışmasın və sülhə mane olmasın. Eyni zamanda rəsmi İrəvanı Fransanın oyununda alət olmamağa, genişmiqyaslı silahlanma proqramını dayandırmağa, diqqətini Azərbaycanla sülhün əldə edilməsinə yönəltməyə və Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmalarına şərait yaratmağa çağırırıq".

# İcma: A.Mirzoyanın Azərbaycanda "erməni mədəni irsi"nin guya təhlükə altında olması barədə bəyanatını kəskin şəkildə qınayırıq

**"Biz Qərbi Azərbaycan İcması olaraq Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Qədim Sivilizasiyalar Forumunda verdiyi bəyanatı kəskin şəkildə qınayır və rədd edirik. Nazir Mirzoyan həmin tədbirdə Azərbaycanda "erməni mədəni irsi"nin guya təhlükə altında olduğunu iddia edərək, təxribat xarakterli bəyanat səsləndirib".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb. Bəyanatda həmçinin qeyd olunur: "Böhtanla dolu bu bəyanat həm də Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını hələ də davam etdirdiyini göstərir. Ermənistan XİN başçısının "Dağlıq Qarabağ" ifadəsini işlətməsi ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü ancaq sözdə tanıdığını nümayiş etdirir.

Ermənistanın həm öz ərazisində, həm də vaxtilə işğal etdiyi Azərbaycan torpaqlarında Azərbaycan mədəni irsini tamamilə və sistematik şəkildə məhv etdiyini nəzərə alsaq, bu ölkənin hazırda mədəni irs məsələsi ətrafında spekulyasiya aparması riyakarlığın təzahürüdür.

Ermənistan XİN rəhbərinin UNESCO missiyasının göndərilməsi çağırışına gəlincə, vurğulamalıyıq ki, belə bir missiya Azərbaycana deyil, məhz Ermənistana göndərilməlidir. Təəssüf ki, Ermənistanın imtinası səbəbindən hələ də bu ölkəyə UNESCO missiyası baş tutmayıb.

Biz Ermənistandan Azərbaycanın ərazi bütövlüyünə hörmət göstərməyi, bu ölkədə Azərbaycan xalqının mədəni irsinin vəziyyətinin qiymətləndirilməsi üçün UNESCO missiyasının oraya göndərilməsinə razılıq verməyi, dağıdılmış Azərbaycan abidələrinin bərpası, qorunması və mühafizəsi üçün zəruri tədbirlər görməyi tələb edirik".

# Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutulub

Sentyabrın 26-sı saat 16:10 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonunun Ərəvus yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Ləkətağ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini iriçaplı pulemyotlardan atəşə tutub. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

# Nazir Vilayət Eyvazov Yevlaxda vətəndaş qəbulu və sıra baxışı keçirib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov sentyabrın 24-də və 25-də Yevlax Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**





Nazir əvvəlcə Yevlax rayonundakı Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra rayon Polis Şöbəsinin inzibati binasında Yevlax, Kürdəmir, Ağdaş, Ucar, Mingəçevir şəhər və rayonlarından qəbula gələn 445 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Bərdədə yerləşən hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və sosial-məişət şəraiti ilə maraqlanıb.

Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Sonra general-polkovnik Vilayət Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

45 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 338 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Sonda daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası keçirilib

**Sentyabrın 26-da yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən verilən məlumata görə, deputatlar öncə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət edib, abidə önünə tər güllər düzüblər.**



Ali Məclisin ilk iclasını ən qocaman deputat kimi açan Ramiz Məmmədov deputatları təbrik edib və yeddinci çağırış Ali Məclisə seçilmiş deputatların siyahısını oxuyub, yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclasını açıq elan edib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Hesablayıcı komissiyası yaradıldıqdan sonra Ali Məclis sədrinin seçilməsi məsələsinə baxılıb. Ali Məclisin sədri vəzifəsinə təklif olunan namizəd dəstəklənmədiyi üçün Ali Məclisin sədr müavinlərinin seçilməsi məsələsinin müzakirəsinə başlanılıb.

Ali Məclis sədrinin birinci müavini vəzifəsinə 41 saylı Ordubad şəhər seçki dairəsindən deputat seçilmiş Məmmədov Bəxtiyar İbrahim oğlunun namizədliyi irəli sürülüb. Təklif səsə qoyularaq qəbul edilib, Bəxtiyar Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini seçilib.

Göstərilən etimada görə minnətdarlıq edən Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov deyib ki, Ümummilli Liderimiz Heydər Əliyevin siyasi xəttinin ölkəmizdə uğurla davam etdirilməsi sosial-iqtisadi islahatların əhatə dairəsini genişləndirib, müstəqilliyimiz və dövlətçiliyimiz, xalqımızın milli birliyi və mövcud ictimai-siyasi sabitlik daha da möhkəmlənib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz regionda və dünyada söz sahibi olan dövlətə çevrilib. Demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolundakı fəaliyyət, hakimiyyətin bütün qollarında tətbiq edilən yeniliklər, idarəetmənin təkmilləşdirilməsi, ictimai həyatın bütün sahələrində qanunun aliliyinə riayət olunması və qanunvericilik bazasının zənginləşdirilməsi ilə Azərbaycanda təkmil siyasi sistem formalaşıb. Bəxtiyar Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qanunvericilik hakimiyyətinin gücləndirilməsi ilə bağlı müəyyənləşdirdiyi vəzifələrin VII çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin əsas fəaliyyət istiqaməti olacağına, Ali Məclisin muxtar respublikanın inkişafı istiqamətində səlahiyyətləri daxilində səmərəli fəaliyyət göstərəcəyinə əminliyini ifadə edib.

İclası davam etdirən Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov növbəti məsələnin Ali Məclis sədrinin müavininin seçilməsi olduğunu bildirib. Bu vəzifəyə 42 saylı Aşağı Əndəmic seçki dairəsindən deputat seçilmiş Abdullayev Arzu Kamal oğlunun namizədliyi irəli sürülüb.

Səsvermə nəticəsində Arzu Abdullayev Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini seçilib.

Bununla da yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası başa çatıb.

*Rəşad CƏFƏRLİ, "Azərbaycan"*

# Cəbrayıl - Qayıdışın yeni ünvanı









**"Əminəm ki, təqribən 5 il ərzində elə bir yeni Qarabağ, yeni Zəngəzur quracağıq ki, bütün dünya bizə qibtə edəcək". Prezident İlham Əliyevin bu fikirlərinin reallaşmasının, işğaldan azad olunmuş ərazilərimizdə irimiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirilməsinin, keçmiş məcburi köçkünlərin yurdlarına qayıtmasının hər gün şahidi oluruq.**

Yurda qayıdış sevincini yaşamaq Cəbrayıl sakinlərinə də nəsib oldu. Böyük qayıdış proqramına əsasən, yenidən qurulan Cəbrayıl şəhəri dünən ilk köçünü qarşıladı. 36 ailə, 117 nəfər uzun illərdir həsrətini çəkdikləri doğma ocaqlarına qayıtdılar.

1993-cü ildə işğal olunan Cəbrayılın Zəfər tariximizdə xüsusi yeri var. Böyük qayıdışımız 2016-cı ilin Aprel döyüşlərində Cəbrayılın Cocuq Mərcanlı kəndinin azad olunması ilə başlayıb. İkinci Qarabağ müharibəsindəki ilk uğurlarımızdan biri məhz Cəbrayıl ilə bağlıdır. Döyüşlərin birinci həftəsində şəhərin azad olunması Vətən müharibəsinin mühüm hadisəsinə çevrildi.

Cəbrayıl şəhəri azadlığına qovuşduqdan sonra məlum oldu ki, şəhərdən əsər-əlamət qalmayıb, bütün binalar yerlə yeksan edilib.

İşğaldan azad olunan bütün ərazilər kimi, Cəbrayılda da bərpa-quruculuq işləri sürətlə davam edir. Cəbrayıl şəhərinin mərkəzində ümumi sahəsi 7,9 hektar olan yaşayış kompleksi salınıb. Altı kvartaldan ibarət kompleksin inşası sürətlə həyata keçirilir. Burada 4-5 mərtəbəli olmaqla, 33 yaşayış binası tikilir. Bu binalarda 712 mənzil olacaq. Onların 8-nin birotaqlı, 136-sının ikiotaqlı, 8-nin ikiotaqlı studio tipli, 392-sinin üçotaqlı, 168-nin isə dördotaqlı olması nəzərdə tutulur.

Tam təmirli mənzillər mətbəx mebeli, su, qaz və elektrik sayğacları ilə təchiz edilir. Binalar liftlə və mərkəzləşdirilmiş qazanxana vasitəsilə istiliklə təmin olunur. Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq oyun və idman meydançaları da istifadəyə verilir.

Keçmiş məcburi köçkünlərin doğma yerlərinə qayıtması ilə yanaşı, bu bölgənin iqtisadi potensialından istifadə edilməsi, orada yaşayan əhalinin məşğulluğunun təmin olunması, həmçinin digər sosial problemlərin həlli də dövlətin diqqət mərkəzindədir. İşğaldan azad edilmiş torpaqlarımız zəngin "yaşıl enerji" istehsal etmək potensialına da malikdir. Tezliklə Cəbrayılda da günəş enerjisi stansiyası tikiləcək.

Əzəli yurdlarına qovuşan cəbrayıllıları qarşıda daha bir xoş gün gözləyir. Prezidentin sərəncamına əsasən, 44 günlük Vətən müharibəsindəki Zəfərimizdən sonra hər il 4 oktyabr - Cəbrayıl Şəhəri Günü kimi təntənəli şəkildə qeyd olunur. 30 ilə yaxın ən ağır sınaqlardan keçən, illərlə məşəqqətlər içərisində yaşayan cəbrayıllılar bu il bayramı öz doğma torpaqlarında keçirəcəklər.

Qarabağ və Şərqi Zəngəzurda nəhəng bərpa-quruculuq işləri davam edir. Qısa müddət ərzində bir çox layihə başa çatdırılıb. İndiyə qədər görülən işlər minlərlə vətəndaşımızın doğma yurdlarına qayıtmasına şərait yaradıb. Artıq 2147 ailə - 8270 nəfər əzəli yurdlarına geri dönüb. 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 822 ailə (3132 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 204 ailə (763 nəfər) Şuşa şəhərində, 44 ailə (169 nəfər) Xocalı şəhərində, 36 ailə (117 nəfər) Cəbrayıl şəhərində məskunlaşıb.

Tezliklə bütün keçmiş məcburi köçkünlərin əzəli yurdlarına qovuşmasına şahid olacağıq.

*Ü.XASPOLADOVA, "Azərbaycan"*

27 Sentyabr Beynəlxalq Turizm Günüdür

# Ölkəmizdə dağ turizmi də inkişaf edir

**Azərbaycanda son illər turizmin inkişaf etmiş sahələrindən biri də dağ turizmidir. Dağ turizmi deyəndə ilk yada düşən ölkəmizin şimal bölgəsində ilboyu fəaliyyətdə olan "Şahdağ" qış-yay turizm kompleksi olur. "Şahdağ" qış-yay turizm kompleksi dünyadakı bu tipli komplekslərdən nadirliyi və universallığı ilə fərqlənir.**

Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə - Şahdağ Milli Parkının ərazisində yerləşən "Şahdağ" qış-yay turizm kompleksinin təməli 2009-cu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulub. Yarandığı gündən keçmiş MDB məkanında və digər xarici ölkələrdə dağ turizmi həvəskarlarının diqqətini çəkən bu kompleksdə sonralar avtomobil yolu genişləndirilib, körpülər tikilib, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilib. Dəniz səviyyəsindən 1300-2300 metr yüksəklikdə yerləşən turizm kompleksinin ərazisi 2058 hektardır.

Ölkəmizdə dağ-xizək kurortlarına maraq böyükdür. Şahdağ kompleksi fəaliyyətə başlayandan turizm şirkətləri bu məkana yüzlərlə turlar təşkil etmişlər. Mütəxəssislərin fikrincə, dağçılıq idmanı bütün dünyada, o cümlədən də Azərbaycanda populyarlıq qazanıb. Artıq ölkəmizin müxtəlif bölgələrində bu idman növü üzrə 50-dən çox klub fəaliyyət göstərir. İdmançılarımızın sayı isə təxminən 5 minə yaxındır. Onların arasında dağ idmanı üzrə beynəlxalq təcrübəyə yiyələnən onlarca bələdçi var. Ona görə dağ turizminə maraq göstərən şirkətlərin və turistlərin sayı ildən-ilə çoxalır.

Böyük Qafqazda, əsasən də Şahdağ silsiləsində dağ turizmi üzrə yay və qış marşrutları fəaliyyətdədir. Mövsümlə əlaqədar burada Gürcüstandan və Rusiyadan gəlmiş velosipedçilər və skeytbordçular çoxluq təşkil edir. Xüsusi ayrılmış velocığırlarla yarışan dağ velosipedçiləri və hündürlükdəki maneəni aşmaq üzrə yarışan skeytbordçuların adrenalin dolu performansları izləyicilərə həyəcanlı anlar yaşadır. Bu marşrutların üzərində daldalanacaq yerləri, düşərgələr salınması üçün ərazilər müəyyənləşdirilib, eyni zamanda təhlükəsizliklə bağlı müxtəlif işlər görülüb.

Azərbaycanın cənub qapısı olan Naxçıvanda da dağ turizmi sahəsində diqqətçəkən məqamlar çoxdur. Yamac paraşütçüləri Şahbuz rayonunun ərazisində, dağların qoynunda yerləşən Ağbulaq İstirahət Mərkəzində maraqlı uçuşlar həyata keçirirlər. Əlincəqalanın zirvəsindən də uçuşlar olur. İzləyicilərə maraqlı anlar yaşadan paraşüt səyahəti muxtar respublikada bir ilk olmaqla, turizmin hərtərəfli inkişafından xəbər verir.

Ekspertlərin fikrincə, Naxçıvanda son illər qış və dağ turizmində mühüm canlanma müşahidə edilir. İdmanın hava və ekstremal növləri ilə məşğul olanlar Naxçıvanda mövcud olan bu imkanlara maraq göstərirlər. Son bir neçə ildir ki, xarici ölkə alpinistləri muxtar respublikanın əzəmətli dağlarına maraqlı səfərlər edir, həmin anları sosial şəbəkələrdə böyük həvəslə paylaşırlar.

Ölkəmizdə dağ turizminin inkişafı prioritet məsələlərdəndir. Hazırda bu istiqamətdə erməni işğalından azad edilmiş Şuşa, Laçın və Kəlbəcərdə böyük tikinti-quruculuq işləri həyata keçirilir. Qarabağda və Şərqi Zəngəzurda mədəniyyət, təbiət, sağlamlıq, dağ-xizək turizmi istiqamətləri üzrə zəngin resurslar var. Təbiət turizmi üzrə piyada yürüşləri (hayking), yamac paraşütü, dağ velosipedi, dağ çaylarında qayıqçılıq idman növlərinə hazırlıq görülür. Mütəxəssislər bildirirlər ki, Şuşa, Laçın, Kəlbəcərin təbiətində turizm növlərinin inkişafı nisbətən daha böyük potensiala malikdir. Sağlamlıq turizmi üzrə termal bulaqlar, isti vannalar, iqlim kurortları turistlərə təklif edilə bilər. Dağ-xizək turizm istiqaməti üzrə insanlara istər Laçında və Kəlbəcərdə, istərsə də Şuşada və bu yerlərə yaxın dağlıq ərazilərdə müxtəlif xidmətlər göstərmək üçün şərait yaradılacaq.

Laçın təbiət yasaqlığında qırmızı palıd meşələri, mineral sular, bir neçə min il yaşı olan arxeoloji abidələrin mövcudluğu qış turizm mərkəzinin yaradılmasını yaxın vaxtlarda reallaşdıracaq.

Gümrahlıq və xoş ovqat yaradan dağ turizmi üçün Kəlbəcərdə çəmənliklərdə piyada yürüşləri, Qarabağ yaylağında və Qarabağ silsiləsində dağ yürüşləri, Dəlidağın yamaclarındakı İstisuda müalicə və istirahət, Qafqaz Albaniyası memarlığının incisi Gəncəsər monastırına yürüşlər və s. təşkil edilməsi ölkəmizdə dağ turizmini daha da diqqətçəkən edəcək. Burada qış turizminin yaradılması baxımından kurort mehmanxana və sanatoriyaların tikilməsi sürətlə davam etdirilir.

Ötən il avqustun 16-da Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Kəlbəcər və Laçın rayonlarında olarkən dövlətimizin başçısı demişdir: "Bu da gözəl Kəlbəcər dağları, hər tərəf dağ, çay, meşə, cənnətməkan. Cənnətə də çevriləcəkdir".

Son üç ildə Qarabağ və Şərqi Zəngəzurda quruculuq, tikinti-quruculuq işləri sürətlə aparılır. Bunu Fizuliyə, Laçına, Zabuxa, Şuşaya və digər ərazilərə, öz doğma ata-baba yurdlarına qaydan ailələrin timsalında da aydın görmək olur.

Mütəxəssislərin fikrincə, Laçında, Şuşada, Kəlbəcərdə olduğu kimi, Gədəbəydə də dağ turizminin yaradılmasına yaxşı şərait var. Ötən il Gədəbəyə yerli turistlər bir yana, dünyanın 26 xarici ölkəsindən yüzlərlə səyahətçi gəlmişdi.

Qazaxda, Şəmkirdə, Göygöl ətrafında, Daşkəsəndə, Goranboyun dağlıq ərazisində, Quba, Qax, Astara, Lerik, Yardımlı kimi məkanlarda da dağ turizminin inkişafı üçün imkanlar genişdir. Bu təbii imkanlardan istifadə etmək üçün həmin ərazilərdə müvafiq infrastruktur yaradılır.

Azərbaycan Prezidentinin diqqət və qayğısı sayəsində yeni inkişaf mərhələsinə qədəm qoyan dağ turizmi özünün maraqlı və güvənli dövrünü yaşayır. Bu, Azərbaycanın dünyada tanıdılması, ölkəmizin inkişafı, insanların sağlamlığı və yeni iş yerlərinin açılması baxımından çox əhəmiyyətlidir.

*Rəhman SALMANLI, "Azərbaycan"*

# Cəbrayıl şəhərinə yola düşən ilk köç karvanı doğma yurda çatıb

**31 ildən sonra Cəbrayıl şəhəri öz doğma sakinlərinə qucaq açıb. Böyük qayıdış proqramı üzrə Cəbrayıl şəhərinə ilk köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar.**



AZƏRTAC xəbər verir ki, Cəbrayıl şəhəri ilk köç prosesində 36 ailə olmaqla, 117 nəfərə qucaq açıb. Şəhərə qədəm qoyan ailələr böyük coşqu ilə qarşılanıb və Cəbrayıl şəhərində yaradılan gözəlliyi seyr ediblər.

Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Qeyd edək ki, köçürülən ailələrin Cəbrayıl şəhərində dövlətimizin başçısının göstərişi əsasında yenidən tikilən binalarda məskunlaşması üçün bütün şərait yaradılıb.

# <u>Cəbrayıl sakini:</u> "Hisslərim bir-birinə qarışıb"




"Biz oradan çıxanda uşaqlarımız körpə, özümüz cavan idik. Ən gözəl günlərimiz Cəbrayılda keçib, ən xoş xatirələrimiz orada olub".

AZƏRTAC xəbər verir ki, bu sözləri bu gün Cəbrayıl şəhərinə qayıdan keçmiş məcburi köçkün Tünzalə Bəhrəmova söyləyib. Xoş xatirələrinin orada keçdiyini diqqətə çatdıran Cəbrayıl sakini 30 illik arzularının gerçəkləşdiyini bildirib.

"Çox yaxınımızı itirmişik bu 30 ildə. İstəyərdim ki, onlar da burada olardı, bizimlə gedərdi. Hisslərim - sevincim, kədərim bir-birinə qarışıb. Heç fikirlərimi tam ifadə edə bilmirəm. Çox həyəcanlıyam, gözləntilərim çoxdur. Atamın, yaxınlarımın qəbrini ziyarət etmək istəyirəm. Dağlara çıxıb qışqırmaq istəyirəm, bəlkə yatan ruhlar oyana", - deyə o qeyd edib.




# Təmiz ətraf mühit və "yaşıl enerji" Azərbaycanın əsas hədəfləridir

## Həmkarlar İttifaqları Konfederasiyasının təşkilatçılığı ilə Bakıda beynəlxalq konfrans keçirilir

**Sentyabrın 26-da Bakıda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK), Beynəlxalq Əmək Təşkilatı (BƏT-ACTRAV), Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası (BHİK) və Pan-Avropa Regional Şurasının (PARŞ) birgə təşkilatçılığı ilə "İqlim dəyişmələri və ədalətli keçid: həmkarlar ittifaqlarının rolu və fəaliyyətləri" mövzusunda beynəlxalq konfrans keçirilib.**

**Konfransdan öncə AHİK sədri Sahib Məmmədov və tədbir iştirakçıları Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər çiçəklər düzülüb.**



























Konfrans nümayəndələri Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinə dərin ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

Sonra "Fairmont Baku" hotelində Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə konfrans öz işinə başlayıb. Tədbirdə Azərbaycanın hökumət nümayəndələri, AHİK-in və üzv təşkilatların rəhbərləri və əməkdaşları, BƏT-ACTRAV, BHİK və PARŞ-nin rəsmi şəxsləri, eləcə də Avropa, Asiya və Afrikanın müxtəlif ölkələrinin həmkarlar ittifaqlarının rəhbərləri və nümayəndələri, habelə Azərbaycanın iqlim siyasəti üzrə ekspertləri, ekoloji fəallar, sahibkarlar, özəl sektorun və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Konfrans həmkarlar ittifaqlarının iqlim dəyişmələri və ədalətli keçid proseslərindəki rolunun təşviqi, COP29 üçün prioritetlərin müəyyənləşdirilməsi və icrası, dünyanın müxtəlif bölgələrində həmkarlar ittifaqlarının təcrübə mübadiləsi, həmçinin həmkarlar ittifaqları, hökumətlər və işəgötürənlər arasında əməkdaşlığın genişləndirilməsi məqsədini daşıyır.

AHİK sədri Sahib Məmmədov konfransın məqsədi, əhəmiyyəti və aktuallığı barədə məlumat verib. Bildirib ki, COP29 ərəfəsində keçirilən bu konfrans iqlim dəyişmələri ilə mübarizədə uğur qazanmış ölkələrlə bu sahədə təcrübəsi az olan dövlətlər arasında mühüm tribuna olacaq: "Ekspertlərin təqdimatları və aparılan kollektiv müzakirələr ətraf mühitdə itirdiklərimizin bərpasında həmkarlar ittifaqlarının rolu və iştirakı barədə aydın təsəvvürlər yaradacaq. Həmçinin Paris Razılaşmasında nəzərdə tutulan mühüm hədəflərə nail olunmasına və Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşmasına töhfə verəcəyimizə ümid edirik. İqlim dəyişmələri milyardlarla insanın həyatına mənfi təsir göstərir, milyonlarla canlı və bitki növlərinin mövcudluğunu təhlükə altına salır. Azərbaycan qlobal iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizədə öndə gedən ölkələr sırasındadır. Təmiz ətraf mühit və "yaşıl enerji" ölkəmizin əsas hədəfləridir. Görülən işlər təsdiqləyir ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu sahədə müəyyənləşdirdiyi hədəflərinə nəzərdə tutulan vaxtdan daha tez çatacaq".

Sahib Məmmədovun sözlərinə görə, həmkarlar ittifaqlarının da iqlim dəyişmələri və "yaşıl iqtisadiyyat"la bağlı fəal olması, "yaşıl iş yerləri" yaradılmasına önəm verməsi və ideyalarını bölüşməsi olduqca əhəmiyyətlidir: "Hesab edirəm ki, bu istiqamətdə qanunvericiliyin təkmilləşdirilməsi, informasiyanın geniş kütləyə çatdırılması üçün irimiqyaslı müzakirələr keçirilməlidir. Hazırda aşağı karbonlu cəmiyyətə keçid prosesində işçilərin sosial müdafiəsini təşkil etmək üçün həmkarlar ittifaqlarının özəl siyasəti və fəaliyyət planlarının işlənib hazırlanması üzərində işlər aparılır".

Konfederasiya sədri sözügedən mövzu ilə bağlı Azərbaycan həmkarlar ittifaqlarının gördüyü işlərdən də bəhs edib. Vurğulayıb ki, BƏT və AHİK-in birgə təşkilatçılığı ilə Azərbaycanın və Türkmənistanın həmkarlar ittifaqları "Yaşıl iş yerləri və ədalətli keçid" mövzusunda birgə seminar keçiriblər: "Azərbaycanda "yaşıl iş yerləri"nin yaradılması vasitəsilə ekoloji dayanıqlı iqtisadiyyata ədalətli keçid üzrə həmkarlar ittifaqlarının strategiyasının hazırlanması haqqında" analitik icmal hazırlanıb. BƏT/ACTRAV-ın birgə layihəsi çərçivəsində "Qlobal istiləşmə və uyğunlaşmaya ədalətli keçid. Azərbaycan həmkarlar ittifaqlarının fəaliyyəti" mövzusunda 12 tədqiqat işi aparılıb. Həmçinin bu il BƏT ilə birlikdə 4 seminar təşkil olunub. Son illərdə AHİK-in təklifləri əsasında Baş Kollektiv Sazişə salınmış "İçməli suyun keyfiyyəti və içməli su ilə təchizat haqqında" qanun layihəsinin işlənməsinə, habelə texniki təmayüllü təhsil müəssisələrində əməyin mühafizəsi və ekologiya üzrə kafedraların yaradılmasına və sözügedən sahələrdə ixtisaslı məzunların hazırlanmasına başlanılıb. AHİK-in Əmək və Sosial Münasibətlər Akademiyasında əmək üzrə texniki müfəttişlərə ətraf mühitin mühafizəsi və radiasiya təhlükəsizliyi haqqında qanunvericiliyin tədrisi təşkil edilib, fənlər üzrə metodiki vəsaitlər və təlimatlar hazırlanıb".

Çıxışının sonunda AHİK sədri qeyd edib ki, gələcək nəsillərin taleyi, həmçinin daha təmiz, dayanıqlı və ədalətli keçidə nail olmaq üçün hər birimiz qətiyyət və əzmkarlıq nümayiş etdirməliyik.

Ardınca COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin videomüraciəti nümayiş etdirilib.

İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov isə iqlim dəyişmələri ilə mübarizədə Azərbaycanın üzərinə götürdüyü öhdəliklərdən, bu istiqamətdə görülən işlərdən, ölkəmizin "yaşıl enerji" siyasətindən, habelə Qarabağ və Şərqi Zəngəzurda "yaşıl iqtisadiyyat"-la bağlı irihəcmli infrastruktur layihələrinin icrasından danışıb.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev çıxışında iqlim dəyişmələrinin dünya iqtisadiyyatı üzərində təsirlərini qeyd edib, "yaşıl iqtisadiyyat"a keçid və bu aspektdə ortaya çıxacaq sosial risklərdən və onun həlli yollarından söz açıb, eləcə də sosial tərəfdaşlığın önəmini vurğulayıb. Bildirib ki, layiqli əməyə sosial dialoqun inkişafı əsasında nail olunması "yaşıl iqtisadiyyat"a keçid dövründə tədbirlərin uğurla həyata keçirilməsi üçün əsas şərtlərdən biridir və bu, əmək sferasının və sosial müdafiənin inkişafında yeni yanaşmaların tətbiqini zəruri edir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev iqlim dəyişmələrinin fəsadlarından, "yaşıl iqtisadiyyat"a keçid prosesində iş yerlərinin qorunmasından, özəl sektorun dəstəklənməsindən danışıb. Deyib ki, innovasiya və texnologiyaya çıxış, xüsusi maliyyələşdirmə mexanizmləri rəqabət qabiliyyətini və dayanıqlı iqtisadiyyat yaradan uğurlu keçidi təmin etmək üçün vacibdir, eləcə də bir çox risk var və yanlış idarə olunan iqlim siyasəti gözlənilməz nəticələr yarada bilər. O qeyd edib ki, biznes və hökumətlər iş yerləri yaratmalı, iqlim dəyişikliyinin təsirlərini azaltmaqla bərabər, iqtisadiyyatın dayanıqlığını təmin edən layihələr, birgə fəaliyyətlər həyata keçirməlidirlər.

BHİK Baş katibinin müavini Erik Manzinin, BƏT-in Şərqi Avropa və Mərkəzi Asiya ofisinin direktoru Mixail Puşkinin və BƏT-in İşçilərin fəaliyyətləri üzrə Bürosunun direktoru Maria Helena Andrenanın çıxışları dinlənilib. Qonaqlar iqlim dəyişmələrinin dünyada doğurduğu fəsadlardan, bu istiqamətdə beynəlxalq təşkilatların atdığı addımlardan, həmkarlar ittifaqlarının üzərinə düşən vəzifələrdən, bu kontekstdə işçi hüquqları ilə bağlı qarşılıqlı dialoqun və fikir mübadilələrinin əhəmiyyətindən bəhs ediblər.

Açılış mərasimindən sonra konfrans çərçivəsində ədalətli keçid, iqlim dəyişmələri və işçilərin hüquqları ilə bağlı mövzular üzrə panel müzakirələr başlayıb. Həmçinin konfransda iqlim danışıqlarında həmkarlar ittifaqlarının iştirakını artırmaq üçün fəaliyyət planları və strategiyaların hazırlanması istiqamətində interaktiv sessiyalar təşkil olunub, müxtəlif tərəflər arasında əməkdaşlıq üçün görüşlər baş tutub.

Qeyd edək ki, konfrans sentyabrın 27-də də panel müzakirələrlə davam edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Nyu Yorkda 5-ci Xəzər Biznes Forumu olub

**Xəzər Siyasət Mərkəzinin təşkilatçılığı ilə Nyu Yorkda 5-ci ənənəvi Xəzər Biznes Forumu keçirilib.**











AZƏRTAC-ın məlumatına görə, ABŞ və Xəzər regionunun rəsmi şəxsləri, mütəxəssislər və digər maraqlı tərəflər Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında artan biznes və enerji mühitini, regional bağlantı və COP29 gündəliyini müzakirə etmək üçün bir araya gəliblər.

Xəzər Siyasət Mərkəzinin prezidenti Əfqan Nifti açılış nitqində Cənubi Qafqaz və Mərkəzi Asiyanın dünya bazarı və qida zəncirindəki əhəmiyyətini qeyd edib. Onun sözlərinə görə, bir il əvvəl Mərkəzi Asiya dövlət başçıları və ABŞ Prezidenti Co Bayden arasında keçirilmiş C5+1 görüşü yeni mərhələnin başlanğıcı olub. O bildirib ki, Birləşmiş Ştatlar G7 tərəfdaşları ilə birlikdə regionda əsas xarici investisiya mənbəyinə çevrilmiş Qlobal İnfrastruktur və İnvestisiya üzrə Tərəfdaşlıq (PGI) proqramı çərçivəsində əlaqələri genişləndirir.

Əfqan Nifti Orta dəhliz kimi layihələr vasitəsilə regionda nəqliyyat əlaqələrinin artan əhəmiyyətini qeyd edib və Xəzər regionunun istər karbohidrogenlər, istərsə də bərpa olunan enerji ilə dünyanı enerji ilə təmin etmək qabiliyyətini vurğulayıb. O, "yaşıl enerji"yə keçid siyasətinə toxunaraq Azərbaycanın bu ilin noyabrında COP29 konfransına evsahibliyi etməsinin "yaşıl enerji"yə keçidin növbəti illərdə Xəzər regionu üçün həlledici əhəmiyyət kəsb edəcəyinin sübutu olduğunu bildirib.

ABŞ Dövlət Departamentinin enerji məsələləri üzrə köməkçisi Cefri Payat enerji ilə zəngin Xəzər regionunun resurslarının dünya bazarlarına çatdırılmasında həm regionlararası, həm də regiondaxili əməkdaşlığa ehtiyac olduğunu vurğulayıb. O, həmçinin regionun "yaşıl enerji"yə keçidlə bağlı artan əhəmiyyətini şərh edib və Azərbaycanın COP29 çəçivəsində gördüyü işlərdən, əməkdaşlıq imkanlarından danışıb. O, ABŞ-nin regionun enerji təhlükəsizliyini təmin etmək məsələsində dəstəyini ifadə edib.

ABŞ-nin Qobal İnfrastruktur və İnvestisiya üzrə fəaliyyətdə olan xüsusi koordinatoru Helayna Matza Trans-Xəzər dəhlizinin beynəlxalq bazardakı əhəmiyyəti və onun inkişafı üçün ABŞ-nin dəstəyi barədə danışıb. O, komandasının dəmir yolundan limanlara, rəqəmsal, fiber və bütün regionda müxtəlif paylama mərkəzlərinə qədər investisiyaların ilkin sahələrini aktiv şəkildə nəzərdən keçirdiyini bildirib.

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev təmsil etdiyi təşkilatın əməkdaşlığın inkişafı yolu ilə türk dünyasının rifahının artırılmasına verdiyi önəmi qeyd edib. O, bu baxımdan "Türk Dünyası Vizyonu 2040", "TDT 2022-2026 Strategiyası" layihələrinin hazırlandığını qeyd edib. Baş katib artıq nəzərəçarpan nəticələr verən Trans-Xəzər beynəlxalq dəhlizinin strateji əhəmiyyətini qeyd edib.

Türkiyə xarici işlər nazirinin müavini Berris Ekinci Türkiyənin hər zaman etibarlı enerji tərəfdaşı olduğunu deyərək, geniş enerji infrastrukturu vasitəsi ilə regionun enerji təhlükəsizliyinə töhfəsini vurğulayıb: "Biz Azərbaycan, Türkmənistan, Qazaxıstan və Gürcüstanla birlikdə regionun zəngin enerji resurslarını həm Türkiyəyə, həm də Avropada istehlak bazarlarına təqdim etmək üçün daha çox işlər görmək üçün çalışırıq".

Daha sonra çıxış edən Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov, Gürcüstan xarici işlər nazirinin müavini Laşa Darsalia, Qazaxıstan Prezidentinin Beynəlxalq ətraf mühit əməkdaşlığı üzrə xüsusi nümayəndəsi Zulfiya Suleymanova, KOBİA-nın sədri Orxan Məmmədov, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının baş direktoru Taleh Ziyadov, Qazaxıstan Xarici İşlər Nazirliyinin İnvestisiya Komitəsinin sədri Qabidulla Ospankulov və digərləri çıxış edərək Xəzər bağlantısının əhəmiyyəti, regionun inkişafı ilə bağlı görülə biləcək işlər, Azərbaycanın sədrlik etdiyi COP29 və digər istiqamətlər barədə danışıblar.

# *Cefri PAYAT:* "Azərbaycanın enerji təminatçısı rolundan məmnunuq"

**"Azərbaycan bu il COP29-a evsahibliyi etməklə çox əhəmiyyətli rol oynayır".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında ABŞ Dövlət katibinin enerji resursları üzrə köməkçisi Cefri Payat deyib. O, COP29-un Prezidenti Muxtar Babayevlə və Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birolla görüşdüyünü deyib: "Muxtar Babayev görülən işlərlə bağlı kifayət qədər geniş və konstruktiv məlumat verdi və COP29-un həm də enerji keçidi mövzusunda birlikdə işimizi sürətləndirmək baxımından əhəmiyyətini qeyd etdi. Azərbaycan da ABŞ kimi böyük neft və qaz istehsalçısıdır. Biz karbon qazının azaldılması ilə bağlı verdiyimiz vədləri həyata keçirmək, bunu daha sürətli etmək üçün texnologiyaları müəyyənləşdirmək istiqamətində birlikdə çalışmalıyıq və Prezident İlham Əliyevin də dediyi kimi, günəş, külək enerjisini genişləndirməliyik. Bakı küləkli şəhərdir. Beləliklə, biz burada mövcud olan tərəfdaşlıq potensialından və birlikdə edə biləcəyimizi düşündüyümüz bütün imkanlardan, Azərbaycanın Türkiyə və daha sonra Avropa üçün oynadığı enerji təminatçısı rolundan məmnunuq", - deyə Dövlət Departamenti rəsmisi bildirib.

# Maliyyə Nazirliyi İqlim Fəaliyyəti üzrə Maliyyə Nazirlərinin Koalisiyasına tamhüquqlu üzv olub

**Azərbaycan Respublikası Maliyyə Nazirliyi İqlim Fəaliyyəti üzrə Maliyyə Nazirlərinin Koalisiyasına (The Coalition of Finance Ministers for Climate Action) tamhüquqlu üzv qəbul edilib.**

Maliyyə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, 92 ölkənin maliyyə nazirlərinin üzv olduğu İqlim Fəaliyyəti üzrə Maliyyə Nazirləri Koalisiyası 26 beynəlxalq təşkilatla institusional tərəfdaşlıq edir və həmin beynəlxalq təşkilatlar maliyyə nazirlərinin iqlim dəyişikliyi ilə bağlı siyasətlərin işlənib hazırlanması və həyata keçirilməsində səylərini dəstəkləməkdə əsas texniki və məsləhətçi rolunu oynayırlar.

Cari ilin aprel ayında Maliyyə Nazirliyi Beynəlxalq Valyuta Fondu (BVF) və Dünya Bankı Qrupunun Vaşinqton şəhərində keçirilən yaz toplantıları çərçivəsində İqlim Fəaliyyəti üzrə Maliyyə Nazirlərinin Koalisiyasının 11-ci iclasında müşahidəçi statusunda iştirak edib.

# Martinikdə Fransa müstəmləkəçiliyi ilə mübarizə güclənir















**Fransız müstəmləkəçiliyinə qarşı barışmaz mübarizə Martinikdə də davam edir. Adada bir aydan artıqdır davam edən etiraz aksiyaları barədə Fransa mətbuatında az yazılır. Yalnız Paris etirazları yatırtmaq üçün adalara xüsusi polis kontingenti göndərmək qərarına gələndə Avropa mediası bu barədə yazmağa başlayıb.**

Son günlər Martinikdə yerli sakinlər qiymət artımına qarşı dinc etiraz aksiyası keçirirlər. Taksi sürücüləri və ticarətçilərdən sonra yük avtomobilləri sürücüləri də bahalığa qarşı etiraz nümayişinə qoşulublar. Yerli sakinlər adada yaşamağın həddən artıq çətin olmasından şikayətlənirlər.

Media xəbər verir ki, sakinlər yük avtomobilləri sürücülərinin tətilinə dəstək verərək qiymət artımını pisləyiblər. Bildirilir ki, şəhərlərarası strateji marşrutların əksəriyyəti bağlanıb. Yük avtomobilləri sürücüləri vəziyyətin dəyişmədiyi, tələblərinin eşidilmədiyi təqdirdə etirazlarını davam etdirəcəklərini söyləyiblər.

Səhiyyə sektoru da yeni tətillər planlaşdırıb. Həmkarlar İttifaqları sakinləri qeyri-müəyyən müddətə tətil etməyə çağırıb.

Martinik İcraiyyə Şurasının sədri post-kolonial iqtisadi sistemin sona çatdığını bildirərək yerli istehsala üstünlük verməyin vacibliyini vurğulayıb.

Əhali Fransanın kolonial siyasətinə, hüquqlarının kobud şəkildə pozulmasına, kəskin sosial duruma qarşı çıxır, Parisdən müstəmləkəçilik siyasətinə son qoyulmasını və müstəqillik tələb edir.

Fransa hökumətinin Martinik torpaqlarında istifadə etdiyi zəhərli maddələr kənd təsərrüfatı torpaqlarını yararsız hala salıb, əhalinin sağlamlığına ciddi ziyan vurub. Məhz bunların nəticəsidir ki, Martinik dünyada ən çox onkoloji xəstəliklərdən əziyyət çəkən ərazidir.

Martinikdəki etirazlar Fransa hökumətini repressiya aparatının sərt alətini - xüsusi təyinatlı polis qüvvələrini adaya göndərməyə sövq edib. Hər şey Yeni Kaledoniyada olduğu kimidir…

Euronews telekanalı xəbər verir ki, 1959-cu ildə Fransada Əlcəzair üsyanını qanla yatırdığına görə qadağan olunmuş həmin xüsusi təyinatlılar adaya gəliblər. Həmin hadisədən sonra xüsusi təyinatlılardan yalnız son çarə kimi istifadə olunub, məsələn, 2009-cu ildə Qvadelupada iğtişaşların yatırılması zamanı.

Polis gözyaşardıcı qazdan istifadə edib. Bütün bunlar vətəndaşları kəskin etiraz addımları atmağa məcbur edir, hətta yollarda avtomobillərə od vurulur.

Qeyd edək ki, Emmanuel Makron hakimiyyətə gəldikdən sonra Fransada, eləcə də onun müstəmləkəsi olan dənizaşırı departament və ərazilərdə sosial və siyasi gərginlik xeyli artıb. Fransanın iqtisadi böhranlarla, "Sarı jiletlilər" kimi ictimai hərəkatlarla və qeyri-populyar islahatlarla üzləşdiyi dönəmində dənizaşırı ərazilər də tarixi bərabərsizliklə, daha da ağırlaşan problemlərlə qarşılaşıb.

Son illərdə Yeni Kaledoniya, Qvadelupa, Martinik, Reunyon və Mayot kimi ərazilərdə yaşayış səviyyəsinin bahalığına, ictimai xidmətlərə çıxışın və iqtisadi perspektivlərin olmamasına qarşı nümayişlər daha da çoxalıb, əhali yüksək işsizlik, zəif infrastruktur və təhlükəsizlik problemləri ilə üzləşib.

***R.CƏFƏROV,***
***"Azərbaycan"***

# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

# Qaradağlı faciəsinin qurbanı Mirzəli Quliyevin nəşinin qalıqları 32 ildən sonra doğma kəndində torpağa tapşırılıb

**Xocavəndin Qaradağlı kəndində ermənilərin törətdiyi faciə zamanı itkin düşmüş sayılan Quliyev Mirzəli Müslət oğlunun nəşinin qalıqları 32 ildən sonra doğma kəndində torpağa tapşırılıb.**



AZƏRTAC xəbər verir ki, Mirzəli Quliyev 1952-ci ildə Qaradağlı kəndində dünyaya göz açıb. Doğma kəndinin müdafiəsi zamanı sona qədər döyüşüb. Erməni hərbi birləşmələrinin kəndi işğal etdiyi zaman Mirzəli Quliyev də əsir götürülüb və onun taleyindən ötən müddətdə heç bir məlumat olmayıb. Torpaqlarımız işğaldan azad ediləndən sonra onun nəşinin qalıqları Ağdam-Xocavənd rayonlarının sərhədində aşkarlanaraq şəxsiyyəti dəqiqləşdirilib. Şəhidin nəşi bu gün doğma kəndi Qaradağlıya gətirilib, vida mərasimi olub, cənazə namazı qılınıb, şəhidlərin ruhuna dualar oxunub. Mirzəli Quliyevin nəşinin qalıqları Qaradağlı Şəhidlər xiyabanında dəfn edilib. Dəfn mərasimində şəhidin ailə üzvləri, yaxınları ilə yanaşı, rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, kənd sakinləri iştirak ediblər.

# Birinci Qarabağ müharibəsinin şəhidi Vaqif Alıyevin nəşinin qalıqları Gəncədə dəfn olunub

**Ağdərə rayonunun Sırxavənd kəndində nəşinin qalıqları aşkar edilən Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan Vaqif Sərdar oğlu Alıyev Gəncə şəhərində dəfn edilib.**

AZƏRTAC xəbər verir ki, şəhidin nəşinin qalıqları Gəncə Şəhidlər xiyabanında torpağa tapşırılıb.



Dəfn mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin məsul işçiləri, şəhər hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, ictimaiyyət nümayəndələri və şəhidin doğmaları iştirak ediblər.

Vaqif Sərdar oğlu Alıyev 1966-cı il mayın 28-də Gədəbəy rayonunun Qoşabulaq kəndində anadan olub. O, 1993-cü il sentyabrın 29-da Ağdərə rayonunun Sırxavənd kəndi istiqamətində itkin düşmüşdü.

# Ermənistanda məyusluq hökm sürür

## Müharibənin ildönümü bu ölkədə depressiya, çaşqınlıq və ümidsizlik şəraitində keçən matəm günü kimi xatırlanır

**Vətən müharibəsinin başlamasının 4-cü ildönümü Azərbaycanda xüsusi qeyd edilməkdədir. Çünki işğal edilmiş ərazilərimizin azad edilməsi uğrunda 44 gün davam edən savaş respublikamızın qeyd-şərtsiz qələbəsi ilə başa çatdı. Bu müharibədə qazandığımız qələbə, ədalətin zəfər çalması ermənilər üçün unudulmaz dərs oldu.**

Azərbaycan üçün 44 günlük müharibə qürur mənbəyi olduğu halda, Ermənistanda əsl məyusluq hökm sürür. Bu ölkədə müharibənin başlanmasının ildönümü depressiya, çaşqınlıq, ümidsizlik şəraitində keçən matəm günü kimi xatırlanmaqdadır.

Məsələn, erməni politoloq Karen Vardanyan olduqca pessimistdir. O qeyd edir ki, Azərbaycan hər zaman istəyinə nail olmaq gücündədir: "Azərbaycanlılar öz proqramlarını həyata keçiriblər. Yəni Qarabağı azad ediblər. İndi isə onların qarşısında daha böyük proqramı həyata keçirmək durur".

O bildirib ki, indi Azərbaycanın qarşısında dayanan vəzifə Zəngəzuru, Basarkeçəri, İrəvanı, Qarakilsəni və digər əraziləri azad etməkdir: "Hazırda Azərbaycanda növbəti nəsli buna hazırlayırlar. Çünki bilirlər ki, xoşluqla heç kim bu əraziləri onlara qaytarmayacaq. Əgər onlar Qarabağı azad ediblərsə, onda niyə sadaladığım torpaqları da geri qaytarmasınlar".

Erməni siyasi şərhçi Levon Naumyan deyib ki, Ermənistan öz məğlubiyyətinin başlanmasının ildönümünü tamam başqa halda qarşılayır: "Dörd il ötməsinə baxmayaraq, Ermənistan İkinci Qarabağ müharibəsinin nəticələrindən sonra hələ özünə gələ bilməyib. Onun özünə gəlməsi mümkün də deyil. Respublika yeni reallıqla barışmalı olacaq. Lakin təəssüf ki, Ermənistan beynəlxalq cəhdlərini davam etdirir, ənənəyə görə güclü olduğu sahələrdə, yəni intriqalar və beynəlxalq təzyiq sahələrində qarşıdurmanı davam etdirməyə çalışır. Ermənistan öz yaralarını yalayır və heç kəs ondan hər hansı qətiyyətli hərəkət və igidlik gözləmir".

"4rd.am" nəşrinin "youtube" platformasında yayımlanan reportajda erməni xalqının ağır günlər yaşadığı qeyd olunub. "Ermənistanda İkinci Qarabağ müharibəsinin dördilliyi ilə bağlı nə düşünürlər?" reportajında ermənilər çox ağır məğlubiyyətin yaşandığını, bunun ölkə üçün dəhşətli olduğunu ifadə ediblər. Onlar bunu xüsusi bildirirlər ki, 44 günlük müharibə Ermənistanın rüsvayçılığıdır.

Digər erməni isə məğlubiyyəti ümumi faciə adlandırıb: "Qarabağın itirilməsi bizi çox ağır sınaqlara düçar etdi. Azərbaycan necə deyirdi, elə də etdi. Bizimkilər rusları düşünürdü, Rusiya isə bunu etmədi, öz müttəfiqinin hayına yetmədi. Çox zaman keçməlidir, ancaq zaman da bu ağrını sağalda bilməz".

Ümumiyyətlə, reallıq ondan ibarətdir ki, müharibədəki məğlubiyyət ermənilərə böyük dərd olub. Aydın görünür ki, Ermənistan və onun xalqı işğal siyasətinin faciəsini yaşayır. Güclü Azərbaycan dövləti qarşısında Ermənistanın müharibə və postmüharibə dövründəki məğlubiyyəti hayları dərin fəlakətə sürükləyib.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# ALLAH RƏHMƏT ELƏSİN!

Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxsin İdarə Heyətinin sədri

**KÖÇƏRLİ HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxsin İdarə Heyətinin sədri

**KÖÇƏRLİ HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi İlqar Abbasov və agentliyin kollektivi

**KÖÇƏRLİ HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Euroline" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Nəsir Məmmədov və şirkətin kollektivi "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxsin İdarə Heyətinin sədri

**KÖÇƏRLİ HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Avro-Asiya İnşaat Korporasiyası "EVRASCON" ASC-nin rəhbərliyi "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxsin İdarə Heyətinin sədri

**KÖÇƏRLİ HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə qardaşı

**HABİL QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxsin İdarə Heyətinin sədri

**KÖÇƏRLİ HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4195**
**Sifariş 2172**

**Qiyməti 60 qəpik**